MÜQƏDDİMƏ . . . 3
Həccin dəyəri və əhəmiyyəti . . . 3
Həcci tərk etməyin hökmü . . . 4
Həcc və umrənin qisimləri . . . 5
Təməttu həcci . . . 7
İfrad həcci və mufrədə umrə . . . 8
Qiran həcci . . . 9
Təməttu həccinin ümumi hökmləri . . . 10
BİRİNCİ HİSSƏ: HƏCCƏTUL-İSLAM VƏ NİYABİ-HƏCC . . . 12
BİRİNCİ FƏSİL: HƏCCƏTUL-İSLAM . . . 12
Həccətul-islamın vacib olmasının şərtləri . . . 13
Ağıl və həddi-büluğ . . . 14
İstitaət . . . 15
İKİNCİ FƏSİL: NİYABİ-HƏCC . . . 19
Naib şəxsin şərtləri . . . 20
Naibliyi edilən şəxsin şərtləri . . . 21
Həcc üçün naibliyə aid məsələlər . . . 22
İKİNCİ HİSSƏ: UMRƏNİN ƏMƏLLƏRİ . . . 24
BİRİNCİ FƏSİL: EHRAMIN MİQATLARI . . . 24
Miqata aid məsələlər . . . 26
İKİNCİ FƏSİL: EHRAM . . . 28
1- Ehramın vacib əməlləri . . . 29
1. Niyyət . . . 29
2. “Ləbbeyk” demək . . . 30
3. Ehramın iki hissədən ibarət paltarını geyinmək . . . 32
2- Ehramın müstəhəb əməlləri . . . 33
3- Ehramın məkruh əməlləri . . . 34
4- Ehramın haram əməlləri . . . 35
Ehramın haram əməlləri . . . 36
Ehramın haram əməllərinin hökmləri . . . 37
1- Tikişli paltar geyinmək (kişilər üçün) . . . 37
2- Ayağın üstünü tam örtmək (kişilər üçün) . . . 38
3- Kişilər üçün başı örtmək və qadınlar üçün üzü örtmək . . . 39
4- Kölgə altında olmaq (kişilər üçün) . . . 40
5- Xoş qoxu istifadə etmək . . . 41
6- Aynaya baxmaq . . . 42
7- Üzük taxmaq . . . 43
8- Xınadan və saç boyasından istifadə etmək . . . 44
9- Bədənə yağ sürtmək . . . 45
10- Baş və bədənin tükünü qoparmaq və ya qırxmaq . . . 46
11- Sürmə çəkmək . . . 47
12- Dırnaq tutmaq . . . 48
13- Bədəndən qan çıxartmaq və dişi çəkmək . . . 49
14- Fasiqlik . . . 50
15- Mübahisə etmək . . . 51
16- Bədəndə olan həşəratları öldürmək . . . 52

17- Hərəmin ağaclarını və ya bitkilərini kökündən qoparmaq və kəsmək . . . 53
18- Silah gəzdirmək . . . 54
19- Səhrada yaşayan çöl heyvanlarını ovlamaq . . . 55
20- Cinsi əlaqə . . . 56
21- Qadınla izdivac əqdi bağlamaq . . . 57
22- İstimna . . . 58
Kəffarələrin hökmləri . . . 59
Məkkə şəhərinə tərəf hərəkət etmək . . . 60
Məscidul-hərama daxil olmağın müstəhəb əməlləri . . . 61
ÜÇÜNCÜ FƏSİL: TƏVAF VƏ TƏVAF NAMAZI . . . 62
Təvafın şərtləri . . . 63
Təvafın vacib əməlləri . . . 67
Təvaf namazı . . . 70
DÖRDÜNCÜ FƏSİL: SƏFA VƏ MƏRVƏ ARASINDA SƏY ETMƏK . . . 71
Səyin müxtəlif məsələləri . . . 72
BEŞİNCİ FƏSİL: TƏQSİR . . . 73
**ÜÇÜNCÜ HİSSƏ: HƏCCİN ƏMƏLLƏRİ** . . . 74
BİRİNCİ FƏSİL: EHRAM . . . 74
İKİNCİ FƏSİL: ƏRƏFATDA VUQUF ETMƏK . . . 75
ÜÇÜNCÜ FƏSİL: MƏŞ`ƏRUL-HƏRAMDA VUQUF ETMƏK . . . 76
DÖRDÜNCÜ FƏSİL: RƏMYİ-CƏMƏRƏ . . . 77
BEŞİNCİ FƏSİL: QURBAN KƏSMƏK . . . 78
ALTINCI FƏSİL: TƏQSİR VƏ YA HƏLQ . . . 79
YEDDİNCİ FƏSİL: MƏKKƏNİN ƏMƏLLƏRİ . . . 80
SƏKKİZİNCİ FƏSİL: MİNADA BEYTUTƏ . . . 81
DOQQUZUNCU FƏSİL: ÜÇ SÜTUNU DAŞLAMAQ . . . 82

# Həccin dəyəri və əhəmiyyəti

**Həcc – müqəddəs İslam şəriətində xüsusi ayinlərin məcmusudur. Həcc ziyarəti İslam dininin təməl sütunlarından sayılır. Hədislərin birində İmam Baqir (ə) buyurub:**

**بُنِیَ اْلاِسَلامُ عَلَیٰ خَمْسٍ، عَلَی الصَّلاةِ وَ الزَّكَاةِ وَ الصَّوْمِ وَ الْحَجِّ وَ الْوَلايَةِ.**

**“İslam beş sütun üstündə qurulub: Namaz, zəkat, oruc, həcc və vəlilik.”[1]**

**İstər vacib həccin, istərsə də müstəhəb həccin böyük dəyəri və çoxlu mükafatı vardır. Həccin dəyəri barəsində Həzrət Peyğəmbərdən (s) və onun pak Əhli-beytindən (ə) çoxsayda hədis nəql olunubdur. İmam Sadiq (ə) buyurub:**

**اَلْحَاجُ وَ الْمُعْتَمَرُ وَفْدُ اللّٰهِ، إنْ سَأَلُوهُ أَعْطَاهُمْ، وَ إنْ دَعُوهُ اَجَابَهُمْ، وَ إنْ شَفَعُوا شَفَّعَهُمْ، وَ إنْ سَكَتُوا اِبْتَدَأَهُمْ، وَ يُعَوَّضُونَ بِالدِّرْهَمِ أَلْفَ أَلْفَ دِرْهَمٍ.**

**“Həcc və umrə yerinə yetirənlər Allah yoluna çıxan müsafirlərdir. Əgər onlar Allahdan bir şey istəsələr, Allah bu şeyi onlara əta edər. Əgər onlar Allahı çağırsalar, Allah onlara cavab verər. Əgər onlar şəfaət etsələr, Allah onların şəfaətini qəbul edər. Onlar sakit olduqda, Allah onlarla (ünsiyyətə) başlayar. Onlar (həcc səfərində xərclədikləri) hər dirhəmin əvəzində min-min dirhəm geri alarlar.”[2]**

---

[1] “Əl-Kafi”, c. 2, səh. 18, hədis: 1; “Vəsailuş-şiə”, c. 1, səh. 7, hissə: 1, hədis: 1

[2] “Əl-Kafi”, c. 4, səh. 255, hədis: 14

## Həcci tərk etməyin hökmü

**Məsələ 1. Həcc – dinin zəruri göstərişlərindən hesab olunur. Həccin vacibliyi "Kitab"a və "sünnə"yə söykənən çoxsayda dəlillər ilə sübuta yetmişdir. Əgər həccin şərtlərinə malik olan və onun vacibliyini bilən bir şəxs həcci tərk edərsə, böyük günah etmişdir. Mütəal Allah Qurani-Kərimdə buyurur:**

وَلِلهِ عَلَى النّاسِ حِجُّ الْبَيْتِ مَنِ اسْتَطَاعَ إِلَيْهِ سَبِيلًا وَ مَنْ كَفَرَ فَإِنّ اللّٰهَ غَنِیٌّ عَنِ الْعَالَمِينَ.

**"Allaha xatir o evin (Kəbənin) həccini yerinə yetirmək insanların – (əlbəttə) həccin yoluna qüvvəsi çatan insanların – üzərinə vəzifə qoyulubdur. Hər kim küfr etsə (həcci yerinə yetirməsə), heç şübhəsiz, Allah aləmlərdən ehtiyacsızdır."[1]**

**İmam Sadiq (ə) buyurub:**

مَنْ مَاتَ وَ لَمْ يَحُجَّ حَجّةَ الْاِسْلامِ وَ لَمْ يَمْنَعْهُ مِنْ ذٰلِکَ حَاجَةٌ تَجْحِفُ بِهِ أَوْ مَرَضٌ لا يَطِيقُ فِيهِ الْحَجّ أَوْ سُلْطَانٌ يَمْنَعُهُ، فَلْيَمُتْ يَهُودِيًا أَوْ نَصْرَانِيًا.

**"Hər kim həccətul-islamı yerinə yetirmədən ölsə, halbuki həcci yerinə yetirməsinə maneə yaradan qaçılmaz bir ehtiyacı olmasa, yaxud ağır bir xəstəliyi olmasa, yaxud da onun qarşısını kəsən bir hökmdar olmasa, onda o, yəhudi və ya məsihi kimi ölər."[2]**

[1] "Ali-İmran" surəsi, ayə 97

[2] "Təhzibul-əhkam", c. 5, səh. 17

## Həcc və umrənin qisimləri

**Məsələ 2.** **Bir şəxs həcci ya özü üçün yerinə yetirir, ya da başqa bir şəxsə naib olub onun əvəzinə yerinə yetirir. Başqasının əvəzinə yerinə yetirilən həccə "niyabi-həcc" deyilir. İnsanın özü üçün yerinə yetirdiyi həcc iki qismə ayrılır: vacib həcc və müstəhəb həcc.**

**Məsələ 3.** **Vacib həcc iki qismə ayrılır: 1- Şəriətin birbaşa hökmü olan vacib həcc və bu, "həccətul-islam" adlanır; 2- Müəyyən bir səbəbə görə, məsələn, nəzir etmək və ya həccin düzgün olmaması səbəbilə vacib olan həcc.**

**Məsələ 4.** **Həccin hər bir qisminin, yəni həccətul-islamın və niyabi-həccin bir sıra hökmləri və şərtləri vardır. Bu hökmlər və şərtlər kitabın birinci hissəsində iki fəsil daxilində açıqlanacaqdır.**

**Məsələ 5.** **Həcc başqa bir baxımdan üç qismə ayrılır: təməttu, ifrad və qiran. Təməttu həcci, vətəni Məkkədən 48 mil (təxminən 90 kilometr) uzaqlıqda yerləşən şəxslərə vacib olur. İfrad və qiran həcləri isə Məkkə sakini olan və ya Məkkədən 48 mildən az bir məsafədə yaşayan şəxslərə vacib olur. Təməttu həccinin bir sıra ayinləri və əməlləri digər iki hədən fərqlənir.**

**Məsələ 6.** **Təməttu həccinin ifrad və qiran həcləri ilə əsas fərqi budur ki, təməttu həcci umrə və həcdən təşkil olunan bir ibadətdir. Təməttu həccinin birinci hissəsi olan umrə, həcdən qabaq yerinə yetirilir. Onların ikisi arasında müəyyən bir zaman fasiləsi olur və bu fasilədə insan ehramdan çıxır. Buna görə də həcc üçün ehram bağlayanadək "muhrim şəxs"ə (yəni ehramda olan insana) haram olan işlərdən bəhrələnmək ona halal olur. Elə bu səbəbdən ona "təməttu həcci" deyilir. Həcc isə təməttu həccinin ikinci hissəsi sayılır. Təməttu həccinin umrəsi və həcci eyni ildə yerinə yetirilməlidir. İfrad və qiran həcləri isə yalnız həccə şamil olur və umrə ondan ayrı bir ibadət hesab olunur. Bu umrə "mufrədə umrə" adlanır. Odur ki, "mufrədə umrə" bir ildə, "ifrad həcci" və ya "qiran həcci" başqa bir ildə yerinə yetirilə bilər.**

**Məsələ 7.** **Təməttu umrəsinin və mufrədə umrənin müştərək hökmləri vardır və kitabın ikinci hissəsində açıqlanacaqdır. Həmçinin onların bir sıra fərqli hökmləri vardır və 16-cı məsələdə qeyd olunub.**

**Məsələ 8.** **Umrə də həcc kimi bəzən vacib, bəzən də müstəhəb olur.**

**Məsələ 9.** **İslam şəriətinə görə umrə, istitaətin şərtlərinə – bu şərtlər həcc barəsində açıqlanacaqdır[1] – malik olan şəxsə ömürdə bir dəfə vacib olur. Umrənin vacibliyi həccin vacibliyi kimi "təcili"dir. Umrənin vacib olması baxımından həcc üçün istitaətin olması əsas götürülmür. Əksinə, əgər bir şəxs umrə üçün mustəti olsa[2], umrə ona vacib olur, baxmayaraq ki, həcc üçün mustəti olmayıbdır. Bunun əksi də belədir. Yəni əgər bir şəxs həcc üçün mustəti olsa, amma umrə üçün mustəti olmasa, o, həcci yerinə yetirməlidir. Əlbəttə, bu hökm Məkkə sakini olan və ya Məkkədən 48 mildən az bir məsafədə yaşayan şəxslərə aiddir. Amma Məkkədən uzaqda yaşayan və təməttu həcci yerinə yetirməli olan şəxslər üçün umrənin istitaəti həccin istitaətindən və həccin istitaəti umrənin istitaətindən ayrı deyildir. Çünki təməttu həcci hər iki əməldən təşkil olunub və onların hər ikisi eyni ildə yerinə yetirilməlidir.**

**Məsələ 10.** **Mükəlləf (yəni şəri vəzifə daşıyan şəxs) ehramsız Məkkə şəhərinə daxil ola bilməz. Əgər o, həcc mövsümündən qeyri bir vaxtda Məkkə şəhərinə daxil olmaq istəsə, "mufrədə umrə" ehramı ilə ora daxil olmalıdır. Amma iki qrup şəxs istisna təşkil edir:**
**1- İşi ilə əlaqədar Məkkə şəhərinə tez-tez getmək məcburiyyətində olan şəxslər;**
**2- Həcc və ya umrə əməllərindən sonra Məkkədən xaric olan, amma həcc və ya umrəni yerinə yetirdikləri həmin ayda yenidən Məkkəyə daxil olmaq istəyən şəxslər.**

**Məsələ 11.** **Umrəni təkrar yerinə yetirmək həcci təkrar yerinə yetirmək kimi müstəhəbdir. İki umrə arasında müəyyən zaman fasiləsinin olması şərt deyildir. Amma ehtiyata görə, bir şəxs bir ayda özü üçün yalnız bir umrə yerinə yetirə bilər. Əgər o, başqa şəxslər üçün iki umrə yerinə yetirsə və ya bir umrə özü üçün və bir umrə də başqa şəxs üçün yerinə yetirsə, sözügedən ehtiyat lazım deyildir. Beləliklə, əgər bir şəxs ikinci umrəni başqa bir şəxsin əvəzinə yerinə yetirsə, bunun qarşılığında həmin şəxsdən ücrət ala bilər. Yerinə yetirilən bu umrə həmin şəxsin "mufrədə umrəsi" üçün, hətta vacib umrə olsa belə, kifayət edir.**

[1] Bu şərtlər məsələ 34-dən başlayaraq bir neçə məsələdə açıqlanacaqdır.

[2] **Mustəti olmaq, yəni istitaətin şərtlərinə malik olmaq. Müt.**

## Təməttu həcci

**Məsələ 12.** **Təməttu həcci iki əməldən təşkil olunur: təməttu umrəsi və təməttu həcci. Təməttu umrəsi təməttu həccindən qabaq yerinə yetirilir. Onların hər birinin özünəməxsus əməlləri vardır və bu əməllər sonrakı iki məsələdə qeyd olunubdur.**

**Məsələ 13.** **Təməttu umrəsinin əməlləri aşağıdakılardır:**

**1- "Miqat"ların birində ehram bağlamaq;**

**2- Kəbəni təvaf etmək;**

**3- Təvaf namazı qılmaq;**

**4- Səfa və Mərvə arasında "səy etmək";**

**5- Təqsir etmək (saçın və ya dırnağın bir qədərini qısaltmaq).**

**Məsələ 14.** **Təməttu həccinin əməlləri aşağıdakılardır:**

**1- Məkkə şəhərində ehram bağlamaq;**

**2- Zil-hiccə ayının 9-cu günü zöhrdən etibarən şəri qürubadək Ərəfatda vuquf etmək;**

**3- Zil-hiccə ayının 10-cu gecəsi Günəş doğanadək Məş`ərul-həramda vuquf etmək;**

**4- Qurban bayramı günü (zil-hiccə ayının 10-cu günü) "cəmərəyi-əqəbə"yə xırda daş atmaq (rəmy);**

**5- Qurban kəsmək;**

**6- Başı qırxmaq və ya təqsir etmək;**

**7- Həcc təvafını etmək;**

**8- Təvaf namazını qılmaq;**

**9- Səfa və Mərvə arasında səy etmək;**

**10- Nisa təvafını etmək;**

**11- Nisa təvafının namazını qılmaq;**

**12- On birinci gecə Minada gecələmək (beytutə);**

**13- On birinci gün üç sütuna xırda daş atmaq;**

**14- On ikinci gecə Minada gecələmək;**

**15- On ikinci gün üç sütuna xırda daş atmaq.**

## İfrad həcci və mufrədə umrə

**Məsələ 15.** **İfrad həcci təməttu həcci kimi yerinə yetirilir. Yalnız bu fərq vardır ki, təməttu həccində qurban kəsmək vacibdir, amma ifrad həccində müstəhəbdir.**

**Məsələ 16.** **Mufrədə umrə də təməttu umrəsi kimi yerinə yetirilir. Amma onlar arasındakı fərqlər aşağıdakılardır:**

**1- Təməttu umrəsində insan hökmən təqsir etməlidir, amma mufrədə umrədə başı qırxmaq ilə təqsir etmək arasında seçim edə bilər. Əlbəttə, bu hökm kişilərə aiddir. Qadınlar istər mufrədə umrədə, istərsə də təməttu umrəsində yalnız təqsir etməlidirlər.**

**2- Təməttu umrəsində Nisa təvafı və bu təvafın namazı vacib deyildir. Baxmayaraq ki, təqsir etməmişdən qabaq bu iki əməli qəsdirəca ilə yerinə yetirmək ehtiyata müvafiqdir. Amma mufrədə umrədə Nisa təvafını etmək və bu təvafın namazını qılmaq vacibdir.**

**3- Təməttu umrəsi həcc aylarının birində, yəni şəvval və ya zil-qə`də və ya zil-hiccə aylarında yerinə yetirilməlidir. Amma mufrədə umrəni ilin istənilən günü yerinə yetirmək düzgündür.**

**4- Təməttu umrəsinin miqatı beş miqatdan biridir və bunun izahı irəlidə veriləcəkdir. Amma mufrədə umrənin miqatı Məkkə şəhəri daxilində olan şəxs üçün "ədnəl-hill"dir (hərəmin xaricindən hərəmə ən yaxın olan yerdir). Əlbəttə, mufrədə umrə üçün beş miqatdan birində də ehram bağlamağa icazə verilir. Məkkə şəhərindən kənarda olan şəxs isə mufrədə umrə yerinə yetirmək istədikdə, bunun üçün beş miqatdan birində ehram bağlamalıdır.**

## Qiran həcci

**Məsələ 17. Qiran həcci ifrad həcci kimi yerinə yetirilir. Amma onların arasındakı fərqlərdən biri budur ki, qiran həccində ehram halında qurbanlıq heyvan "muhrim şəxs"in (ehramda olan insanın) yanında olmalıdır. Deməli, qurban kəsmək ona vacibdir. Digər bir fərq budur ki, qiran həccində ehram bağlamaq həm "ləbbeyk" demək ilə baş tutur, həm də "iş`ar" və ya "təqlid"[1] ilə baş tutur. Amma ifrad həccində yalnız "ləbbeyk" demək ilə baş tutur.**

[1] Bu iki terminin izahı 140-cı məsələdə açıqlanıbdır.

## Təməttu həccinin ümumi hökmləri

**Məsələ 18.** **Təməttu həccinin düzgün olmasının şərtləri aşağıdakılardan ibarətdir:**

**1- Niyyət etmək: Yəni şəxs təməttu umrəsi üçün ehram bağlayarkən təməttu həccini də yerinə yetirmək niyyətində olmalıdır, əks halda, onun həcci düzgün deyildir;**

**2- Umrə və həccin məcmusu "həcc ayları"nda yerinə yetirilməlidir;**

**3- Umrə və həcc eyni ildə yerinə yetirilməlidir;**

**4- Umrə və həcc bir şəxs üçün və bir nəfər tərəfindən yerinə yetirilməlidir. Deməli, əgər bir şəxs iki nəfəri əcir etsə ki, onlardan biri mərhum şəxsin əvəzinə təməttu umrəsini, digəri isə təməttu həccini yerinə yetirsin, bu, kifayət etmir.**

**Məsələ 19.** **Şəri vəzifəsi "təməttu həcci"ni yerinə yetirmək olan bir şəxs ixtiyari şəkildə və bilərəkdən təməttu həccini ifrad və ya qiran həccinə çevirə bilməz.**

**Məsələ 20.** **Şəri vəzifəsi "təməttu həcci"ni yerinə yetirmək olan bir şəxs əgər vaxtın darlığına görə umrəni başa çatdıra və həccə çata bilməyəcəyini bilsə, o, təməttu həccini ifrad həccinə çevirməlidir. Həccin əməllərini başa çatdırdıqdan sonra mufrədə umrə yerinə yetirməlidir.**

**Məsələ 21.** **Təməttu həccini yerinə yetirmək istəyən qadın əgər "miqat"a çatdıqda heyz olsa və ehtimal etsə ki, təməttu həccinin ehramını bağlamaq üçün vaxt daralmamışdan qabaq paklanacaq və qüsl etdikdən sonra təməttu umrəsinin əməllərini yerinə yetirə biləcəkdir, daha sonra həcc ehramı ilə Ərəfə gününün zöhr vaxtının əvvəlindən etibarən Ərəfatda vuquf edə biləcəkdir, bu qadın "miqat"da təməttu umrəsi üçün ehram bağlamalıdır. Bundan sonra əgər o, heyzdən paklansa və umrənin əməllərini yerinə yetirmək, habelə Ərəfatda "ixtiyari-vuquf" etmək üçün kifayət qədər vaxtı olsa, bu əməlləri yerinə yetirməlidir. Amma əgər təsadüfən heyzdən paklanmasa və ya Ərəfatda vuquf etmək vaxtı çatanadək umrənin əməllərini yerinə yetirmək üçün kifayət qədər vaxtı olmasa, o, həmin təməttu umrəsinin ehramı ilə təməttu umrəsini ifrad həccinə çevirməlidir. Daha sonra mufrədə umrə yerinə yetirməlidir. Onun bu əməli təməttu həcci üçün kifayət edir.**

**Amma əgər o, əmin olsa ki, həcc üçün ehram bağlamaq və Ərəfatda vuquf etməyin vaxtı çatanadək heyzdən paklanmayacaqdır, yaxud paklansa belə, Ərəfatda vuquf etməyin vaxtı çatanadək umrənin əməllərini yerinə yetirmək üçün kifayət qədər vaxtı olmayacaqdır, bu halda elə həmin "miqat"da "ma fiz-zimmə" niyyətilə və ya ifrad həcci niyyətilə ehram bağlamalıdır. Həccin əməllərini yerinə yetirdikdən sonra mufrədə umrə yerinə yetirməlidir. Onun bu əməli təməttu həcci üçün kifayət edəcəkdir.**

**Amma əgər o, "miqat"da ehram bağlayarkən pak vəziyyətdə olsa, lakin yol əsnasında və ya Məkkədə umrənin təvafını yerinə yetirməmişdən və təvaf namazını qılmamışdan qabaq, yaxud da təvaf əsnasında dördüncü dövrü başa çatdırmamışdan qabaq heyz olsa, beləliklə də umrənin əməllərini yerinə yetirmək və Ərəfatda "ixtiyari-vuquf"un vaxtı çatanadək paklanmasa, bu halda iki seçim edə bilər: Ya həmin təməttu ehramı ilə təməttu umrəsini ifrad həccinə çevirsin və ifrad həccinin əməllərini yerinə yetirdikdən sonra mufrədə umrəni yerinə yetirsin. Bu halda onun bu əməli təməttu həcci üçün kifayət edir. Ya da umrənin təvafını və təvaf namazını tərk edib, "səy"i və "təqsir"i yerinə yetirsin və umrə ehramından xaric olsun. Daha sonra həcc ehramı ilə "vuqufeyn"də qalsın və Minanın əməllərini yerinə yetirsin. Məkkəyə qayıtdıqda isə – həcc təvafını yerinə yetirməmişdən və təvaf namazını qılmamışdan, habelə "səy"i yerinə yetirməmişdən qabaq, yaxud da bunları yerinə yetirdikdən sonra – umrə təvafının qəzasını yerinə yetirsin və təvaf namazının qəzasını qılsın. Onun bu əməli də təməttu həcci üçün kifayət edir və onun öhdəsinə başqa bir vəzifə gəlmir.**

**Əgər o, təvaf əsnasında dördüncü dövrü başa çatdırdıqdan sonra heyz olsa, təvafın davamını və təvaf namazını tərk etməli və "səy"i və "təqsir"i yerinə yetirib, umrə ehramından xaric olmalıdır. Daha sonra "vuqufeyn"də qalmalı və Minanın əməllərini yerinə yetirməlidir. Məkkəyə qayıtdıqda isə təvafı yerinə yetirdikdən və təvaf namazını qıldıqdan, habelə "səy"i yerinə yetirdikdən sonra və ya bu əməlləri yerinə yetirməmişdən qabaq "umrə təvafı" və təvaf namazı üçün tədarük görməlidir[1]. Onun bu əməli təməttu həcci üçün kifayət edir və onun öhdəsinə başqa bir vəzifə gəlmir.**

**Məsələ 22.** **Həccin əməlləri və hökmləri kitabın üçüncü hissəsində bir neçə fəsildə açıqlanacaqdır.**

[1] "Tədarük görməy"in qaydasının aydınlaşması üçün 286-cı məsələyə müraciət edin.

## BİRİNCİ FƏSİL: HƏCCƏTUL-İSLAM

**Məsələ 23.** **Şəriətdə “mustəti şəxs”in ömürdə bir dəfə həcc yerinə yetirməsi vacibdir. Bu həcc “həccətul-islam” adlanır.**

**Məsələ 24.** **Həccin vacibliyi “təcili”dir. Yəni istitaətin şərtləri yarandıqda, həcc həmin il yerinə yetirilməlidir. Heç bir şəri üzr olmadan həcci təxirə salmağa icazə verilmir. Əgər kimsə həcci təxirə salsa, günah etmişdir və həcc onun boynunda qalır. O, növbəti ildə (növbəti ildə yerinə yetirmədiyi təqdirdə, sonrakı illərdə) həcci yerinə yetirməlidir.**

**Məsələ 25.** **Əgər mustəti olduğu ildə insanın həcci yerinə yetirməsi müqəddimə xarakterli müəyyən hazırlıqları görməkdən asılı olarsa – məsələn, səfər etmək üçün müəyyən səfər hazırlıqlarını görmək tələb olunarsa – o, bu hazırlıqları görməlidir. Elə etməlidir ki, həmin il həcc yerinə yetirə biləcəyinə əmin olmalıdır. Deməli, əgər mustəti şəxs bu işdə səhlənkarlıq etsə və həcci yerinə yetirə bilməsə, günah etmişdir və həcc onun boynunda qalır. Hətta istitaətin şərtləri aradan getsə belə, o, həcci yerinə yetirməlidir.**

## Həccətul-islamın vacib olmasının şərtləri

**Məsələ 26.** **Həccətul-islam aşağıdakı şərtlər daxilində vacib olur:**

**1- Ağıl; 2- Həddi-büluğ; 3- İstitaət.**

## Ağıl və həddi-büluğ

**Məsələ 27.** **Həccətul-islamın vacib olmasının birinci şərti "ağıl"dır. Deməli, dəli insana həcc vacib olmur.**

**Məsələ 28.** **Həccətul-islamın vacib olmasının ikinci şərti "həddi-büluğ"dur. Deməli, həddi-büluğa çatmayan şəxsə, hətta həddi-büluğa çatmasına az qalsa belə, həcc vacib olmur. Əgər həddi-büluğa çatmayan bir şəxs həcci yerinə yetirsə, onun həcci düzgündür, amma həccətul-islam üçün kifayət etmir.**

**Məsələ 29.** **Əgər həddi-büluğa çatmayan bir oğlan ehram bağlasa, bundan sonra həddi-büluğa çatdığı bir halda "məş`ərul-həram"da (muzdələfədə) vuquf etsə, mustəti olduğu təqdirdə, onun yerinə yetirdiyi həcc "həccətul-islam" üçün kifayət edir.**

**Məsələ 30.** **Əgər həddi-büluğa çatmayan şəxs ehram bağlasa və ehram bağlayan şəxsə haram olan işlərdən birini yerinə yetirsə, bu haram iş ov olduğu təqdirdə, bu işin kəffarəsi həmin şəxsin başçısının öhdəsindədir. Amma başqa kəffarələrə gəlincə, göründüyü qədər bu kəffarələri vermək nə onun başçısına vacib olur, nə də ki, həddi-büluğa çatmayan şəxsin malından onları vermək vacib olur.**

**Məsələ 31.** **Həddi-büluğa çatmayan şəxsin qurbanlığının xərci onun başçısının öhdəsindədir.**

**Məsələ 32.** **Vacib həcdə qadın üçün ərinin icazəsi şərt deyildir. Deməli, ər razı olmasa belə, həcc qadına vacib olur.**

**Məsələ 33.** **Mustəti şəxsin həccətul-islamı yerinə yetirməsi üçün onun valideyninin icazəsi şərt deyildir.**

## İstitaət

**Məsələ 34.** **Həccətul-islamın vacib olmasının üçüncü şərti "istitaət"dir. İstitaət bir neçə məsələni əhatə edir:**

**a) Mal istitaəti;**

**b) Bədən istitaəti;**

**c) Yol istitaəti (yolların təhlükəsiz olması);**

**d) Zaman istitaəti.**

**Bunların hər biri sonrakı məsələlərdə izah olunur.**

## a) Mal istitaəti

**Məsələ 35.** **Mal istitaətinin özü bir neçə məsələdən təşkil olunur:**

**1- Yol azuqəsi və minik;**

**2- Səfər zamanı ailənin dolanışıq xərci;**

**3- Yaşayışda ehtiyac duyulan şeylər;**

**4- Həcdən qayıtdıqdan sonra normal səviyyədə yaşayış.**

### 1- Yol azuqəsi və minik

**Məsələ 36.** **"Yol azuqəsi" dedikdə, səfərdə ehtiyac olan hər bir şey, o cümlədən yemək, içmək və başqa vasitələr nəzərdə tutulur. "Minik" dedikdə isə yol qət etmək üçün lazım olan nəqliyyat vasitəsi nəzərdə tutulur.**

**Məsələ 37.** **Yol azuqəsi və miniyi olmayan, habelə bunları əldə etmək üçün malı-pulu olmayan şəxsə həcc vacib olmur, baxmayaraq ki, işləmək və ticarət etməklə bunları əldə edə bilər.**

**Məsələ 38.** **Həccin vacib olmasında insanın öz vətəninə və ya nəzərdə tutduğu başqa bir yerə qayıtması üçün yol xərcinə sahib olması da şərtdir.**

**Məsələ 39.** **Əgər bir şəxsin həccə getməyə malı-pulu yoxdursa, amma ondan borc alan şəxs borcunu geri qaytardığı təqdirdə, onun həccə gedib-qayıtmasının xərci təmin olunacaqsa və ya tamamlanacaqsa, borcu geri almağın vaxtı çatdığı və ya vaxtın ötdüyü, habelə borc alan şəxsin borcu qaytarmağa maddi imkanı çatdığı və borcu geri istəmək də borc verən şəxs üçün bir çətinlik yaratmayacağı təqdirdə, bu şəxs borcu geri istəməlidir.**

**Məsələ 40.** **Əgər qadının mehriyyəsi həccin xərcləri üçün yetərlidirsə və əri mehriyyəni ona borcludursa, mehriyyəni verməyə ərin maddi imkanı olmadığı təqdirdə, qadın mehriyyəni ərindən tələb edə bilməz və o, mustəti deyildir. Amma əgər ərin maddi imkanı vardırsa və mehriyyəni tələb etməyin də qadın üçün bir fəsadı yoxdursa, bu halda qadın mehriyyəni ərindən almalı və həccə getməlidir. Yox əgər mehriyyəni tələb etməyin qadın üçün bir fəsadı olacaqdırsa, məsələn, ər-arvad arasında dava düşəcək və bu da talaqla nəticələnəcəkdirsə, mehriyyəni tələb etmək qadına vacib olmur və o, mustəti deyildir.**

**Məsələ 41.** **Əgər bir şəxsin həccin xərclərini ödəyəcək qədər pulu yoxdursa, amma borc alıb həccə gedə bilər və sonra borcunu asanlıqla qaytara bilərsə, borc alıb özünü mustəti etmək ona vacib deyildir. Amma əgər borc alsa, həcc ona vacib olur.**

**Məsələ 42.** **Bir şəxsin borcu vardır, eyni zamanda təkcə həccin xərclərini ödəyəcək qədər pulu vardır. Əgər borcun qaytarılması üçün vaxt təyin olunubsa və bu şəxs də vaxt çatdıqda borcu qaytarmağa maddi imkanının olacağına əmindirsə, ona həccə getmək vacib olur. Yaxud da əgər borcu qaytarmağın vaxtı çatıbdırsa, amma borc verən şəxs borcun bir qədər gec qaytarılmasına razıdırsa, digər tərəfdən də bu şəxs borc geri istənildiyi zaman onu qaytarmağa qadir olacağına əmindirsə, ona həccə getmək vacib olur. Bu iki haldan qeyri halda isə həcc ona vacib olmur.**

**Məsələ 43.** Əgər bir şəxsin ailə qurmağa ehtiyacı vardırsa və ailə qurmadığı təqdirdə, o, böyük çətinliyə və ya əziyyətə düşəcəkdirsə və hazırda da ailə qura bilərsə, bu şəxs həccin xərclərindən əlavə, ailə qurmağın da xərclərinə malik olduğu halda mustəti olur.

**Məsələ 44.** Əgər bir şəxsin mustəti olduğu ildə avtomobil, təyyarə və ya başqa nəqliyyat vasitələrinin biletlərinin qiyməti adi qiymətlərdən yuxarı olsa, heç bir çətinliyə və əziyyətə düşmədən artan qiyməti ödəməyə onun maddi imkanı çatdığı təqdirdə, o, bu qiyməti ödəyib həccə getməlidir. Bahalıq və qiymətlərin artması istitaətə xələl gətirmir. Amma əgər artan qiyməti ödəməyə onun maddi imkanı çatmırsa və ya bu qiyməti ödəmək onu çətinlik və əziyyətə salacaqdırsa, ona bu qiyməti ödəmək vacib olmur və o, mustəti deyildir. Həcc səfərində ehtiyac olan başqa şeyləri almaq və ya icarəyə götürməyin də hökmü eynidir. Həmçinin əgər bir şəxs öz malını ucuz qiymətə satmaq və əldə etdiyi pulu həcc ziyarətinə sərf etmək istəsə, bu hökm ona da şamildir.

**Məsələ 45.** Həcc üçün istitaətin mövcud olmasının meyarı, camaatın nəzərində normal sayılan bir şəkildə həcci yerinə yetirməkdir. Əgər bir şəxs onun üçün belə bir istitaətin olmadığını düşünürsə, amma bir qədər araşdırdığı və cəhd göstərdiyi təqdirdə, onun hazırkı maddi durumu ilə həcc üçün mustəti olmağa bir yol tapa biləcəyini ehtimal edirsə, araşdırma aparması vacib deyildir. Amma əgər bir şəxs mustəti olub-olmadığına şəkk edirsə və mustəti olub-olmadığını öyrənmək istəyirsə, göründüyü qədər o, öz maddi durumunu araşdırmalıdır.

## 2- Səfər zamanı ailənin dolanışıq xərci

**Məsələ 46.** Həcdən geri qayıdanadək ailənin dolanışıq xərclərini təmin edəcək qədər maddi imkana malik olmaq “mal istitaəti” üçün şərtdir.

**Məsələ 47.** Yuxarıdakı məsələdə “ailə” dedikdə, ürfə görə “ailə” adlanan şəxslər nəzərdə tutulur, baxmayaraq ki, onların dolanışıq xərclərini vermək şəri baxımdan insana vacib deyildir.

## 3- Yaşayışda ehtiyac duyulan şeylər

**Məsələ 48.** Həccin vacib olmasının şərtlərindən biri də budur ki, insan yaşayışda ehtiyac duyulan və onun ürfi durumuna uyğun olan şeylərə sahib olmalıdır. Amma bu şeylərin özünün mövcud olması vacib deyildir. Əksinə, onların pulunun və ya bu ehtiyacları təmin edə biləcək müəyyən şeylərin insanın ixtiyarında olması kifayət edir.

**Məsələ 49.** İnsanların ürfi durumu müxtəlifdir. Əgər şəxsi evə sahib olmaq bir insanın yaşayış ehtiyacıdırsa və ya şəxsi evə sahib olmaq onun ürfi durumuna uyğundursa, yaxud icarə və ya vəqfi evdə yaşamağın onun üçün böyük çətinliyi və əziyyəti vardırsa, yaxud da icarə və ya vəqfi evdə yaşamaq onun gözdən düşməsinə səbəb olarsa, şəxsi evə sahib olmaq onun üçün istitaətin yaranmasında şərtdir.

**Məsələ 50.** Əgər bir şəxsin əlində olan mal-pul həccə getmək üçün kifayət edirsə, amma zəruri bir ehtiyac, məsələn, yaşayış evi almaq, ya xəstəliyi müalicə etmək və ya hansısa bir yaşayış ehtiyacını təmin etmək üçün bu mala-pula ehtiyacı varsa, bu şəxs mustəti deyildir və həcc ona vacib olmur.

**Məsələ 51.** Mustəti olmaq üçün yol azuqəsinin və miniyin özünə malik olmaq şərt deyildir. Əksinə, əgər bir şəxsin səfər xərclərini təmin edəcək qədər malı-pulu vardırsa, bu, kifayət edir və o, mustəti sayılır.

**Məsələ 52.** Bir şəxs yaşayışda ehtiyac duyulan şeylərə, məsələn, ev, ev əşyaları, nəqliyyat vasitəsi, iş alətləri və bu kimi şeylərə öz şənindən artıq miqdarda sahibdir. Əgər o, bunları satıb, yaşayış ehtiyaclarını aldıqdan sonra artıq qalan pulu həcc xərclərinə sərf edə bilərsə, eyni zamanda bu iş onu çətinliyə və əziyyətə salmazsa, habelə onun gözdən düşməsinə və kiçilməsinə səbəb olmazsa, artıq qalan bu pul həcc xərclərini tam təmin edəcək və ya xərcləri tamamlayacaq miqdarda olduğu təqdirdə, o, bu işi görməlidir və mustəti sayılır.

**Məsələ 53.** Əgər bir şəxs ev almaq üçün torpaq sahəsi və ya başqa bir malı satsa, şəxsi evə sahib olmaq onun yaşayış ehtiyaclarından olduğu və ya şəxsi evə sahib olmaq onun ürfi durumuna uyğun olduğu təqdirdə, o, torpaq sahəsinin satışından pul əldə etdiyi zaman mustəti olmur, baxmayaraq ki, bu pul həcc xərclərini tam təmin edəcək və ya xərcləri tamamlayacaq miqdardadır.

**Məsələ 54.** Əgər bir şəxsin sahib olduğu bəzi şeylərə (məsələn, kitablara) daha ehtiyacı yoxdursa və onların satışından əldə edilən pul onun istitaəti üçün tam kifayət edəcəkdirsə və ya istitaətini tamamlayacaqdırsa, həccin digər şərtlərinə malik olduğu təqdirdə, həcc ona vacib olur.

## 4- Həcdən qayıtdıqdan sonra normal səviyyədə yaşayış

**Məsələ 55.** **Mal istitaətinin şərtlərindən biri, həcdən qayıtdıqdan sonra normal səviyyədə yaşayışı davam etdirməkdir.[1] Yəni şəxs həcdən qayıtdıqdan sonra onun ticarətdən, əkinçilikdən, sənətkarlıqdan və ya hər hansı bir peşədən, yaxud da bağ və ya mağaza kimi mülklərdən gəliri olmalıdır. Belə ki, bu gəlir onun və ailəsinin ürfi durumuna uyğun olan yaşayışı üçün kifayət etməlidir. Əgər din elmləri tələbələri həcdən qayıtdıqdan sonra onların yaşayışı Dini Elmləri Hövzəsindən aldıqları müavinət ilə təmin olunarsa və ya bu müavinət onların yaşayış xərclərini tamamlayarsa, bu, mal istitaəti üçün kifayət edir.**

**Məsələ 56.** **Həcdən qayıtdıqdan sonra normal səviyyədə yaşayışı davam etdirmək qadının istitaəti üçün şərtdir. Beləliklə, əgər qadının əri vardırsa və əri həyatda ikən qadın mustəti olarsa, həcdən qayıtdıqdan sonra ərinin ona verdiyi dolanışıq xərci "normal səviyyədə yaşayışı davam etdirmək" hesab olunur. Amma əri olmayan qadının istitaəti üçün həccin xərclərinə malik olmaqdan əlavə, həcdən qayıtdıqdan sonra müəyyən bir gəlir mənbəyinə sahib olması və oradan əldə etdiyi gəlir ilə öz ürfi durumuna uyğun bir şəkildə yaşayışını idarə edə bilməsi şərtdir. Əks halda, o, həcc üçün mustəti olmur.**

**Məsələ 57.** **Əgər bir şəxs səfər azuqəsinə və xərclərinə sahib deyildirsə, amma başqa bir şəxs onun həcc səfərinin xərclərini verirsə, məsələn, "Sən həccə get, sənin xərclərin mənim boynumdadır" – deyirsə, bu halda ona həcci yerinə yetirmək vacib olur və o, bu təklifi qəbul etməlidir. Bu həcc "hədiyyə həcci" adlanır. Hədiyyə həccində həcdən qayıtdıqdan sonra normal səviyyədə yaşayışı davam etdirmək şərt deyildir. Həmçinin səfər üçün lazım olan malların özünü vermək şərt deyildir, əksinə, hədiyyə edən şəxs onların pulunu versə, kifayət edir.**

**Amma əgər bir şəxs başqa bir şəxsə həcci yerinə yetirmək üçün deyil, ümumiyyətlə, müəyyən mal-pul hədiyyə etsə və bu mal-pul həcc səfəri üçün yetərli olsa, o, bu hədiyyəni qəbul etdiyi təqdirdə, həcc ona vacib olur. Amma hədiyyəni qəbul etmək vacib deyildir və o, bu hədiyyəni qəbul etməyə və özünü mustəti etməyə bilər.**

**Məsələ 58.** **Hədiyyə həcci "həccətul-islam" üçün kifayət edir. Belə ki, əgər şəxs sonralar mustəti olsa, həcci yerinə yetirməsi vacib deyildir.**

**Məsələ 59.** **Əgər bir şəxs hansısa bir müəssisə və ya şəxs tərəfindən həccə dəvət olunsa, bu dəvətin qarşılığında hansısa bir işi öhdəsinə götürməli olduğu təqdirdə, bu həcc "hədiyyə həcci" hesab olunmur.**

## Mal istitaəti barəsində müxtəlif məsələlər

**Məsələ 60.** **Əgər bir şəxs mustəti olsa, malını həccə getmək üçün sərf etməyin zamanı çatdıqdan sonra o, özünü istitaətdən xaric edə bilməz. Hətta ehtiyat-vacibə görə, bu zaman çatmamışdan qabaq belə, o, özünü istitaətdən xaric edə bilməz.**

**Məsələ 61.** **Mal istitaətində insanın öz ölkəsində və şəhərində istitaətə çatması şərt deyildir. Əksinə, əgər o, "miqat"da belə istitaətə çatarsa, kifayət edir. Beləliklə, əgər bir şəxs "miqat"a yetişdiyi zaman istitaətə çatarsa, həcc ona vacib olur və bu həcc "həccətul-islam" üçün kifayət edir.**

**Məsələ 62.** **"Miqat"a yetişdiyi zaman həcci yerinə yetirməyə qadir olan şəxs üçün də "mal istitaəti" şərtdir. Beləliklə, əgər bir şəxs (məsələn, karvanın xidmətçisi və ya bu kimi bir şəxs) "miqat"a yetişdikdə həcci yerinə yetirməyə qadir olsa, istitaətin digər şərtlərinə, o cümlədən ailənin dolanışıq xərclərinə və yaşayışda ehtiyac duyulan şeylərə öz şəninə uyğun miqdarda sahib olduğu, habelə həcdən qayıtdıqdan sonra normal səviyyədə yaşayışı davam etdirməyə qadir olduğu təqdirdə, həcc ona vacib olur. Bu həcc "həccətul-islam" üçün kifayət edir. Əks halda, onun həcci müstəhəb həcc olacaqdır. O, sonralar mustəti olduğu təqdirdə, həccətul-islamı yerinə yetirməlidir.**

**Məsələ 63.** **Əgər bir şəxs həcc səfərində xidmət göstərməyi qəbul etsə və bunun qarşılığında ona verilən zəhmət haqqı ilə həcc üçün mustəti olsa, o, bu işi qəbul etdiyi təqdirdə, həcc ona vacib olur. Amma bu şərtlə ki, həcc əməllərini yerinə yetirmək onun öhdəsinə götürdüyü xidməti göstərməyə maneəçilik yaratmamalıdır. Əks halda, o, bu zəhmət haqqı ilə mustəti olmur. Həmçinin zəhmət haqqı qarşılığında işi qəbul etmək də ona vacib deyildir.**

**Məsələ 64.** **Mal istitaəti olmayan bir şəxs əgər başqa bir şəxsə naib olmaq üçün əcir olsa, amma "əcirlik əqdi" bağlandıqdan sonra o, əcirlik zəhmət haqqından qeyri bir mal vasitəsilə mustəti olsa, bu şəxs həmin il həcci özü üçün yerinə yetirməlidir. Əgər onun bağladığı "əcirlik əqdi" bu ilə aid olarsa, əqd pozulur. Amma əgər bu ilə aid olmazsa, o, "isticari həcc"i gələn il yerinə yetirməlidir.**

**Məsələ 65.** **Əgər mustəti şəxs bilmədən və ya bilərəkdən müstəhəb həcc niyyəti etsə, hətta onun məqsədi sonrakı ildə həcc**

**əməllərini daha yaxşı yerinə yetirmək üçün bir növ məşq etmək olsa belə, yaxud da o, mustəti olmadığını düşünüb müstəhəb həcc niyyəti etsə, amma mustəti olduğu sonradan məlum olsa, bu həccin "həccətul-islam" üçün kifayət etməsi məhəlli-işkaldır. Ehtiyata görə, o, gələn il həcci yerinə yetirməlidir. Amma əgər o, hazırkı vəzifəsinin müstəhəb həcc olduğunu düşünüb, hazırkı şəri vəzifəsini yerinə yetirmək niyyətində olsa, bu halda onun yerinə yetirdiyi həcc "həccətul-islam" üçün kifayət edir.**

## b) Bədən istitaəti

**Məsələ 66.** **"Bədən istitaəti" dedikdə, həcc əməllərini yerinə yetirmək üçün fiziki baxımdan lazımi qüvvəyə malik olmaq nəzərdə tutulur. Beləliklə, həccə getməyə qüvvəsi çatmayan və ya həccə getməyin ona böyük çətinliyi və əziyyəti olan xəstə və yaşlı insana həcc vacib olmur.**

**Məsələ 67.** **Həccin vacib olması üçün "bədən istitaəti"nin davam etməsi şərtdir. Beləliklə, əgər bir şəxs həcci yerinə yetirmək niyyətilə səfər etsə, amma ehram bağlamamışdan qabaq xəstəliyə görə həcc səfərini davam etdirə bilməsə, bu halda məlum olur ki, onun "bədən istitaəti" olmayıbdır. Ona və onun kimi şəxslərə həcci yerinə yetirmək üçün naib tutmaq vacib deyildir. Amma əgər həcc əvvəlcədən onun boynuna gəlibdirsə və o, bu il həcci yerinə yetirmək üçün səfər edirsə, lakin yol əsnasında xəstəliyə görə səfəri davam etdirə bilmirsə, sağalacağına və heç bir çətinlik və əziyyət olmadan, hətta sonrakı illərdə olsa belə, həcci yerinə yetirə biləcəyinə ümidi olmadığı təqdirdə, bu şəxs naib tutmalıdır. Amma əgər sağalacağına və sonrakı illərdə həcci yerinə yetirə biləcəyinə ümidvar olsa, həcci özünün yerinə yetirməsinin vacibliyi onun boynundan götürülmür. Qeyd edək ki, əgər bu şəxs ehram bağladıqdan sonra xəstələnərsə, bunun öz hökmləri vardır.**

## c- Yol istitaəti

**Məsələ 68.** **"Yol istitaəti" odur ki, həccə getmək üçün yol açıq və təhlükəsiz olmalıdır. Beləliklə, əgər bir şəxs üçün yol bağlıdırsa və o, "miqat"a gəlib çıxa bilmirsə və ya həcc əməllərini tamamlaya bilmirsə, yaxud yol açıq olsa da təhlükəlidirsə, məsələn, yolda onun canı, heysiyyəti və ya malını təhlükə gözləyirsə, həcc bu şəxsə vacib olmur.**

**Məsələ 69.** **Əgər bir şəxsin həccə getmək üçün pulu varsa və o, həccə getmək üçün vaxt itirmədən ad yazdırıbsa, amma püşk onun adına çıxmayıbsa və həmin il həccə gedə bilməyibsə, bu şəxs mustəti deyildir və həcc ona vacib olmayıbdır. Amma əgər bundan sonrakı illərdə həccə getmək üçün indidən ad yazdırmaq və müəyyən məbləğ pul ödəmək lazımdırsa, ehtiyat-vacibə görə, o, bu işi görməlidir.**

## d) Zaman istitaəti

**Məsələ 70.** **"Zaman istitaəti" odur ki, insan mustəti olduğu zaman həcci öz xüsusi günlərində yerinə yetirmək üçün kifayət qədər zaman fürsəti olmalıdır. Beləliklə, əgər bir şəxs elə bir vaxtda mustəti olsa ki, vaxtın darlığına görə həccə çata bilməyəcəkdir, yaxud da həccə çatmağın onun üçün böyük çətinliyi və əziyyəti vardır, həmin il həcc ona vacib olmur.**

---

[1] Qeyd edək ki, bu şərt "hədiyyə həcci"ndə mövcud deyildir və bu barədə 57-ci məsələdə məlumat veriləcəkdir.

## İKİNCİ FƏSİL: NİYABİ-HƏCC

**“Naib şəxs” ) نَايِب və “naibliy edilən şəxs”in (مَنُوبٌ عَنْه) şərtlərini açıqlamamışdan öncə, naibliyə və həccə vəsiyyət etməyə icazə veril və onların hökmlərini qeyd etməyi məqsədəuyğun hesab edirik.**

**Məsələ 71.** **Əgər boynuna həcc gələn bir şəxsin qocalıq və ya xəstəliklə əlaqədar həccə getməyə qüvvəsi çatmırsa, yaxud həccə getmək onun üçün olduqca çətin və əziyyətlidirsə, digər tərəfdən də sağalacağına və heç bir əziyyət çəkmədən, hətta sonrakı illərdə olsa belə, həcci yerinə yetirə biləcəyinə ümidi yoxdursa, bu şəxs özünə naib tutmalıdır. Amma boynuna həcc gəlməyən şəxsə naib tutmaq vacib deyildir.**

**Məsələ 72.** **“Naib şəxs” həcc əməllərini yerinə yetirdikdən sonra “naibliyi edilən şəxs”in boynundan həcc götürülür, hətta sonradan onun üzrü aradan qalxsa belə, onun həcci yerinə yetirməsi lazım deyildir. Amma əgər “naib şəxs” həcc əməllərini yerinə yetirdiyi əsnada onun üzrü aradan qalxarsa, o, həcci yenidən yerinə yetirməlidir. Bu halda naibin yerinə yetirdiyi həcc onun üçün kifayət etmir.**

**Məsələ 73.** **Əgər boynuna həcc gələn şəxs yolda ikən vəfat etsə, ehram bağladıqdan və hərəmə daxil olduqdan sonra vəfat etdiyi təqdirdə, onun əməli həccətul-islam üçün kifayət edir. Amma əgər ehram bağlamamışdan qabaq vəfat etsə, bu, kifayət etmir. Həmçinin ehram bağladıqdan sonra, amma hərəmin hüdudlarına daxil olmamışdan qabaq vəfat edən şəxsin əməli, ehtiyat-vacibə görə, həccətul-islam üçün kifayət etmir.**

**Məsələ 74.** **Əgər boynuna həcc gələn şəxs həccə getməmişdən qabaq vəfat etsə və həcc səfəri üçün kifayət edəcək qədər irsi qalsa, varisi mərhumun ümumi irsindən onun tərəfindən naib tutmalıdır. Amma əgər mərhum irsin üçdə biri ilə həcc səfərinin xərclərinin verilməsini vəsiyyət edibsə, bu halda mərhumun bu vəsiyyətinə əməl etmək onun digər müstəhəb vəsiyyətlərindən irəlidə dayanır. Əgər irsin üçdə biri həcci yerinə yetirmək üçün kifayət etməzsə, ehtiyac olan məbləğ ümumi irsdən götürülür.**

**Məsələ 75.** **Naib tutmağa icazə verilən hallarda dərhal naib tutmaq lazımdır. Bu hökm baxımından həyatda olan və ya vəfat edən şəxs üçün naib tutulması arasında fərq yoxdur.**

**Məsələ 76.** **Həyatda olan şəxsin öz vətənindən naib tutması vacib deyildir. Əgər o, “miqat”dan naib tutarsa, kifayət edir. Həmçinin həyatda ikən boynuna həcc gələn mərhum şəxs üçün “miqat”dan naib tutmaq kifayət edir. Amma əgər naib tutmaq yalnız mərhumun vətənindən və ya başqa bir şəhərdən mümkündürsə, varislər mümkün olan yerdən onun üçün naib tutmalıdırlar. Həccin xərcləri mərhumun ümumi irsindən çıxılır. Əgər mərhum “bələdi-həcc” yerinə yetirilməsini vəsiyyət edibdirsə, onun vəsiyyətinə əməl olunmalıdır. “Miqati-həcc”in ücrətindən əlavə çıxan xərclər irsin üçdə birindən götürüləcəkdir.**

**Məsələ 77.** **Əgər bir şəxs onun üçün müstəhəb həcc yerinə yetirilməsini vəsiyyət etsə, bu həccin xərcləri irsin üçdə birindən götürüləcəkdir.**

**Məsələ 78.** **Əgər varislər və ya vəsiyyətin icrasını öhdəsinə götürən şəxs (vəsi) vəfat edən şəxsin boynuna həcc gəldiyini bilsələr, amma onun bu həcci yerinə yetirib-yetirmədiyinə şəkk etsələr, onun tərəfindən həcci yerinə yetirməlidirlər. Amma əgər həccin ona vacib olduğunu və onun boynuna həcc gəldiyini bilməsələr, mərhum da heç bir vəsiyyət etməmiş olsa, onların boynuna heç bir vəzifə düşmür.**

## Naib şəxsin şərtləri

**Məsələ 79.** **Naib şəxs aşağıdakı şərtlərə malik olmalıdır:**

**1- Ehtiyat-vacibə görə, həddi-büluğa çatan şəxs olmalıdır. Deməli, həddi-büluğa çatmayan şəxsin həcc üçün naibliyi "həccətul-islam", ümumiyyətlə, vacib həcc üçün kifayət etmir.**

**2- Ağıllı şəxs olmalıdır. Deməli, dəli şəxsin – dəliliyi istər daimi olsun, istərsə də dövri olsun – dəli vəziyyətində yerinə yetirdiyi əməllər düzgün deyildir.**

**3- İmanlı şəxs olmalıdır (yəni on iki imam şiəsi olmalıdır). Ehtiyat-vacibə görə, qeyri-mömininin naibliyi kifayət etmir.**

**4- Həccin hökmlərini və əməllərini bilən bir şəxs olmalıdır. Belə ki, həccin əməllərini – hətta əməl zamanı başqalarının yönəltməsi ilə olsa belə – düzgün yerinə yetirməlidir.**

**5- Həcci yerinə yetirdiyi ildə naib şəxsin boynuna vacib həcc gəlməməlidir. Amma əgər o, həccin ona vacib olmasından xəbərsiz olsa, onun niyabi-həccinin düzgün olması uzaq ehtimal deyildir.**

**6- Naib şəxs həccin bəzi əməllərini tərk etməkdə üzrlü olmamalıdır. Bu şərtin izahı və ona aid hökmlər sonrakı məsələlərdə**[1] **açıqlanacaqdır.**

**Məsələ 80.** **Niyabi həcc ilə kifayətlənmək üçün "naib şəxs"in həcci "naibliyi edilən şəxs"in əvəzindən yerinə yetirdiyinə əminlik hasil olmalıdır. Amma "naib şəxs"in həcci yerinə yetirdiyi dəqiqləşdikdən sonra onun həcci düzgün yerinə yetirdiyinə dair əminlik əldə etmək lazım deyildir. Əksinə, onun əməlinin düzgün olduğunu qəbul etmək lazımdır.**

[1] Məsələ 90-dan başlayaraq bir neçə məsələ

## Naibliyi edilən şəxsin şərtləri

**Məsələ 81.** **Naibliyi edilən şəxs aşağıdakı şərtlərə malik olmalıdır:**

**1- Müsəlman şəxs olmalıdır. Deməli, kafirin əvəzindən niyabi-həcc yerinə yetirmək düzgün deyildir.**

**2- Vacib həcdə "naibliyi edilən şəxs"in vəfat etmiş olması şərtdir. Yaxud əgər həyatdadırsa, qocalığa və ya xəstəliyə görə həcci özü yerinə yetirə bilməyən bir şəxs olmalıdır. Yaxud da həccə getmək onun üçün olduqca çətin və əziyyətli olmalı, digər tərəfdən də heç bir əziyyət çəkmədən, hətta sonrakı illərdə olsa belə, həcci yerinə yetirə biləcəyinə ümidi olmamalıdır. Amma müstəhəb həcdə başqasının əvəzinə niyabi-həcci yerinə yetirmək birmənalı olaraq icazəlidir.**

**Məsələ 82.** **"Naibliyi edilən şəxs" barəsində ağıllı olmaq və həddi-büluğa çatmaq şərt deyildir.**

## Həcc üçün naibliyə aid məsələlər

**Məsələ 83.** **Naib şəxs ilə naibliyi edilən şəxsin eyni cinsin nümayəndəsi olması şərt deyildir. Deməli, qadın kişi üçün və kişi də qadın üçün naib ola bilər.**

**Məsələ 84.** **"Sərurə şəxs" (yəni indiyədək həcc yerinə yetirməyən və ilk dəfə həcci yerinə yetirən şəxs) həm "sərurə şəxs"ə, həm də "qeyri-sərurə şəxs"ə naib ola bilər. Burada naib şəxsin və ya naibliyi edilən şəxsin kişi, yaxud qadın olmasının fərqi yoxdur.**

**Məsələ 85.** **Niyabi-həcdə "naib şəxs"in naiblik niyyəti etməsi və "naibliyi edilən şəxs"in, hətta ümumi şəkildə olsa belə, təyin edilməsi şərtdir. Amma "naib şəxs"in "naibliyi edilən şəxs"in adını çəkməsi vacib deyildir.**

**Məsələ 86.** **Vaxtın azlığına görə şəri vəzifəsi "təməttu həcci"ndən "ifrad həcci"nə keçmək olan şəxsi əcir tutmaq düzgün deyildir. Amma vaxtın geniş olduğu dönəmdə naib şəxs əcir tutulsa, amma sonra təsadüfən vaxt onun üçün daralsa, o, "təməttu həcci"ndən "ifrad həcci"nə keçməlidir. Onun əməli "naibliyi edilən şəxs"in təməttu həcci üçün kifayət edir və ücrət almaq onun haqqıdır.**

**Məsələ 87.** **Əgər naib şəxs ehram bağladıqdan və hərəmə daxil olduqdan sonra vəfat etsə, "naibliyi edilən şəxs"in boynundan şəri vəzifənin götürülməsi məqsədilə naib tutulduğu təqdirdə – ümumiyyətlə, əcirlik müqaviləsində elə bu məqsəd nəzərdə tutulur – əcir şəxs ücrətin hamısını almaq haqqına malik olacaqdır. Bu zəhmət haqqı onun varislərinə verilməlidir.**

**Məsələ 88.** **Əgər bir şəxs müəyyən məbləğ zəhmət haqqı qarşılığında həcci yerinə yetirmək üçün əcir olsa və bu məbləğ onun xərclərindən az olsa, əcir tutan şəxsin bu xərcləri tamamlaması (yəni çatışmayan məbləği də verməsi) vacib deyildir. Digər tərəfdən, əgər əcir şəxsə verilən məbləğdən artıq qalarsa, əcir tutan şəxsin artıq qalan bu məbləği ondan geri almağa haqqı yoxdur.**

**Məsələ 89.** **"Naib şəxs"in yerinə yetirdiyi həccin "naibliyi edilən şəxs" üçün kifayət etmədiyi vurğulanan hallarda, əgər naib şəxs həmin il həcci yerinə yetirmək üçün əcir tutulubsa, o, aldığı zəhmət haqqını əcir tutan şəxsə geri qaytarmalıdır. Əks halda, sonrakı illərdə "naibliyi edilən şəxs" tərəfindən həcci yerinə yetirməlidir.**

**Məsələ 90.** **Əgər bir şəxs həccin bəzi əməllərini yerinə yetirməkdə üzrlüdürsə, niyabi-həcc üçün əcir ola bilməz. Üzrlü şəxs o şəxsdir ki, həccin "ixtiyari əməlləri"ni yerinə yetirə bilmir, məsələn, "təlbiyə"ni ("Ləbbeyk"i) düzgün şəkildə deyə bilmir və təvaf namazını düzgün şəkildə qıla bilmir, təvafda və səydə öz ayağı ilə yol gedə bilmir, sütuna öz əli ilə daş ata bilmir, təyin edilən vaxtda Ərəfat və Məş`ərdə vuquf edə bilmir, Minada gecələyə bilmir. Yəni onun durumu həccin bəzi əməllərinin yerinə yetirilməməsi ilə nəticələnir. Amma əgər bir şəxsin durumu həccin bəzi əməllərinin yerinə yetirilməməsi ilə nəticələnməzsə və o, yalnız ehramın bəzi haram işlərini görməkdə üzrlü olarsa, niyabi-həcc üçün əcir olması düzgündür.**

**Məsələ 91.** **Əgər naib şəxs niyabi-həcc əsnasında üzrlü vəziyyətə düşərsə, onun durumu həccin bəzi əməllərinin yerinə yetirilməməsi ilə nəticələndiyi təqdirdə, əcirlik müqaviləsinin pozulması uzaq ehtimal deyildir. Ehtiyata görə, "naibliyi edilən şəxs" üçün yenidən həcc yerinə yetirilməli və zəhmət haqqı barəsində "naib şəxs" ilə "naibliyi edilən şəxs" arasında razılaşma əldə edilməlidir.**

**Məsələ 92.** **Məş`ərul-həramda "ixtiyari-vuquf"u yerinə yetirməkdə üzrlü olan şəxsin naibliyi düzgün deyildir. Əgər belə bir şəxs naib olsa, ücrət almağa haqqı yoxdur. Məsələn, zəif insanlara yoldaşlıq etməli olan və ya dəstə üçün bəzi işləri görməkdən ötrü şəri sübh daxil olmamışdan qabaq Məş`ərdən Minaya getməli olan dəstə xidmətçisini nümunə göstərmək olar. Əgər belə bir şəxs niyabi-həcc üçün əcir olsa, Məş`ərul-həramda "ixtiyari-vuquf"u və həcci yerinə yetirməlidir.**

**Məsələ 93.** **Üzrlü olan naibin həccinin kifayət etməməsi məsələsində naibin əcir olması, yaxud da zəhmət haqqı almadan və təmənnasız naib olması arasında fərq yoxdur. Həmçinin naib şəxsin və ya naib tutan şəxsin üzrdən məlumatsız olması arasında fərq yoxdur. Eləcə də naib şəxs və ya naib tutan şəxsin mövcud üzr ilə naibliyin düzgün olmadığını bilməmələri arasında fərq yoxdur. Məsələn, naib şəxs bilmir ki, Məş`ərul-həramda "iztirari-vuquf" ilə kifayətlənə bilməz.**

**Məsələ 94.** **İstər təqlid əsasında olsun, istərsə də ictihad əsasında olsun, naib şəxs öz vəzifəsinə əməl etməlidir.**

**Məsələ 95.** **Əgər naib şəxs ehram bağladıqdan və hərəmə daxil olduqdan sonra vəfat etsə, bu miqdar əməl "naibliyi edilən şəxs" üçün həccin yerinə yetirilməsi baxımından kifayət edir. Amma əgər ehram bağladıqdan sonra, lakin hərəmə daxil olmamışdan**

**qabaq vəfat etsə, ehtiyat-vacibə görə, onun əməli kifayət etmir. Bu hökm baxımından onun naibliyinin pulsuz olması, yaxud da zəhmət haqqı qarşılığında olmasının fərqi yoxdur. Həmçinin həccətul-islam, yaxud da başqa bir vacib həcc üçün naiblik etməsinin fərqi yoxdur.**

**Məsələ 96.** **Başqasının naibi olaraq həccə gedən şəxs əgər özü həccətul-islam yerinə yetirməyibsə, ehtiyat-müstəhəbə görə, həcc əməllərindən sonra Məkkədə olduğu müddətdə mümkün olduğu təqdirdə, özü üçün "mufrədə umrə" yerinə yetirsin.**

**Məsələ 97.** **Naib şəxs naibliyi yerinə yetirdikdən sonra özü və ya başqası üçün təvaf edə, yaxud mufrədə umrə yerinə yetirə bilər.**

**Məsələ 98.** **"İman" (yəni şiə olmaq) ümumi naiblikdə ehtiyat-vacibə əsasən şərt olduğu kimi, naibliyə icazə verilən digər əməllərdə, məsələn, təvaf etmək, daş atmaq və qurban kəsməkdə də, ehtiyat-vacibə əsasən şərtdir.**

**Məsələ 99.** **"Naib şəxs" həcc əməllərini "naibliyi edilən şəxs" tərəfindən yerinə yetirdiyini niyyət etməlidir. Həmçinin "naibliyi edilən şəxs" tərəfindən "Nisa təvafı"nı yerinə yetirməlidir.**

# BİRİNCİ FƏSİL: EHRAMIN MİQATLARI

**Məsələ 100.** **Ehramın miqatları – ehram bağlamaq üçün təyin edilən məkanlardır. Bu məkanlar aşağıdakılardan ibarətdir:**

## 1- Şəcərə məscidi

**Məsələ 101.** **Şəcərə məscidi – Mədinə şəhəri yaxınlığındakı "zul-huleyfə" (ذُوالحُلَيْفَة) adlı məntəqədə yerləşir. Bu məscid Mədinə yolu ilə Məkkəyə gedən şəxslərin miqatıdır.**

**Məsələ 102.** **Şəcərə məscidində ehram bağlamayıb, bu işi Cuhfəyə saxlamağa icazə verilmir. Buna yalnız zərurət halında, o cümlədən xəstəlik, halsızlıq və bu kimi başqa üzrlərlə əlaqədar icazə verilir.**

**Məsələ 103.** **Şəcərə məscidinin xaricində ehram bağlamaq kifayət etmir. Amma məscidin hər bir hissəsində, hətta məscidin genişləndirilmiş və yeni hissələrində ehram bağlamaq kifayət edir.**

**Məsələ 104.** **Üzrü olan qadın məscidin daxilindən keçə-keçə, məsciddə dayanmamaq şərtilə ehram bağlaya bilər. Əgər o, hətta izdiham və bu kimi səbəblərə görə məsciddə dayanmaq məcburiyyətində qalacaqdırsa, digər tərəfdən də üzrü aradan qalxanadək ehramı təxirə sala bilmirsə, Cuhfədə və ya Cuhfənin paralelində[1] ehram bağlamalıdır. Həmçinin o, nəzir etmək vasitəsilə "miqat"dan qabaq istədiyi məkanda ehram bağlaya bilər.**

**Məsələ 105.** **Miqatdan qabaq hansısa bir məkanda ehram bağlamaq üçün qadının nəzir etməsinə gəlincə, əgər onun əri qaibdirsə (yəni ər ilə əlaqə saxlamaq heç bir vəchlə mümkün deyildirsə), bu halda ərin icazəsi şərt deyildir. Amma əgər ər ilə əlaqə saxlamaq mümkündürsə, ehtiyat-vacibə görə, qadın nəzir etmək üçün ərindən icazə almalıdır. Əgər qadın ərinin icazəsi olmadan nəzir etsə, nəzir baş tutmamışdır.**

## 2- Vadiye-əqiq

**Məsələ 106.** **Vadiye-əqiq – İraq və Nəcd əhalisinin, həmçinin umrəni yerinə yetirmək üçün oradan keçib gələn şəxslərin miqatıdır. Bu miqat 3 bölgəyə ayrılır:**

**Birinci hissə "Məsləx", orta hissə "Ğəmərə" və axırıncı hissə "Zati-irq" adlanır. Bu bölgələrin hər birində ehram bağlamaq düzgündür.**

## 3- Cuhfə

**Məsələ 107.** **Cuhfə – Suriya, Misir və Məğrib əhalisinin, həmçinin umrəni yerinə yetirmək üçün oradan keçib gələn şəxslərin miqatıdır. Cuhfədə məscidin daxilində və ya Cuhfənin başqa yerlərində miqat bağlamaq düzgündür.**

## 4- Yələmləm

**Məsələ 108.** **Yələmləm – Məkkə şəhərinin cənubunda yerləşən bir dağın adıdır. Bura Yəmən əhalisinin, həmçinin umrəni yerinə yetirmək üçün oradan keçib gələn şəxslərin miqatıdır. Buranın hər bir yerində ehram bağlamaq düzgündür.**

## 5- Qərnul-mənazil

**Məsələ 109.** **Qərnul-mənazil – Taif əhalisinin, həmçinin umrəni yerinə yetirmək üçün oradan keçib gələn şəxslərin miqatıdır. Qərnul-mənazildə istər məscidin daxilində, istərsə də məsciddən kənarda istənilən bir yerdə ehram bağlamaq kifayət edir.**

## Miqatın paraleli

**Məsələ 110.** **Əgər bir şəxs elə bir yol ilə hərəkət etsə ki, onun yolu sadalanan beş miqatın heç birindən keçməyəcəkdir, bu şəxs miqatlardan birinin paralelinə çatdıqda, ehram bağlamalıdır. Miqatın paraleli o nöqtədir ki, Məkkəyə gedən yolda insan bu nöqtəyə çatdığı zaman "miqat" onun sağ və ya sol tərəfində qalır. Belə ki, o, bu nöqtədən irəliyə doğru hərəkət etdiyi zaman miqat onun arxa tərəfində qalacaqdır.**

**Məsələ 111. Bu miqatlar təməttu umrəsinin ehramı üçün olan məkanlardır. Bundan başqa da miqatlar vardır və aşağıdakılardan ibarətdir:**

**1- Məkkə şəhəri: Bu, təməttu həccinin miqatıdır.**

**2- İnsanın öz evi: Bu, evi miqat ilə Məkkə arasında yerləşən şəxsin miqatıdır. Bu şəxsə ehram bağlamaq üçün sadalanan beş miqata getmək vacib deyildir.**

**3- Ədnəl-hill: Bu, Məkkə şəhəri daxilində olan və mufrədə umrə üçün ehram bağlamaq istəyən şəxsin miqatıdır. Daha yaxşı olar ki, Hudeybiyyədə, ya Ci`ranədə, ya da Tən`imdə ehram bağlasın.**

---

[1] "Miqatın paraleli" ifadəsi bir qədər irəlidə izah olunur. Müt

## Miqata aid məsələlər

**Məsələ 112.** **Miqat və ya miqatın paralelinin sübutu üçün elm mövcud olmadıqda, "şəri-bəyyinə"yə, yəni iki ədalətli şahidin şahidliyinə, yaxud da əminlik yaradan şöhrətə əsaslanmaq lazımdır. Yəqinliyin hasil olması üçün araşdırma aparmaq lazım deyildir. Əgər elm, bəyyinə və şöhrət mövcud olmazsa, insan bu məkanlar barəsində məlumatı olan şəxslərdən soruşmaq nəticəsində hasil olan zənn ilə kifayətlənə bilər.**

**Məsələ 113.** **Miqata çatmamışdan qabaq ehram bağlamaq düzgün deyildir. Amma əgər bir şəxs miqatdan qabaq yerləşən müəyyən bir yerdə, məsələn, Mədinədə və ya öz şəhərində ehram bağlayacağını nəzir etsə, bu halda o, həmin yerdə ehram bağlamalıdır və onun ehramı düzgündür.**

**Məsələ 114.** **Əgər bir şəxs bilərəkdən və ya diqqətsizlik ucbatından və ya məsələni bilmədiyinə görə ehram bağlamadan miqatdan ötüb keçsə, ehram bağlamaq üçün miqata geri qayıtmalıdır.**

**Məsələ 115.** **Əgər bir şəxs diqqətsizlik ucbatından və ya unutqanlıq üzündən və ya məsələni bilmədiyinə görə ehram bağlamadan miqatdan ötüb keçsə və vaxt dar olduğuna, yaxud da başqa bir üzrə görə miqata geri qayıda bilməsə, hərəmə daxil olmadığı təqdirdə, o, ehtiyat-vacibə görə, mümkün olduğu qədər miqata tərəf geri qayıtmalı və orada ehram bağlamalıdır. Amma əgər hərəmə daxil olubdursa və ehram bağlamaq üçün hərəmdən xaric ola bilərsə, ehram bağlamaq üçün hərəmdən xaric olmalıdır. Əgər vaxtın darlığına və bu kimi bir üzrə görə hərəmdən xaric ola bilmirsə, hərəmin daxilində üzrünün aradan qalxdığı yerdə ehram bağlamalıdır.**

**Məsələ 116.** **Miqatda ehram bağlamağı ixtiyari şəkildə yubatmaq – istər qarşıda başqa bir miqat mövcud olsun, istərsə də mövcud olmasın – olmaz.**

**Məsələ 117.** **Əgər bir şəxsə hansısa bir miqatda ehram bağlamaq qadağan edilsə, o, digər miqatda ehram bağlaya bilər.**

**Məsələ 118.** **Əgər bir şəxs miqatda ehram bağlamağı bilərəkdən tərk etsə və vaxtın darlığına və ya başqa bir üzrə görə miqata geri qayıda bilməsə, qarşıda da başqa bir miqat olmasa, nəticədə umrəni yerinə yetirmək üçün vaxt daralsa, bu şəxsin umrəsi əldən çıxır və həcci düzgün deyildir. Həcc onun boynuna gəldiyi və ya o, mustəti olduğu təqdirdə, növbəti il həcci yerinə yetirməlidir.**

**Məsələ 119.** **Ciddə şəhəri miqat hesab olunmur, eləcə də heç bir miqatın paraleli deyildir. Odur ki, təməttu umrəsi üçün Ciddədə ixtiyari şəkildə ehram bağlamaq düzgün deyildir. Əksinə, ehram bağlamaq üçün miqatların birinə getmək lazımdır. Əgər bir şəxs miqatların heç birinə gedə bilmirsə, ehtiyat-vacibə görə, nəzir etmək vasitəsilə Ciddədə ehram bağlamalıdır.**

**Məsələ 120.** **Əgər bir şəxs miqatda ehram bağladıqdan və miqatı ötüb keçdikdən sonra ehramının düzgün olmadığını başa düşsə, miqata geri qayıda bildiyi təqdirdə, o, miqata geri qayıtmalı və orada ehram bağlamalıdır. Amma əgər miqata geri qayıtmaq yalnız Məkkəyə gəlməklə mümkün olarsa, Məkkəyə daxil olmaq üçün Ədnəl-hilldə "mufrədə umrəsi" niyyətilə ehram bağlamalı, mufrədə umrənin əməllərini yerinə yetirdikdən sonra miqatların birinə geri qayıtmalı və təməttu umrəsi üçün ehram bağlamalıdır.**

**Məsələ 121.** **Təməttu həccini yerinə yetirmək üçün Məkkəyə geri qayıda biləcəyinə əmin olan şəxs təməttu umrəsini yerinə yetirdikdən sonra və həcc əməllərindən qabaq Məkkədən xaric ola bilər. Amma ehtiyac və zəruri iş istisna olmaqla, Məkkədən xaric olmaması ehtiyat-müstəhəbə müvafiqdir. Bu halda o, ehtiyata görə, əvvəlcə Məkkədə həcc üçün ehram bağlasın, daha sonra Məkkədən xaric olsun. Əgər ehramda olmağın onun üçün çətinliyi olarsa, işlərini görməkdən ötrü ehram bağlamadan Məkkədən xaric ola bilər. Bu ehtiyata əməl etmək niyyətində olan və bir və ya bir neçə dəfə Məkkəyə daxil olub-xaric olmaq məcburiyyətində olan şəxslər, məsələn, həcc dəstəsinin xidmətçiləri, Məkkəyə daxil olmaq üçün əvvəlcə mufrədə umrəni yerinə yetirə, təməttu umrəsini isə təxirə sala bilərlər. Əlbəttə, o vaxtadək təxirə sala bilərlər ki, təməttu umrəsini həcc əməllərindən qabaq yerinə yetirə bilsinlər. Bu halda təməttu umrəsi üçün miqatda ehram bağlamalıdırlar. Təməttu umrəsini yerinə yetirdikdən sonra Məkkədə həcc üçün ehram bağlamalıdırlar.**

**Məsələ 122.** **"Təməttu umrəsi ilə həcci arasında Məkkədən xaric olmaq" dedikdə, hazırkı Məkkə şəhərindən xaric olmaq nəzərdə tutulur. Deməli, hal-hazırda Məkkə şəhərinin ərazisi sayılan məkanlara getmək – baxmayaraq ki, keçmişdə bu məkanlar Məkkənin ərazisi sayılmırdı – Məkkədən xaric olmaq hesab edilmir.**

**Məsələ 123.** **Əgər bir şəxs təməttu umrəsini yerinə yetirdikdən sonra ehram bağlamadan Məkkədən xaric olsa, umrəni yerinə**

**yetirdiyi ayda Məkkəyə qayıtdığı təqdirdə, Məkkə şəhərinə daxil olmaq üçün ehramı yeniləməsinə ehtiyac yoxdur. Amma əgər umrəni yerinə yetirdiyi aydan sonrakı ayda Məkkəyə qayıtsa, məsələn, umrəni zil-qədə ayında yerinə yetirsə və Məkkədən xaric olsa, sonra zil-hiccə ayında Məkkəyə qayıtsa, yaxud da umrəni zil-qədə ayında yerinə yetirsə və zil-hiccə ayında Məkkədən xaric olub, yenidən Məkkəyə qayıtsa, Məkkəyə daxil olmaq üçün umrə yerinə yetirməkdən ötrü yenidən ehram bağlamalıdır. Onun həccə birləşən təməttu umrəsi həmin ikinci təməttu umrəsi olacaqdır. Əgər o, yenidən ehram bağlamasa və ikinci umrəni yerinə yetirməsə, onun təməttu həcci düzgün deyildir.**

**Məsələ 124.** **Ehtiyat-vacibə görə, təməttu umrəsi yerinə yetirildikdən sonra və təməttu həcci yerinə yetirilməmişdən qabaq "mufrədə umrə" yerinə yetirilməməlidir. Amma əgər kimsə bunu edərsə, onun təməttu umrəsi və həccinə xələl gəlmir.**

## İKİNCİ FƏSİL: EHRAM

**Məsələ 125. Ehrama aid məsələlər dörd hissəyə ayrılır:**

**1- Ehram halında və ya ehram üçün vacib olan əməllər;**

**2- Ehramın müstəhəb əməlləri;**

**3- Ehramın məkruh əməlləri;**

**4- Ehramın haram əməlləri.**

## 1. Niyyət

**Məsələ 126.** **Niyyətin qaydası və şərtləri aşağıdakı şəkildədir:**

**a) Həcc və ya umrənin əməllərini yerinə yetirmək niyyətində olmaq.**

**Beləliklə, təməttu umrəsi üçün ehram bağlamaq istəyən şəxs ehram bağladığı zaman onu yerinə yetirmək niyyətində olmalıdır.**

**b) Mütəal Allaha xalisanə itaət etmək niyyətində olmaq.**

**Çünki umrə və həcc, onların bütün əməlləri və ayinləri ibadətdir və Mütəal Allaha yaxınlaşmaq niyyətilə yerinə yetirilməlidir.**

**c) Ehram bağlamaq istəyən şəxs ehram bağlayarkən öz niyyətini müəyyən etməlidir, yəni həcc, yoxsa umrə yerinə yetirmək istədiyini müəyyən etməlidir. Həmçinin təməttu həcci, yoxsa ifrad və ya qiran həcci olduğunu, yaxud həcci özü üçün, yoxsa başqasının naibi olaraq yerinə yetirdiyini, yaxud da həccətul-islam, yoxsa nəzir və ya müstəhəb həcc olduğunu müəyyən etməlidir.**

**Məsələ 127.** **Niyyətdə umrə və ya həccin əməllərini və ayinlərini təfsilatilə zehndən keçirmək lazım deyildir. Əksinə, ümumi şəkildə zehndən keçirmək kifayət edir. Belə ki, ümumi şəkildə həcc və ya umrənin vacib əməllərini yerinə yetirmək niyyətində olmaq, sonra onları tədricən yerinə yetirmək kifayət edir.**

**Məsələ 128.** **Ehram bağlayan şəxsin "muhrim şəxs"ə (ehramda olan insana) haram edilən işləri tərk etmək niyyətində olması vacib deyildir. Əksinə, bu haramlardan bəzilərini yerinə yetirmək niyyətində olmaq ehramın düzgünlüyünə xələl gətirmir. Amma əgər o, umrəni və ya həcci pozan əməlləri, məsələn, bəzi hallarda qadınla cinsi əlaqədə olmaq kimi bir haramı (bu məsələ irəlidə izah olunacaqdır) yerinə yetirmək niyyətində olsa, bu halda niyyət düzgün deyildir. Çünki bu əməlləri yerinə yetirmək həcc əməllərini yerinə yetirmək niyyətilə bir yerə cəm olmur, əksinə, ehram niyyəti ilə ziddiyyət təşkil edir.**

**Məsələ 129.** **Əgər bir şəxs məsələni bilmədiyinə görə və ya diqqətsizlik üzündən umrə niyyəti əvəzinə həcc niyyəti etsə, onun ehramı düzgündür. Məsələn, əgər təməttu umrəsinin ehramının niyyətində: "Təməttu həcci üçün ehram bağlayıram, qurbətən iləllah" – desə, amma başqalarının yerinə yetirdikləri əməlləri yerinə yetirmək niyyətində olsa və bu əməllərin həcc əməlləri olduğunu düşünsə, onun ehramı düzgündür.**

**Məsələ 130.** **Niyyəti dilə gətirmək və ya zehndən keçirmək şərt deyildir. Əksinə, əməli yerinə yetirmək niyyətində olmaq kifayət edir.**

**Məsələ 131.** **Niyyət ehram bağlamaqla birgə olmalıdır. Deməli, əvvəlki niyyət kifayət etmir. Amma əgər əvvəlki niyyət ehram bağlanılan anadək davam edərsə, kifayət edir.**

## 2. “Ləbbeyk” demək

**Məsələ 132.** **Ehramda “təlbiyə”, eynilə namazda “təkbirətul-ehram” kimidir. İnsan təlbiyəni dediyi zaman ehrama daxil olur və təməttu umrəsinin əməllərini yerinə yetirməyə başlayır. Əslində, təlbiyə insanları həccə dəvət edən mehriban Rəbbin dəvətini qəbul etmək deməkdir. Odur ki, təlbiyənin zikrini tam xüzu və xüşu ilə demək tövsiyə olunur.**

**Məsələ 133.** **Təlbiyə, əsəhhə əsasən, aşağıdakı cümlələrdən ibarətdir:**

لَبّيْکَ اللّهُمّ لَبّيْکَ، لَبّيْکَ لا شريک لَکَ لَبّيْکَ.

**[Ləbbəykə Əllãhummə ləbbəykə, ləbbəykə lã şərĩkə ləkə ləbbəykə.]**

**Əgər bir şəxs bu cümlələri desə, onun ehramı düzgündür. Amma bu dörd ləbbeykdən sonra aşağıdakı cümlələri demək ehtiyat-müstəhəbə müvafiqdir:**

إنّ الْحَمْدَ وَ النِّعْمَةَ لَکَ وَ الْمُلْکَ، لا شريک لَکَ لَبّيْکَ.

**[İnnəl-həmdə vən-ni`mətə ləkə vəl-mulkə, lã şərĩkə ləkə ləbbəykə.]**

**Əgər bir şəxs daha çox ehtiyata riayət etmək istəsə, qeyd edilən cümlələrdən sonra bunu da desin:**

لَبّيْکَ اللّهُمّ لَبّيْکَ، إنّ الْحَمْدَ وَ النِّعْمَةَ لَکَ وَ الْمُلْکَ، لا شريک لَکَ لَبّيْکَ.

**[Ləbbəykə Əllãhummə ləbbəykə. İnnəl-həmdə vən-ni`mətə ləkə vəl-mulkə, lã şərĩkə ləkə ləbbəykə.]**

**Mötəbər hədislərdə buyurulan aşağıdakı cümlələri isə demək müstəhəbdir:**

لَبّيْکَ ذَا الْمَعَارِجِ لَبّيْکَ، لَبّيْکَ دَاعِيًا إلَىٰ دَارِ السّلامِ لَبّيْکَ، لَبّيْکَ غَفّارَ الذُّنُوبِ لَبّيْکَ، لَبّيْکَ أهْلَ التّلْبِيَةِ لَبّيْکَ، لَبّيْکَ ذَا الْجَلالِ وَ الْإكْرَامِ لَبّيْکَ، لَبّيْکَ تُبْدِئُ وَ الْمَعَادُ إلَيْکَ لَبّيْکَ، لَبّيْکَ تَسْتَغْنِى وَ يُفْتَقَرُ إلَيْکَ لَبّيْکَ، لَبّيْکَ مَرْهُوبًا وَ مَرْغُوبًا إلَيْکَ لَبّيْکَ، لَبّيْکَ إلَهَ الْحَقّ لَبّيْکَ، لَبّيْکَ ذَا النّعْمَاءِ وَ الْفَضْلِ الْحَسَنِ الْجَمِيلِ لَبّيْکَ، لَبّيْکَ كَشّافَ الْكُرَبِ الْعِظَامِ لَبّيْکَ، لَبّيْکَ عَبْدُکَ وَ ابْنُ عَبْدَيْکَ لَبّيْکَ، لَبّيْکَ يَا كَرِيمُ لَبّيْکَ.

**[Ləbbəykə zəl-məãrici ləbbəykə. Ləbbəykə dãiyən ilã dãris-səlãmi ləbbəykə. Ləbbəykə ğəffãrəz-zunũbi ləbbəykə. Ləbbəykə əhlət-təlbiyəti ləbbəykə. Ləbbəykə zəl-cəlãli vəl-ikrãmi ləbbəykə. Ləbbəykə tubdiu vəl-məãdu iləykə ləbbəykə. Ləbbəykə təstəğni və yuftəqəru iləykə ləbbəykə. Ləbbəykə mərhubən və mərğubən iləykə ləbbəykə. Ləbbəykə ilãhəl-həqqi ləbbəykə. Ləbbəykə zən-ni`mãi vəl-fəzlil-həsənil-cəmĩli ləbbəykə. Ləbbəykə kəşşãfəl-kurəbil-izãmi ləbbəykə. Ləbbəykə əbdukə vəbnu-əbdəykə ləbbəykə. Ləbbəykə yã Kərĩmu ləbbəykə.]**

**Məsələ 134.** **Təlbiyəni bir dəfə demək vacibdir, başqa sözlə, bir dəfə demək vacib miqdardır. Amma təlbiyəni bacardığın qədər təkrar etmək müstəhəbdir.**

**Məsələ 135.** **Təlbiyənin vacib miqdarını düzgün və səhvsiz tələffüz etmək vacibdir. Əgər bir şəxs təlbiyəni düzgün şəkildə öyrənə bilməsinə rəğmən, yaxud da təlbiyəni demək istədiyi zaman başqa bir şəxsin ona təlqin edə bilməsinə rəğmən təlbiyəni səhv desə, bu təlbiyə kifayət etmir. Amma əgər bir şəxs təlbiyəni öyrənə bilmirsə, hətta vaxtın darlığına görə onu öyrənə bilmirsə, yaxud da başqa bir şəxsin təlqin etməsilə belə təlbiyəni düzgün tələffüz edə bilmirsə, o, təlbiyəni bacardığı şəkildə desin. Bu halda ehtiyat odur ki, təlbiyəni özü deməklə yanaşı, bu iş üçün naib də tutsun.**

**Məsələ 136.** **Əgər bir şəxs təlbiyəni bilərəkdən deməsə, miqatda ehram bağlamağı bilərəkdən tərk edən şəxs hökmündədir.**

**Məsələ 137.** **Əgər bir şəxs təlbiyəni bilərəkdən düzgün şəkildə deməsə və heç bir üzrü də olmasa, təlbiyəni bilərəkdən tərk edən şəxs hökmündədir.**

**Məsələ 138.** **Təməttu umrəsi üçün ehram bağlayan şəxs Məkkə şəhərinin evlərini, hətta şəhərin ətrafında yeni tikilən və hal-hazırda Məkkə şəhərinin ərazisindən sayılan evləri müşahidə etdikdə, təlbiyə deməyi dayandırmalıdır. Həcc üçün ehram bağlayan şəxs isə Ərəfə günü zöhr vaxtından etibarən təlbiyə deməyi dayandırmalıdır.**

**Məsələ 139.** **Təməttu həcci, təməttu umrəsi, ifrad həcci və mufrədə umrədə ehram bağlamaq yalnız “ləbbeyk” deməklə gerçəkləşir. Amma qiran həccində ehram bağlamaq həm “ləbbeyk” deməklə, həm də “iş`ar” və “təqlid” ilə gerçəkləşir. “İş`ar” dəvəyə aiddir, amma “təqlid” bütün növ qurbanlıqlara aiddir.**

**Məsələ 140.** **“İş`ar” dəvənin hörgüclərini çərtib qana bulaşdırmaqdan ibarətdir, belə ki, həmin dəvənin qurbanlıq olduğu bilinsin. “Təqlid” isə odur ki, həcc yerinə yetirən şəxs tərliyə bənzər ayaqqabını və ya bir ipi heyvanın boynundan asır və bununla həmin heyvanın qurbanlıq olduğunu bildirir.**

## 3. Ehramın iki hissədən ibarət paltarını geyinmək

**Məsələ 141.** **Ehramın iki hissədən ibarət paltarının biri "fitə"dir və beldən bağlanmalıdır. Digəri isə "əba"dır və çiyinlərdən atılmalıdır. Ehram bağlayan şəxsə haram olan bütün paltarlar çıxarıldıqdan sonra bu paltarı geyinmək lazımdır.**

**Məsələ 142.** **Ehtiyat-vacibə görə, sözügedən bu paltarı ehram niyyəti etməmişdən və təlbiyəni deməmişdən qabaq geyinmək lazımdır.**

**Məsələ 143.** **Fitənin göbəkdən dizlərədək olan hissəni örtməsi vacib deyildir. Əksinə, onun fitə adlanması və normal şəkildə olması kifayət edir.**

**Məsələ 144.** **Fitəni boyundan düyünləmək olmaz. Amma fitəni sancaq və ya bu kimi bir vasitə ilə bağlamağın, yaxud onun bir tərəfi ilə digər tərəfini düyünləyərək bağlamağın maneəsi yoxdur, bu şərtlə ki, "fitə" adı qorunub saxlanmalıdır. Həmçinin əbanın bir tərəfi ilə digər tərəfini düyünləyərək bağlamağın, yaxud sancaq və bu kimi bir vasitə ilə bağlamağın, yaxud xırda daş vasitəsilə düyünləyib bağlamağın, yaxud da adi bir şəkildə iplə bağlamağın maneəsi yoxdur, bu şərtlə ki, "əba" adı qorunub saxlanmalıdır.**

**Məsələ 145.** **Ehtiyat-vacibə görə, ehram paltarını geyinərkən "Allaha yaxınlaşmaq" niyyəti etmək lazımdır.**

**Məsələ 146.** **Ehram paltarı "namaz paltarı"nın şərtlərinə malik olmalıdır. Deməli, ipək parçadan olan, yaxud əti haram olan heyvanın və ya şəri kəsim olmayan heyvanın hissələrindən olan, yaxud da napaklığı namazda güzəşt edilməyən paltar ilə ehram bağlamaq kifayət etmir.**

**Məsələ 147.** **Fitə nazik və bədəni göstərən parçadan olmamalıdır. Amma əbanın nazik və bədəni göstərən parçadan olmasının iradı yoxdur, bu şərtlə ki, əba adlanmalıdır.**

**Məsələ 148.** **Ehramın iki hissədən ibarət paltarını geyinmək kişilərə vacibdir. Qadınlar isə əyinlərində olan istənilən paltar ilə – istər həmin paltar tikişli olsun, istərsə də tikişli olmasın – ehram bağlaya bilərlər. Amma namaz paltarının şərtlərinə riayət olunmalıdır.**

**Məsələ 149.** **Qadının ehram paltarı xalis ipəkdən olmamalıdır.**

**Məsələ 150.** **Ehram paltarının pambıq, yun və bu kimi materiallardan toxunan parça olması vacib deyildir. Əgər ehram paltarı dəridən, neylondan və polimerdən olsa və "paltar" adlansa, habelə onu geyinmək adi hesab olunsa, kifayət edir. Həmçinin əgər nimdaş olsa da, "paltar" adlansa və onu geyinmək adi hesab olunsa, onu geyinməyin maneəsi yoxdur.**

**Məsələ 151.** **Əgər bir şəxs ehram bağlayarkən biləndən əynində olan tikişli paltarı çıxarmasa, onun ehramının düzgünlüyü iradsız deyildir. Ehtiyat-vacibə görə, tikişli paltarı çıxardıqdan sonra niyyəti və təlbiyəni yenidən yerinə yetirməlidir.**

**Məsələ 152.** **Əgər ehramda olan şəxs soyuq hava şəraiti ilə əlaqədar olaraq və ya bu kimi səbəblərə görə tikişli paltar geyinmək məcburiyyətində qalsa, o, köynək kimi adi geyimlərdən istifadə edə bilər. Amma həmin geyimi əyninə geyinməməlidir, əksinə, onun yuxarı tərəfini aşağıya çevirərək və ya astarını üzünə çevirərək üstünə atmalıdır.**

**Məsələ 153.** **Ehramda olan şəxs hamamlanmaq, qüsl etmək və ya ehram paltarını başqa bir paltarla dəyişmək məqsədilə ehram paltarını əynindən çıxara bilər.**

**Məsələ 154.** **Ehramda olan şəxs soyuqdan qorunmaq və ya bu kimi səbəblərə görə ikidən çox paltar geyinə bilər, yəni çiyinlərinə iki və ya daha çox paltar ata bilər, yaxud belinə bağlaya bilər.**

**Məsələ 155.** **Əgər ehram paltarı napak olsa, ehtiyat-vacibə görə, onu paklamaq və ya dəyişmək lazımdır.**

**Məsələ 156.** **Dəstəmazlı və ya qüsllü olmaq ehramın düzgün olmasının şərti deyildir. Odur ki, insan cənabətli və ya heyzli halda ehram bağlaya bilər. Əlbəttə, ehram bağlamamışdan qabaq qüsl etmək təkid olunan müstəhəb əməldir. Bu müstəhəb qüsl "ehram qüslü" adlanır. Ehtiyata görə, bu qüsl tərk edilməsin.**

## 2- Ehramın müstəhəb əməlləri

**Məsələ 157.** **Ehram bağlamamışdan qabaq bədənin pak olması, bədənin artıq tüklərinin təmizlənməsi və dırnaqların tutulması müstəhəbdir. Dişləri fırçalamaq da müstəhəbdir.**

**Həmçinin ehram bağlamamışdan qabaq "miqat"da və ya "miqat"a çatmamışdan qabaq (məsələn, Mədinədə) qüsl etmək müstəhəbdir. Qeyd olunduğu kimi, bu qüslü tərk etməmək ehtiyata müvafiqdir.**[1]

**Zöhr namazını və ya hər hansı bir vacib namazı qıldıqdan sonra, yaxud da iki rəkət müstəhəb namaz qılıb, ehram bağlamaq müstəhəbdir. Bəzi hədislərdə qeyd olunub ki, (ehram bağlamamışdan qabaq) altı rəkət müstəhəb namaz qılınır və bu namazın böyük fəziləti vardır.**

**Həmçinin həcc yerinə yetirmək istəyən şəxs üçün zil-qədə ayının əvvəlindən saç və saqqalını qısaltmamaq müstəhəbdir.**

[1] Məsələ 156

## 3- Ehramın məkruh əməlləri

**Məsələ 158. Ehram paltarının qara rəngli, çirkli və zolaqlı olması məkruhdur. Ehram paltarının ağ rəngli olması daha yaxşıdır.**

**Ehram halında sarı rəngli balışda və ya yataqda yatmaq məkruhdur.**

**Əgər ehram bağlayanadək xınanın rəngi qalacaqdırsa, ehram bağlamamışdan qabaq xınadan istifadə etmək məkruhdur.**

**Ehram halında olan şəxsin onu səsləyən şəxsin cavabında "ləbbeyk" ifadəsini deməsi məkruhdur.**

**Ehram halında hamama getmək, bədəni kisələmək və bu kimi işləri görmək məkruhdur.**

## 4- Ehramın haram əməlləri

**Məsələ 159.** **İnsan ehram bağladığı andan etibarən ehram halında olduğu müddət ərzində bəzi əməlləri yerinə yetirməməlidir. Bu əməllər "ehramın haram əməlləri" adlanır.**

**Məsələ 160.** **Ehramın haram əməlləri 22 əməldən ibarətdir. Bu əməllərin bir qismi yalnız kişilərə, bir qismi isə yalnız qadınlara haramdır. İlk öncə ehramın haram əməllərini sadalayacaq, daha sonra bu əməllərin daha çox qarşıya çıxan məsələlərini və hökmlərini açıqlayacağıq.**

## Ehramın haram əməlləri

**1- Tikişli paltar geyinmək (kişilər üçün);**

**2- Ayağın üstünü tam örtmək (kişilər üçün);**

**3- Kişilər üçün başı örtmək və qadınlar üçün üzü örtmək;**

**4- Kölgə altında olmaq (kişilər üçün);**

**5- Xoş qoxu istifadə etmək;**

**6- Aynaya baxmaq;**

**7- Üzük taxmaq;**

**8- Xınadan istifadə etmək;**

**9- Bədənə yağ sürtmək;**

**10- Baş və bədənin tükünü qoparmaq və ya qırxmaq;**

**11- Sürmə çəkmək;**

**12- Dırnaq tutmaq;**

**13- Bədəndən qan çıxartmaq;**

**14- Fasiqlik;**

**15- Mübahisə etmək;**

**16- Bədəndə olan həşəratları öldürmək;**

**17- Hərəmin ağaclarını və ya bitkilərini kökündən qoparmaq və kəsmək;**

**18- Silah gəzdirmək;**

**19- Səhrada yaşayan çöl heyvanını ovlamaq;**

**20- Cinsi əlaqə;**

**21- Qadınla izdivac əqdi bağlamaq;**

**22- İstimna etmək.**

**Məsələ 161. Bu əməllərin bəzisi adi halda da haramdır və onun haramlığı ehram halında daha şiddətlidir.**

## 1- Tikişli paltar geyinmək (kişilər üçün)

**Məsələ 162. Ehram halında kişilərin tikişli paltar geyinməsi, o cümlədən köynək, qəba, şalvar, pencək, palto, alt paltarı və s. geyinməsi haramdır. Həmçinin düyməsini bağladıqda köynək və bu kimi bir paltar olan düyməli paltarları geyinmək kişilərə haramdır.**

**Məsələ 163. Əvvəlki məsələdə tikişli paltar, toxunma paltar və ya bu kimi paltarlar arasında fərq yoxdur.**

**Məsələ 164. "Paltar" sayılmayan tikişli bir şeyi geyinmək, məsələn, kəmərdən, pul qabından, qol saatının bağından və s. istifadə etməyin maneəsi yoxdur.**

**Məsələ 165. Tikişli olan döşəkçənin və ya geyinilməsi haram olan paltarın üstündə əyləşmək və yatmağın maneəsi yoxdur.**

**Məsələ 166. Tikişli olan yorğanı, adyalı və bu kimi bir örtüyü çiyinlərə atmağın maneəsi yoxdur.**

**Məsələ 167. Ehram paltarının ətrafının tikişli olmasının maneəsi yoxdur.**

**Məsələ 168. Əgər ehramda olan şəxs bilərəkdən tikişli paltar geyinsə, bir qoyun kəffarə verməlidir. Həmçinin əgər bir neçə tikişli paltar geyinsə, məsələn, şalvar, köynək, pencək və alt paltarı geyinsə, onların hər biri üçün ayrıca olaraq kəffarə verməlidir.**

**Məsələ 169. Əgər ehramda olan şəxs havanın soyuqluğu ilə, yaxud xəstəliklə və ya başqa bir üzr ilə əlaqədar olaraq tikişli paltar geyinmək məcburiyyətində qalsa, tikişli paltar geyinə bilər. Amma ehtiyat-vacibə görə, bir qoyun kəffarə verməlidir.**

**Məsələ 170. Qadınlar ehram halında istənilən tikişli paltarı geyinə bilərlər və onlar üçün bu əməlin kəffarəsi yoxdur. Amma qadınlar ehram halında əlcək geyinə bilməzlər.**

## 2- Ayağın üstünü tam örtmək (kişilər üçün)

**Məsələ 171.** **Ehramda olan kişi ayaqqabı və corab geyinməməlidir. Ehtiyat-vacibə görə, ayağın üstünü tam örtən bir şey, məsələn, çarıq da geyinməməlidir.**

**Məsələ 172.** **Tərlik və qalın bağı olan, amma ayağın üstünü tam örtməyən ayaqqabı geyinməyin maneəsi yoxdur.**

**Məsələ 173.** **Əyləşərkən və ya yatarkən ayağın üstünü yorğan, örtük və bu kimi bir şeylə örtməyin maneəsi yoxdur. Həmçinin ehram paltarının ayağın üstünü örtməsinin maneəsi yoxdur.**

**Məsələ 174.** **Əgər ehramda olan şəxs ayaqqabı və ya ayağın üstünü tam örtən bu kimi bir şeyi geyinmək məcburiyyətində qalsa, o, ayağının üstünü örtə bilər. Amma ehtiyat-vacibə görə, onun üzərində yarıq açmalıdır.**

**Məsələ 175.** **Əvvəlki məsələlərdə sadalanan ayaqqabı, corab və bu kimi şeyləri geyinməyin kəffarəsi yoxdur. Amma corab üçün kəffarə ünvanında bir qoyun qurban kəsmək ehtiyat-müstəhəbə müvafiqdir.**

**Məsələ 176.** **Sözügedən hökm (yəni corab, ayaqqabı və bu kimi şeyləri geyinməyin haramlığı) kişilərə aiddir. Amma qadınların da onları geyinməməsi ehtiyat-müstəhəbə müvafiqdir.**

## 3- Kişilər üçün başı örtmək və qadınlar üçün üzü örtmək

**Məsələ 177.** Ehramda olan kişi papaq, əmmamə, dəsmal və bu kimi şeylərlə başını örtə bilməz.

**Məsələ 178.** Ehtiyat-vacibə görə, ehramda olan kişi başın örtülməsinə səbəb olan hər hansı bir şeyi, məsələn, xına və sabun köpüyünü başa qoymaqdan, yaxud başının üstündə yük daşımaqdan və bu kimi işlərdən çəkinməlidir.

**Məsələ 179.** Qulaq başın bir hissəsi sayılır və ehramda ikən qulağı da örtmək olmaz.

**Məsələ 180.** Əgər başın bir hissəsini örtmək ürfə görə başı örtmək hesab olunarsa (məsələn, başın ortasına balaca papaq qoymaq), bu şəkildə də başı örtmək olmaz. Amma bundan qeyri halda, məsələn, başın üstünə Quran və bu kimi bir əşyanı qoymağın, yaxud başı hissə-hissə qurutmağın maneəsi yoxdur, baxmayaraq ki, bu işdən də çəkinmək ehtiyata müvafiqdir.

**Məsələ 181.** Ehramda olan şəxs başını bütünlüklə suya sala bilməz. Zahirə görə, bu məsələdə kişi ilə qadın arasında fərq yoxdur. Amma əgər başını bütünlüklə suya salarsa, onun boynuna kəffarə gəlmir.

**Məsələ 182.** Başı örtməyin kəffarəsi, ehtiyat-vacibə görə, bir qoyundur.

**Məsələ 183.** Əgər ehramda olan şəxs unutqanlıq və ya məlumatsızlıq üzündən başını örtsə, ona kəffarə vacib olmur.

**Məsələ 184.** Qadınlar ehramda ikən öz üzlərini adətən naməhrəm qarşısında hicablanarkən örtdükləri və ya tanınmamaqdan ötrü örtdükləri şəkildə örtə bilməzlər. Deməli, əgər üzün bir hissəsini örtmək "üzü örtmək" adlanarsa, buna da icazə verilmir. Məsələn, hicablanmaq və ya tanınmamaq məqsədilə yanaqları, burunu, ağızı və çənəni örtmək "üzü örtmək" hesab olunduğuna görə, onları örtmək olmaz.

**Məsələ 185.** Ehramda olan qadınların burun və ağızı örtmək üçün tibbi maskalardan istifadə etmələrinin maneəsi yoxdur.

**Məsələ 186.** Üzün yuxarı və ya aşağı tərəfdən, yaxud yan tərəflərdən ətrafını adətən qadınların baş örtüsü bağlayarkən örtdükləri ölçüdə və ya namazda başı örtərkən örtdükləri ölçüdə örtmək "üzü örtmək" adlanmadığına görə, o hissələri örtməyin – istər namazda, istərsə də qeyri hallarda – maneəsi yoxdur.

**Məsələ 187.** Qadınların yelpik və bu kimi bir əşya (məsələn, kağız, qəzet və s.) ilə üzlərini örtməsi haramdır. Amma əlləri üzə qoymağın maneəsi yoxdur.

**Məsələ 188.** Ehramda olan qadın çadrasının və ya baş örtüyünün bir tərəfini üzündən ata bilər, belə ki, burunun yuxarısınadək alnını və üzünün bir hissəsini örtə bilər. Amma ehtiyat budur ki, naməhrəm kişi onu görmədiyi halda bu işi görməkdən çəkinsin.

**Məsələ 189.** Əvvəlki məsələdə ehtiyat budur ki, sözügedən örtük üz ilə təmasda olmasın.

**Məsələ 190.** Üzü örtməyin kəffarəsi yoxdur, amma kəffarə vermək ehtiyata müvafiqdir.

## 4- Kölgə altında olmaq (kişilər üçün)

**Məsələ 191.** Yol gedərkən (məsələn, miqatdan Məkkəyə və ya Məkkədən Ərəfata və s. gedərkən) ehramda olan kişinin kölgə altında olmasına icazə verilmir. Amma əgər yol əsnasında dayansa, kölgə altına keçməsinin maneəsi yoxdur. Həmçinin getdiyi yerdə evə və ya restorana daxil olmasının maneəsi yoxdur. Beləliklə, tavanlı avtobus ilə səfər etməyə icazə verilmir. Amma Məkkəyə çatdıqdan sonra evlərdə, restoranlarda və s. yol gedərkən kölgə altında olmağın maneəsi yoxdur.

**Məsələ 192.** Ehtiyata görə, ehramda olan şəxs Məkkəyə çatdıqdan sonra umrənin əməllərini yerinə yetirməmişdən qabaq, həmçinin Ərəfatda və Minada ehram halında olarkən hərəkətli kölgələrin altında, məsələn, tavanlı avtobusların və çətirlərin kölgəsi altında olmaqdan çəkinməlidir.

**Məsələ 193.** Əvvəlki iki məsələdə qeyd edilən hökm gündüz vaxtına aiddir. Gecə vaxtı tavanlı avtobusa minməyin maneəsi yoxdur, baxmayaraq ki, bu barədə ehtiyata riayət etmək bəyənilir.

**Məsələ 194.** Ehtiyata görə, ehramda olan şəxs yağışlı və soyuq gecələrdə yağışdan və soyuqdan qorunmaq məqsədilə tavanlı avtobusa və ya bu kimi bir nəqliyyat vasitəsinə minməkdən çəkinməlidir.

**Məsələ 195.** Divarın, ağacın və ya bu kimi şeylərin kölgəsi altında olmağın, həmçinin hərəkətsiz tavanların altından keçməyin, məsələn, körpünün altından və ya tuneldən keçməyin, hətta gündüz vaxtı belə, maneəsi yoxdur.

**Məsələ 196.** Kölgə altında olmaq yalnız kişilərə haramdır və qadınlar üçün maneəsi yoxdur.

**Məsələ 197.** Kölgə altında olmağın kəffarəsi bir qoyundur.

**Məsələ 198.** Əgər ehramda olan şəxs xəstəlik və ya başqa bir üzr ilə əlaqədar kölgə altında olmaq məcburiyyətində qalsa, kölgə altında ola bilər, amma bir qoyun kəffarə verməlidir.

**Məsələ 199.** Kölgə altında olmağın bir ehram üçün bir kəffarəsi vardır, baxmayaraq ki, bu iş bir neçə dəfə yerinə yetirilibdir. Beləliklə, əgər şəxs umrə ehramında bir neçə dəfə kölgə altında olsa, ona yalnız bir kəffarə vacib olur. Həcc ehramında da hökm eynidir.

## 5- Xoş qoxu istifadə etmək

**Məsələ 200.** **Ehram halında hər növ ətirdən, o cümlədən müşk, ud, gülab və digər ətirlərdən istifadə etmək haramdır.**

**Məsələ 201.** **Öncədən üzərinə ətir vurulan bir paltardan ətir qoxusu duyulduğu müddətdə onu geyinmək olmaz.**

**Məsələ 202.** **Ehtiyata görə, (ehram halında) xoş qoxulu sabun və şampundan istifadə etmək olmaz.**

**Məsələ 203.** **Ehtiyat-vacibə görə, ehramda olan şəxs xoş qoxulu hər bir şeyi qoxulamaqdan çəkinməlidir, baxmayaraq ki, həmin şey "ətir" adlanmır, məsələn, ətirli güllər, göyərtilər və meyvələri qoxulamamalıdır.**

**Məsələ 204.** **Ehramda olan şəxs zəfəran vurulmuş yeməyi yeyə bilməz.**

**Məsələ 205.** **Ehramda olan şəxsin alma, portağal və bu kimi xoş qoxulu meyvələri yeməsinin maneəsi yoxdur. Amma ehtiyat-vacibə görə, onları qoxulamaqdan çəkinməlidir.**

**Məsələ 206.** **Ehramda olan şəxs xoşagəlməz qoxuya görə burnunu tuta bilməz, amma xoşagəlməz qoxu gələn məkandan xaric ola və ya oradan keçib gedə bilər.**

**Məsələ 207.** **Ehtiyat-vacibə görə, ətirlərdən və xoş qoxulardan – istər zəfəran kimi yeməklərdə istifadə edilən, istərsə də bunlardan qeyri xoş qoxulardan – bilərəkdən istifadə etməyin kəffarəsi bir qoyundur.**

## 6- Aynaya baxmaq

**Məsələ 208.** **Ehram halında bəzək məqsədilə aynaya baxmaq haramdır. Amma zinət məqsədi olmadan aynaya baxmağın (məsələn, sürücünün aynaya baxmasının) maneəsi yoxdur.**

**Məsələ 209.** **Saf suya və ya şəkili əks etdirən cilalanmış əşyalara baxmaq aynaya baxmaq kimidir. Yəni əgər zinət məqsədilə olarsa, onlara baxmağa icazə verilmir.**

**Məsələ 210.** **Əgər ehramda olan şəxs ayna olan otaqda qalırsa və səhvən aynaya baxacağını bilirsə, o, həmin otaqda qala bilər, amma aynanı otaqdan çıxarsa və ya üstünü bir şeylə örtsə, daha yaxşı olar.**

**Məsələ 211.** **Zinət məqsədilə olmadığı təqdirdə, eynək taxmağın maneəsi yoxdur.**

**Məsələ 212.** **Ehram halında fotoaparatla şəkil çəkməyin və ya kamera ilə çəkiliş etməyin maneəsi yoxdur.**

**Məsələ 213.** **Aynaya baxmağın kəffarəsi yoxdur, amma ehtiyat-vacibə görə, ehramda olan şəxs aynaya baxdıqdan sonra "ləbbeyk" deməlidir.**

## 7- Üzük taxmaq

**Məsələ 214.** **Ehtiyat-vacibə görə, ehramda olan şəxs zinət hesab olunduğu təqdirdə, üzük taxmamalıdır.**

**Məsələ 215.** **Əgər üzük taxmaq zinət üçün deyildirsə, əksinə, müstəhəb əmələ riayət etmək və ya başqa bir məqsəd daşıyırsa, bu halda üzük taxmağın maneəsi yoxdur.**

**Məsələ 216.** **Ehram halında üzük taxmağın kəffarəsi yoxdur.**

## 8- Xınadan və saç boyasından istifadə etmək

**Məsələ 217.** **Ehtiyat-vacibə görə, ehramda olan şəxs zinət hesab olunduğu təqdirdə, xınadan və saç boyasından istifadə etməməli, ümumiyyətlə, zinət sayılan hər şeydən çəkinməlidir.**

**Məsələ 218.** **Əgər bir şəxs ehram bağlamamışdan qabaq əllərinə, ayaqlarına və dırnaqlarına xına qoyubsa və ya saçlarını boyayıbsa və ehram bağladığı zaman onların rəngi qalıbsa, bunun maneəsi yoxdur.**

**Məsələ 219.** **Xınadan və saç boyasından istifadə etməyin kəffarəsi yoxdur.**

## 9- Bədənə yağ sürtmək

**Məsələ 220.** **Ehramda olan şəxs bədəninə və saçlarına yağ vura bilməz, bu yağ istər zinət üçün istifadə edilən yağlardan olsun, istərsə də başqa yağlar olsun, yaxud istər ətirli olsun, istərsə də ətirli olmasın, bunun fərqi yoxdur.**

**Məsələ 221.** **Əgər ətirli yağlardan istifadə edildiyi təqdirdə onun qoxusu ehram bağlanılan vaxtadək insanın bədənində qalacaqdırsa, bu halda ehram bağlamamışdan qabaq da onlardan istifadə etməyə icazə verilmir.**

**Məsələ 222.** **Xoş qoxusu olmadığı təqdirdə, yağı və piyi yeməyin maneəsi yoxdur.**

**Məsələ 223.** **Əgər ehramda olan şəxs müalicə məqsədilə, yaxud Günəşin zərərli şüalarından və ya bədənin iltihabına və yanığına səbəb olan tərləmədən qorunmaqdan ötrü bədəninə yağ sürtmək məcburiyyətində qalarsa, yağdan istifadə etməsinin maneəsi yoxdur.**

**Məsələ 224.** **Ehtiyata görə, bədənə xoş qoxulu yağ sürtməyin kəffarəsi bir qoyundur. Xoş qoxusu olmayan yağ sürtməyin kəffarəsi isə bir fəqiri doyuzdurmaqdır, baxmayaraq ki, hər iki halda kəffarənin vacib olması uzaq ehtimal deyildir.**

## 10- Baş və bədənin tükünü qoparmaq və ya qırxmaq

**Məsələ 225.** **Ehram halında baş və bədənin hər hansı bir hissəsinin tükünü – istər az olsun, istərsə də çox olsun – qopararaq və ya qırxaraq aradan aparmaq haramdır. Həmçinin istər şəxs öz başının və bədəninin tükünü qoparsın və ya qırxsın, istərsə də başqa bir şəxsin baş və bədəninin tükünü qoparsın və ya qırxsın, fərqi yoxdur və bu iş haramdır.**

**Məsələ 226.** **Əgər dəstəmaz alarkən, qüsl edərkən və ya təyəmmüm edərkən bədənin tükü öz-özünə qopub düşərsə və insanın öz bədənindən tük qoparmaq kimi bir niyyəti olmazsa, bunun iradı yoxdur.**

**Məsələ 227.** **Əgər ehramda olan şəxs tükü qoparmaq və ya qırxmaq məcburiyyətində qalarsa, məsələn, göz qapağının altında olan və onu incidən bir tükü qoparmaq və ya baş ağrısının yaranmasına səbəb olan saçları qırxmaq məcburiyyətində qalarsa, bu işi görməsinin maneəsi yoxdur.**

**Məsələ 228.** **Əgər ehramda olan şəxs bilərəkdən başını qırxsa, bir qoyun kəffarə verməlidir. Amma əgər diqqətsizlik üzündən, yaxud səhvən, yaxud da məsələni bilmədiyinə görə bu işi etsə, ona kəffarə vacib olmur.**

**Məsələ 229.** **Əgər ehramda olan şəxs başını qırxmaq məcburiyyətində qalarsa, bu işin kəffarəsi on iki müdd təamdır və altı miskinə verilməlidir. Yaxud üç gün oruc tutmalı və ya bir qoyun verməlidir.**

**Məsələ 230.** **Əgər ehramda olan şəxs saçlarını qayçı və ya maşınla qısaltsa, ehtiyat-vacibə görə, bir qoyun kəffarə verməlidir.**

**Məsələ 231.** **Əgər ehramda olan şəxs əlini başına çəksə və onun bir və ya daha çox saçı düşsə, ehtiyat-müstəhəbə görə, bir ovuc buğda, ya un və ya bu kimi ərzaqlar sədəqə versin.**

## 11- Sürmə çəkmək

**Məsələ 232.** **Sürmə çəkmək zinət hesab olunduğu təqdirdə, ehramda olan şəxs sürmə çəkə bilməz. Həmçinin gözün ətrafına xətt çəkmək – belə ki, bunu qadınlar edirlər – olmaz və bu halda qara, yoxsa başqa rənglərdən istifadə olunmasının fərqi yoxdur.**

## 12- Dırnaq tutmaq

**Məsələ 233. Ehramda olan şəxsin əl və ya ayaq dırnaqlarını tutması haramdır. İstər dırnaqlarının hamısını tutsun, istərsə də bəzisini tutsun, fərqi yoxdur və bu iş haramdır. Həmçinin istər dırnağı kökündən tutsun, istər qısaltsın, istərsə də qoparsın, fərqi yoxdur. Bunu hansı vasitə ilə (qayçı, dınaqtutan və ya başqa bir vasitə ilə) etməsinin də fərqi yoxdur.**

**Məsələ 234. Əgər ehramda olan şəxs dırnağını tutmaq məcburiyyətində qalarsa (məsələn, dırnağın bir hissəsi qopsa və qalan hissəsi insanı incitsə), bunu etməsinin maneəsi yoxdur.**

**Məsələ 235. Başqa bir şəxsin dırnağını tutmağın maneəsi yoxdur.**

**Məsələ 236. Dırnağı tutmağın kəffarəsi aşağıdakı qaydadadır:**

**- Əgər əl və ya ayaq dırnaqlarının birini və ya daha çoxunu tutsa, hər dırnaq üçün bir müdd təam kəffarə verməlidir.**

**- Əgər əl və ya ayaq dırnaqlarının hamısını qısaltsa, bir qoyun kəffarə verməlidir.**

**- Əgər əl və ayaq dırnaqlarının hamısını eyni vaxtda qısaltsa, bir qoyun kəffarə verməlidir.**

**- Əgər əl dırnaqlarını bir vaxtda və ayaq dırnaqlarını başqa bir vaxtda qısaltsa, iki qoyun kəffarə verməlidir.**

## 13- Bədəndən qan çıxartmaq və dişi çəkmək

**Məsələ 237.** **Ehtiyat-vacibə görə, ehramda olan şəxs bədənindən qan çıxmasına səbəb olan bir iş görməməlidir.**

**Məsələ 238.** **Ehram halında əzələdaxili inyeksiya etməyin maneəsi yoxdur. Amma əgər bədəndən qanın çıxmasına səbəb olarsa, ehtiyat-vacibə görə, ehramda olan şəxs yalnız zərurət halında bunu etsin.**

**Məsələ 239.** **Əgər dişi çəkmək qanın çıxmasına səbəb olarsa, ehtiyat-vacibə görə, yalnız zərurət və ehtiyac halında bu iş görülsün.**

**Məsələ 240.** **Bədəndən qan çıxartmağın kəffarəsi yoxdur, amma bir qoyun kəffarə vermək müstəhəbdir.**

## 14- Fasiqlik

**Məsələ 241.** **Fasiqlik – burada yalan danışmaq, söyüş söymək və lovğalanmaq mənasını bildirir. Deməli, ehram halında yalan danışmaq və söyüş söyməyin haramlığı daha çoxdur. Amma adi halda haram olmayan lovğalıq xüsusiyyəti ehram halında haramdır.**

**Məsələ 242.** **Fasiqliyin kəffarəsi yoxdur və yalnız Allahdan bağışlanma diləmək lazımdır.**

## 15- Mübahisə etmək

**Məsələ 243.** **Ehramda olan şəxsin mübahisə edərkən Allaha and içməsi haramdır. Məsələn“بلى والله” (la vəllah) və “لا والله” (bəla vəllah) ifadələrini söyləməsi haramdır.**

**Məsələ 244.** **Ehtiyat-vacibə görə, ehramda olan şəxs mübahisə zamanı “Allah” sözünün başqa dillərə tərcüməsi olan ifadəyə (məsələn, azərbaycan dilində olan “Tanrı” ifadəsinə) and içməkdən çəkinməlidir. Həmçinin ehtiyat-vacibə görə, Allahın başqa adlarına, məsələn, Rəhman, Rəhim, Qadir, Mütəal və s. adlarına da and içməkdən çəkinməlidir.**

**Məsələ 245.** **Mütəal Allahdan qeyri müqəddəslərə and içmək ehramın haram əməllərindən deyildir.**

**Məsələ 246.** **Əgər ehramda olan şəxs doğru and içsə, birinci və ikinci dəfədə yalnız Allahdan bağışlanma diləməlidir və boynuna kəffarə gəlmir. Amma əgər iki dəfədən çox doğru and içsə, bir qoyun kəffarə verməlidir.**

**Məsələ 247.** **Əgər ehramda olan şəxs yalan and içsə, birinci və ikinci dəfədə bir qoyun kəffarə verməlidir. Ehtiyata görə, ikinci dəfədə iki qoyun kəffarə versin. Amma əgər iki dəfədən çox yalan and içsə, hər dəfəsində bir inək kəffarə verməlidir.**

## 16- Bədəndə olan həşəratları öldürmək

**Məsələ 248.** **Ehtiyata görə, ehram halında bədəndə olan biti öldürmək olmaz. Başqa həşəratlar, məsələn, birə üçün də hökm eynidir.**

## 17- Hərəmin ağaclarını və ya bitkilərini kökündən qoparmaq və kəsmək

**Məsələ 249.** **Hərəmdə bitən ağacları və bitkiləri kəsmək, sındırmaq və kökündən qoparmaq həm ehramda olan şəxsə, həm də ehramda olmayan şəxsə haramdır.**

**Məsələ 250.** **Yol getmək nəticəsində qopan bitkilər və ya heyvanların yemi kimi istifadə edilən bitkilər bu hökmdən müstəsnadır.**

**Məsələ 251.** **Hərəmin qurumuş bitkilərini və kollarını qoparmağın kəffarəsi yoxdur, amma bu əmələ görə Allahdan bağışlanma diləmək lazımdır. Lakin əgər bir şəxs kəsilməsi haram olan bir ağacı kəsərsə, ehtiyat-vacibə görə, bir inək kəffarə verməlidir.**

## 18- Silah gəzdirmək

**Məsələ 252.** **Ehramda olan şəxsə silah gəzdirməyə icazə verilmir.**

**Məsələ 253.** **Əgər özünün və ya başqalarının canını qorumaqdan ötrü silah gəzdirməyə ehtiyac olarsa, bu halda ehramda olan şəxsə silah gəzdirməyə icazə verilir.**

## 19- Səhrada yaşayan çöl heyvanlarını ovlamaq

**Məsələ 254.** **Ehram halında səhrada yaşayan heyvanı ovlamaq haramdır. Amma əgər heyvanın zərər yetirmək qorxusu mövcud olarsa, bu halda onu öldürməyə icazə verilir. Quşları və çəyirtkələri ovlamaq da haramdır.**

**Məsələ 255.** **Ehramda olan şəxsə ov ətini yemək haramdır, istər heyvanı onun özü ovlamış olsun, istərsə də başqası ovlamış olsun, yaxud istər heyvanı ovlayan şəxs ehramda olsun, istərsə də olmasın.**

**Məsələ 256.** **Ehramda olan şəxs üçün dəniz heyvanlarını, məsələn, balığı ovlamağın və yeməyin maneəsi yoxdur.**

**Məsələ 257.** **Ehramda olan şəxsin ev heyvanlarını, məsələn, qoyunu və toyuğu kəsməsi və onun ətindən yeməsinin maneəsi yoxdur.**

**Məsələ 258.** **Hərəm ərazisində heyvan ovlamağa icazə verilmir, ovlayan şəxs istər ehramda olsun, istərsə də olmasın.**

**Diqqət:** **Ov etmək və onun kəffarəsinə aid hökmlər olduqca genişdir. Amma hazırkı dövrdə bu hökmlər qarşıya çıxmadığına görə onları açıqlamırıq.**

## 20- Cinsi əlaqə

**Məsələ 259.** **Ehram halında cinsi əlaqədə olmaq, həmçinin qadından digər cinsi ləzzətlər almaq, məsələn, qadını öpmək, şəhvətlə ona toxunmaq və baxmaq haramdır.**

**Məsələ 260.** **Şəhvətlə olmadığı təqdirdə, ər və arvadın bir-birinə baxması, bir-birinin əlinə toxunmasının maneəsi yoxdur.**

**Məsələ 261.** **İnsanın məhrəmləri, məsələn, ata və anası, qardaş və bacısı, əmi və dayısı, bibi və xalası və başqaları ehram halında da ona məhrəmdirlər. Günah etmək qorxusu olmadığı təqdirdə, onlara baxmağın maneəsi yoxdur.**

**Məsələ 262.** **Həyat yoldaşı ilə cinsi əlaqədə olmağın kəffarəsi bir dəvədir. Bəzi hallarda isə bu əməl həccin pozulmasına səbəb olur. Bu məsələ fiqh kitablarında geniş izah olunubdur.**

**Məsələ 263.** **Cinsi əlaqədən qeyri cinsi ləzzətlərin də hər birinin kəffarəsi vardır və fiqh kitablarında geniş izah olunubdur.**

## 21- Qadınla izdivac əqdi bağlamaq

**Məsələ 264.** **Ehramda olan şəxsin bir qadınla izdivac əqdi bağlamasına və ya başqası üçün izdivac əqdi oxumasına, hətta o şəxs ehramda olmasa belə, icazə verilmir. Bu əqd düzgün deyildir.**

**Məsələ 265.** **İstər daimi izdivac əqdi olsun, istərsə də müvəqqəti izdivac əqdi olsun, ehramda olan şəxsin izdivac əqdi bağlaması haramdır.**

## 22- İstimna

**Məsələ 266. Ehram halında istimna etmək haramdır və onun hökmü cinsi əlaqədə olmağın hökmü ilə eynidir. “İstimna” dedikdə, insanın özü ilə məninin xaric olmasına səbəb olan bir işi görməsi nəzərdə tutulur.**

## Kəffarələrin hökmləri

**Məsələ 267.** **Əgər ehramda olan şəxs ehramın haram əməllərindən birini səhvən və ya diqqətsizlik üzündən yerinə yetirsə, ona kəffarə vacib olmur. Amma ov etmək istisna təşkil edir və istənilən halda kəffarəsi vardır.**

**Məsələ 268.** **Umrədə ov etməyin kəffarəsi olan heyvan Məkkə şəhərində, həcdə ov etməyin kəffarəsi olan heyvan Minada kəsilməlidir. Ehtiyata görə, digər kəffarələrdə də bu şəkildə əməl edilsin. Amma əgər bir şəxs kəffarə ünvanında olan heyvanı Məkkədə və ya Minada kəsməsə və həcdən qayıtdıqdan sonra onu öz vətənində və ya başqa bir yerdə kəssə, bu, kifayət edir.**

**Məsələ 269.** **Əgər ehramda olan bir şəxsə kəffarə vacib olsa, o, həmin heyvanın ətindən yeməməlidir. Amma vacib və ya müstəhəb qurbanlığın ətini, yaxud nəzir qurbanlığının ətini yeməsinin maneəsi yoxdur.**

**Məsələ 270.** **Ehramın haram əməllərinin kəffarəsi fəqirlərə verilməlidir.**

## Məkkə şəhərinə tərəf hərəkət etmək

**Məsələ 271.** **Miqatda ehram bağladıqdan sonra hacılar umrənin digər əməllərini yerinə yetirmək üçün Məkkə şəhərinə tərəf hərəkət edirlər.**

**Məsələ 272.** **Məkkə şəhərinə daxil olmamışdan qabaq hərəmin ərazisi başlanır. Hərəmə, həmçinin Məkkəyə və Məscidul-hərama daxil olarkən riayət edilən bir sıra əməllər və oxunan dualar vardır. Bu dualardan birini burada qeyd edirik və başqa dualar və müstəhəb əməllər ilə maraqlananlar bu mövzuda olan geniş kitablara müraciət etsinlər.**

## Hərəmin ərazisinə daxil olarkən oxunan dua

**Məsələ 273.** **Hərəmin ərazisinə daxil olarkən aşağıdakı duanı oxumaq müstəhəbdir:**

قُلْتَ وَ

اَللّٰهُمَّ إِنَّكَ يَأْتِين أَرْجُو أَنْ أَكُونَ مِمَّنْ اَجَابَ دَعْوَتَكَ، وَ قَدْ

بَعِيدَةٍ وَ

إِحْسَانِكَ فَقَتَنِى لَهُ، لَكَ، مُطِيعًا لِأَمْرِكَ. وَ كُلُّ ذ

الزُّلْفَةَ عِنْدَكَ، وَ الْقُرْبَةَ اِلَيْكَ، وَ الْمَنْزِلَةَ لَدَيْكَ، وَ الْمَغْفِرَةَ لِذُنُوبِى، وَ التَّوْبَةَ

اَللّٰهُمَّ صَلِّ

لِ

وَ عِقَابِكَ، بِرَحْمَتِكَ يَا اَرْحَمَ

الرَّاحِمِينَ.

**“Əllãhummə innəkə qultə fĩ kitãbikə və qəvlukəl-həqq: “Və əzzin fin-nãsi bil-həcci yə`tũkə ricãlən və əlã killi zãmirin yə`tĩnə min kulli fəccin əmĩq.”[1] Əllãhummə innĩ ərcũ ən əkũnə mimmən əcãbə də`vətəkə, və qəd ci`tu min şuqqətin bəĩdətin və fəccin əmĩqin. Sãmiən li-nidãikə, və mustəcĩbən ləkə, mutĩən li-əmrikə. Və kullu zãlikə bi-fəzlikə ələyyə və ihsãnikə iləyyə, fə-ləkəl-həmdu əla mã vəffəqtəni ləhu, əbtəği bi-zãlikə əz-zulfətə indəkə, vəl-qurbətə iləykə, vəl-mənzilətə lədəykə, vəl-məğfirətə li-zunũbi, vət-təvbətə ələyyə minha bi-mənnikə. Əllãhummə səlli əla Muhəmmdin və Ali-Muhəmmədin, və hərrim bədəni ələn-nãr, və ãminni min əzãbikə və iqãbikə, bi-rəhmətikə yã ərhəmər-rãhimĩn.”**

[1] “Həcc” surəsi, ayə 27

## Məscidul-hərama daxil olmağın müstəhəb əməlləri

**Məsələ 274. Məscidul-hərama daxil olmağın müstəhəb əməlləri aşağıdakılardır:**

**1- Məscidul-hərama daxil olmaq üçün qüsl etmək;**

**2- Məscidul-hərama daxil olarkən oxunan xüsusi dualar.**

## ÜÇÜNCÜ FƏSİL: TƏVAF VƏ TƏVAF NAMAZI

**Məsələ 275.** **Umrənin ikinci vacib əməli təvafdır. Təməttu umrəsi niyyətilə ehram bağlayan və umrənin digər əməllərini yerinə yetirmək üçün Məkkə şəhərinə daxil olan şəxsin yerinə yetirməli olduğu ilk əməl Kəbə evinin ətrafına yeddi dövrə təvaf etməkdir.**

## Təvafın şərtləri

**Məsələ 276.** **Təvafın düzgün olmasının şərtləri aşağıdakılardır:**

**1- Niyyət;**

**2- Təharət – qüsllü və dəstəmazlı olmaq;**

**3- Bədənin və paltarın pak olması;**

**4- Sünnət;**

**5- Övrətin örtülü olması;**

**6- Təvaf paltarının qəsbi olmaması;**

**7- Muvalat.**

### Birinci şərt: Niyyət

**Məsələ 277.** **Niyyət – umrənin və ya həccin təvafının "qurbətən iləllah" niyyətilə yerinə yetirilməsidir. Deməli, əgər təvaf, hətta onun bəzi dövrələri, niyyətsiz yerinə yetirilsə, kifayət etmir.**

**Məsələ 278.** **Niyyətdə qəsdi-qurbətin və Mütəal Allah üçün ixlasın olması şərtdir. Deməli, təvaf Allahın əmrinə itaət niyyətilə yerinə yetirilməlidir. Əgər riya məqsədilə yerinə yetirilsə, günahdır və təvaf düzgün deyildir.**

**Məsələ 279.** **Təvafın niyyətində mufrədə umrənin, yoxsa təməttu umrəsinin təvafı olduğu, yaxud da həccətul-islamın, yoxsa nəzir və ya müstəhəb həccin təvafı olduğu müəyyən edilməlidir. Əgər bir şəxs başqasının naibi ünvanında təvafı yerinə yetirirsə, bu da niyyətdə müəyyən edilməlidir.**

**Məsələ 280.** **Təvafın niyyətini dilə gətirmək və ya ürəkdən keçirmək lazım deyildir. Əksinə, təvafı yerinə yetirmək niyyətində olmaq kifayət edir.**

**Məsələ 281.** **Təvaf edərkən daim xüşu və hüzuri-qəlb halında olmaq, Allahı zikr etmək və hədislərdə buyurulan duaları oxumaq tövsiyə olunur.**

### İkinci şərt: Təharət – qüsllü və dəstəmazlı olmaq

**Məsələ 282.** **Vacib təvafların hamısında təvaf edən şəxs cənabətdən, heyzdən və nifasdan pak olmalıdır. Həmçinin dəstəmazlı olmalıdır.**

**Diqqət:** **"Vacib təvaf" dedikdə, umrənin və ya həccin əməllərinin tərkib hissəsi olan təvaf nəzərdə tutulur. Deməli, müstəhəb həccin və umrənin təvafı da "vacib təvaf" hesab olunur.**

**Məsələ 283.** **Əgər qüslü və ya dəstəmazı olmayan bir şəxs vacib təvafı yerinə yetirsə, onun təvafı düzgün deyildir. O, təvafı yenidən yerinə yetirməli və təvaf namazını yenidən qılmalıdır, baxmayaraq ki, bu hal məlumatsızlıq və ya unutqanlıq üzündən baş vermişdir, yaxud da umrənin və ya həccin əməlləri başa çatdıqdan sonra təharətsiz olduğunu başa düşmüşdür.**

**Məsələ 284.** **Müstəhəb təvafda dəstəmazlı olmaq şərt deyildir, amma təvaf namazı qılmaq üçün dəstəmazlı olmaq lazımdır. Lakin cənabətli şəxsin, heyzli və ya nifaslı qadının Məscidul-hərama daxil olması haram olmaqla yanaşı, onun təvafı da ehtiyat-vacibə görə, düzgün deyildir.**

**Diqqət:** **"Müstəhəb təvaf" umrənin və ya həccin əməllərinin tərkib hissəsi deyildir və ayrıca olaraq yerinə yetirilir. Müstəhəb təvafı insan həm özü üçün, həm də başqasının naibi olaraq yerinə yetirə bilər. Bu əməl Məkkə şəhərinin müstəhəb əməllərindəndir. İnsanın bacardığı qədər təvaf etməsi müstəhəbdir və böyük savabı vardır.**

**Məsələ 285.** **Əgər təvaf edərkən dəstəmaz pozularsa, iki hal yaranır:**

**1- Təvafın dördüncü dövrəsinin yarısı başa çatmamışdan qabaq, yəni Kəbənin üçüncü rüknünün üzbəüzünə çatmamışdan qabaq dəstəmaz pozulduğu təqdirdə, təvafı kəsmək və dəstəmaz alıb yenidən təvaf etmək lazımdır.**

**2- Təvafın dördüncü dövrəsinin yarısı başa çatdıqdan sonra dəstəmaz pozulduğu təqdirdə, təvafı kəsmək və dəstəmaz aldıqdan sonra həmin yerdən təvafı davam etdirmək lazımdır, bu şərtlə ki, "ürfi muvalat" pozulmamalıdır. Amma əgər "ürfi muvalat" pozularsa, dəstəmaz aldıqdan sonra ehtiyata görə, əvvəlki təvafı tamamlamaq niyyətilə onu başa çatdırmaq və yenidən bir tam təvaf da yerinə yetirmək lazımdır. Yaxud bu şəxs həm yarımçıq təvafı başa çatdırmağı, həm də yenidən təvaf etməyi ümumi niyyət edərək, bir tam təvaf edə bilər. Yaxud da əvvəlki yarımçıq təvafı ümumiyyətlə boşlaya və dəstəmaz aldıqdan sonra yenidən təvaf etməyə başlaya bilər.**

**Məsələ 286.** **Əgər təvaf edərkən qüsl pozularsa, dərhal Məscidul-həramdan xaric olmaq lazımdır. Əgər qüsl təvafın dördüncü dövrəsinin yarısı başa çatmamışdan qabaq pozulubsa, təvaf pozulmuşdur və qüsl etdikdən sonra yenidən təvaf etmək lazımdır. Amma əgər qüsl təvafın dördüncü dövrəsinin yarısı başa çatdıqdan sonra pozulubsa, qüsl etdikdən sonra təvafı həmin yerdən davam etdirib tamamlamaq lazımdır, amma bu şərtlə ki, "ürfi muvalat" pozulmamalıdır. Əgər "ürfi muvalat" pozularsa, ehtiyata görə, yarımçıq təvafı başa çatdırmaq və yenidən təvaf etmək lazımdır. Yaxud bu şəxs həm yarımçıq təvafı başa çatdırmağı, həm də yenidən təvaf etməyi ümumi niyyət edərək, bir tam təvaf edə bilər. Yaxud da əvvəlki yarımçıq təvafı ümumiyyətlə boşlaya və qüsl etdikdən sonra yenidən təvaf etməyə başlaya bilər.**

**Məsələ 287.** **Dəstəmaz almaq və qüsl etməkdə üzrlü olan şəxs dəstəmaz və qüsl əvəzinə təyəmmüm etməlidir.**

**Məsələ 288.** **Əgər bir şəxs müəyyən üzrə görə dəstəmaz ala bilmirsə və ya ona vacib olan qüslü edə bilmirsə, təvafın vaxtı başa çatmamışdan qabaq üzrünün aradan qalxacağını bildiyi (məsələn, xəstəliyinin sağalacağını bildiyi) təqdirdə, o, üzrü aradan qalxanadək gözləməli və üzrü aradan qalxdıqdan sonra dəstəmaz almalı və ya qüsl etməlidir. Amma əgər təvafın vaxtı başa çatmamışdan qabaq üzrünün aradan qalxacağını ümid edərsə, ehtiyata görə, vaxt daralanadək və ya üzrünün aradan qalxacağına ümidini itirənədək gözləməli və bu zaman təyəmmüm edərək təvafı yerinə yetirməlidir.**

**Məsələ 289.** **Vəzifəsi təyəmmüm etmək və ya cəbirə dəstəmazı almaq olan şəxs əgər hökmü bilmədiyinə görə təvafı təharətsiz yerinə yetirsə və təvaf namazını təharətsiz qılsa, imkan daxilində onları özü yenidən yerinə yetirməlidir. İmkan olmadığı təqdirdə isə bunun üçün naib tutmalıdır.**

**Məsələ 290.** **Əgər qadın "mufrədə umrə" üçün ehram bağladıqdan sonra heyz olsa, qüsl etmək və mufrədə umrənin əməllərini yerinə yetirmək üçün heyzdən paklanmağı gözləmək mümkün olmadığı təqdirdə, o, təvaf və təvaf namazı üçün naib tutmalıdır. Amma "səy" və "təqsir"i özü yerinə yetirməlidir. O, bu əməlləri yerinə yetirdikdən sonra ehramdan xaric olur. Əgər qadın heyzli halda "mufrədə umrə" üçün ehram bağlasa, hökm eynidir. Amma əgər qadın heyzli halda "təməttu umrəsi" üçün ehram bağlasa və ya "təməttu umrəsi" üçün ehram bağladıqdan sonra heyz olsa, umrənin təvafını yerinə yetirmək və təvaf namazını qılmaq üçün heyzdən paklanmağı gözləmək mümkün olmadığı təqdirdə, bu qadının hökmü fərqlidir və əvvəldə[1] qeyd olunubdur.**

**Məsələ 291.** **Umrənin əməllərində yalnız təvafı yerinə yetirmək və təvaf namazını qılmaq üçün dəstəmazlı olmaq vacibdir. Umrənin digər əməllərini yerinə yetirmək üçün dəstəmazlı olmaq vacib deyildir, baxmayaraq ki, bütün əməlləri yerinə yetirərkən dəstəmazlı olmaq daha yaxşıdır.**

**Məsələ 292.** **Əgər bir şəxs təharətli olub-olmadığına şəkk etsə, müxtəlif surətlərdə onun vəzifəsi aşağıdakı qaydadadır:**

**1- Əgər təvafa başlamamışdan qabaq dəstəmazlı olub-olmadığına şəkk edərsə, dəstəmaz almalıdır.**

**2- Əgər əvvəlcədən onun boynunda vacib qüsl olubsa və təvafa başlamamışdan qabaq qüsl edib-etmədiyinə şəkk edərsə, qüsl etməlidir.**

**3- Əgər əvvəlcədən dəstəmazı olubsa və dəstəmazının pozulub-pozulmadığına şəkk edərsə, dəstəmaz almaq lazım deyildir.**

**4- Əgər əvvəlcədən cənabətdən pak olubsa və cənabətli olub-olmadığına şəkk edərsə, yaxud qadın heyz olub-olmadığına şəkk edərsə, qüsl etmək vacib deyildir.**

**5- Əgər bir şəxs təvafı yerinə yetirdikdən sonra, lakin təvaf namazını qılmamışdan qabaq təharətli olub-olmadığına şəkk edərsə, təvaf barəsində o öz şəkkinə etina etməməli, təvaf namazı üçün isə təharət almalıdır.**

**6- Əgər bir şəxs təvafı təharətli halda yerinə yetirməyə başlasa, amma təvaf əsnasında dəstəmazının pozulub-pozulmadığına şəkk etsə, o öz şəkkinə etina etməməli və təharətli olduğunu qəbul etməlidir.**

**7- Əgər bir şəxs təvaf etdiyi əsnada təvafa başlayarkən dəstəmazlı olub-olmadığına şəkk etsə, təvafdan qabaq dəstəmazlı olduğunu**

bildiyi təqdirdə, dəstəmazlı olduğunu qəbul etməli və şəkkinə etina etməməlidir. Onun təvafı düzgündür. Amma əgər təvafdan qabaq dəstəmazlı olmayıbdırsa və ya dəstəmazlı olub-olmadığına şəkk edirsə, dəstəmaz alıb təvafı yenidən yerinə yetirməlidir.

8- Əgər əvvəlcədən onun boynunda vacib qüsl olubsa və təvaf etdiyi əsnada qüsl edib-etmədiyinə şəkk edərsə, dərhal Məscidul-həramdan xaric olmalıdır. Qüsl etdikdən sonra təvafı yenidən yerinə yetirməlidir.

## Üçüncü şərt: Bədənin və paltarın pak olması

**Məsələ 293.** Təvaf edərkən bədəndə və paltarda qan olmamalıdır. Ehtiyat-vacibə görə, bədən və paltarda digər "nəcasətlər" də olmamalı, bədən və paltar pak olmalıdır. Amma corab, cib dəsmalı, üzük və bu kimi əşyaların pak olması şərt deyildir.

**Məsələ 294.** Dirhəm ölçüsündən kiçik olan qan, həmçinin namazın pozulmasına səbəb olmayan kəsik və yara qanı təvafın da düzgünlüyünə xələl gətirmir.

**Məsələ 295.** Əgər təvaf etmək istəyən şəxsin bədəni napak olsa və o, bədənini paklamaq üçün təvafı yubada bilsə, təvafı yubadıb bədənini paklamalıdır. Əlbəttə, təvaf üçün vaxt daralmayan müddətədək təvafı yubada bilər.

**Məsələ 296.** Əgər təvaf edən şəxs bədəninin və ya paltarının pak olub-olmadığına şəkk edərsə, o, bu bədən və ya paltarla təvaf edə bilər və təvafı düzgündür. Amma əgər o, bədəninin və ya paltarının əvvəlcədən napak olduğunu bilirdisə, amma onu paklayıb-paklamadığına şəkk edirsə, bu bədən və ya paltarla təvaf edə bilməz.

**Məsələ 297.** Əgər bir şəxs təvaf etdikdən sonra bədəninin və ya paltarının napak olduğunu başa düşərsə, onun təvafı düzgündür.

**Məsələ 298.** Əgər təvaf etdiyi əsnada bir şəxsin bədəni və ya paltarı napak olarsa, məsələn, izdiham nəticəsində ayağı kəsilib qanayarsa, təvafı kəsmədən onu paklaya bilmədiyi təqdirdə, təvafı kəsməli və bədənini və ya paltarını paklamalı, sonra dərhal geri qayıtmalıdır. Muvalat pozulmadığı təqdirdə, təvafı kəsdiyi yerdən təvafı davam etdirməlidir və onun təvafı düzgündür.

**Məsələ 299.** Əgər bir şəxs təvaf edərkən bədənində və ya paltarında bir "nəcasət" görsə və onun təvafa başlamamışdan qabaq, yoxsa təvaf əsnasında yarandığını bilməsə, əvvəlki məsələdə qeyd edilən qaydada əməl etməlidir.

**Məsələ 300.** Əgər bir şəxs təvaf edərkən bədəninin və ya paltarının napak olduğunu başa düşsə və onun təvafa başlamamışdan qabaq napak olduğunu yəqin bilsə, əvvəlki məsələdə (məsələ 298) qeyd edilən qaydada əməl etməlidir.

**Məsələ 301.** Əgər bir şəxs bədəninin və ya paltarının napaklığını unutsa və təvaf əsnasında bunu xatırlasa, əvvəlki məsələdə (məsələ 298) qeyd edilən qaydada əməl etməlidir.

**Məsələ 302.** Əgər bir şəxs bədəninin və ya paltarının napaklığını unutsa və bu vəziyyətdə təvaf etsə, təvaf etdikdən sonra bunu xatırlasa, onun təvafı düzgündür. Amma əgər təvaf namazını həmin napak bədən və ya paltarla qılıbdırsa, bədənini və ya paltarını pakladıqdan sonra namazı yenidən qılmalıdır. Bədənini və ya paltarını pakladıqdan sonra təvafı yenidən yerinə yetirməsi də ehtiyat-müstəhəbə müvafiqdir.

## Dödüncü şərt: Sünnət

**Məsələ 303.** Sünnət edilmiş olmaq kişilərin təvafının düzgünlüyünün şərtidir. Bu şərt qadınlara aid deyildir. Deməli, sünnət olunmayan kişinin – istər həddi-büluğa çatmış olsun, istərsə də həddi-büluğa çatmamış olsun – təvafı düzgün deyildir.

## Beşinci şərt: Övrətin örtülü olması

**Məsələ 304.** Ehtiyat-vacibə görə, təvafda övrətin örtülü olması şərtdir.

**Məsələ 305.** Əgər qadın təvaf edərkən saçlarının bir hissəsini və ya bədəninin örtməli olduğu bir yerini örtməzsə, onun təvafı düzgündür, baxmayaraq ki, o, günah etmişdir.

## Altıncı şərt: Təvaf paltarının qəsbi olmaması

**Məsələ 306.** Təvafın düzgün olmasının şərtlərindən biri təvaf paltarının qəsbi olmamasıdır. Deməli, əgər bir şəxs qəsbi paltarla təvaf edərsə, ehtiyat-vacibə görə, onun təvafı düzgün deyildir.

## Yeddinci şərt: Muvalat

**Məsələ 307.** **Ehtiyat-vacibə görə, təvafın hissələri arasında "ürfi muvalat" mövcud olmalıdır. Yəni təvafın dövrələri arasında o qədər fasilə olmamalıdır ki, onu vahid bir təvaf surətindən xaric etsin. Əlbəttə, əgər təvafın yarısı (üç dövrə yarım) yerinə yetirildikdən sonra namaz qılmaq və ya bu kimi işlər üçün təvaf yarıda kəsilərsə, bunun maneəsi yoxdur.**

**Məsələ 308.** **Əgər bir şəxs təvafın yarısını yerinə yetirdikdən sonra vacib namazı qılmaqdan ötrü vacib təvafı kəsərsə, namazı qıldıqdan sonra təvafın davamını yerinə yetirməli və yeddi dövrəni tamamlamalıdır. Amma əgər təvafın yarısını yerinə yetirməmişdən qabaq belə edərsə, arada böyük fasilə yarandığı təqdirdə, ehtiyata görə, təvafı əvvəldən başlamalıdır. Yox əgər arada böyük fasilə yaranmazsa, ehtiyata riayət etməyin vacib olmaması uzaq ehtimal deyildir, baxmayaraq ki, hər halda ehtiyata riayət etmək bəyənilir. Bu məsələdə namazı camaatla, yoxsa fərdi qılmaq baxımından, habelə namaz vaxtının dar olub-olmaması baxımından fərq yoxdur.**

**Məsələ 309.** **Müstəhəb təvafı, hətta vacib təvafı kəsməyə icazə verilir. Amma vacib təvafı "ürfi muvalat" pozulacaq ölçüdə kəsməmək ehtiyata müvafiqdir.**

---

[1] Məsələ 21

## Təvafın vacib əməlləri

**Məsələ 310.** **Təvafın vacib əməlləri yeddi əməldir:**

**1- Təvafı Həcərul-əsvəddən[1] başlamaq;**

**2- Təvafın hər dövrəsini Həcərul-əsvəddə bitirmək;**

**3- Sol tərəfdən təvaf etmək;**

**4- Hicri-İsmailin[2] xaricindən təvaf etmək;**

**5- Kəbə evinin və şazrəvanın[3] xaricindən təvaf etmək;**

**6- Məşhur rəyə əsasən, təvafın Kəbə evi ilə İbrahim məqamı arasında olması;**

**7- Təvafın yeddi dövrə olması.**

**Məsələ 311.** **Təvafa Həcərul-əsvəddən başlamaq vacibdir, belə ki, təvaf Həcərul-əsvədin qarşısından başlanmalıdır. Amma Həcərul-əsvədin başlanğıcından təvafa başlamaq və bütün bədənin Həcərul-əsvədin bütün hissələrinin qarşısından keçməsi şərt deyildir. Əksinə, əgər ürfə görə "Həcərul-əsvədin başlanğıcından təvafa başlanıldı" deyilərsə, bu, kifayət edir. Deməli, Həcərul-əsvədin hər hansı bir hissəsinin qarşısından təvafa başlamaq olar. Amma hansı hissədən təvafa başlanılıbsa, həmin hissədə də təvafı başa çatdırmaq lazımdır. Məsələn, əgər Həcərul-əsvədin ortasından təvafa başlanılıbsa, həmin yerdə də təvafı bitirmək lazımdır. Əlbəttə, Həcərul-əsvədin qarşısından təvafa başlamaq niyyətilə ehtiyat ünvanında bir qədər irəlidən təvaf yoluna daxil olmağın maneəsi yoxdur.**

**Məsələ 312.** **Təvafın hər dövrəsinin sonunda Həcərul-əsvədin qarşısında dayanmaq və sonra növbəti dövrəyə başlamaq vacib deyildir. Əksinə, yeddi dövrəni dayanmadan yerinə yetirmək və yeddinci dövrəni təvafa başladığı nöqtədə başa çatdırmaq kifayət edir. Əlbəttə, təvafa başlanıldığı nöqtədə onun başa çatdırıldığına yəqin etmək üçün ehtiyat ünvanında bu miqdardan bir qədər artığını yerinə yetirmək olar.**

**Məsələ 313.** **Vasvasılıq hesab olunan dəqiqlikdən çəkinərək, təvaf edən bütün müsəlmanlar kimi Həcərul-əsvədin qarşısından təvafa başlamaq lazımdır və hər dövrənin sonunda Həcərul-əsvədin qarşısında dayanmaq vacib deyildir.**

**Məsələ 314.** **Sol tərəfdən təvaf etmək vacibdir, belə ki, təvaf zamanı Kəbə evi insanın sol tərəfində olmalıdır. Bu, hərəkətin istiqamətini təyin etmək deməkdir.**

**Məsələ 315.** **Kəbənin sol tərəfdə olması dəqiq elmi hesablama ilə deyil, ürf ilə ölçülür. Deməli, əgər Hicri-İsmaildən və Kəbənin dörd tinindən keçərkən bir qədər yayınma baş verərsə, təvaf düzgündür. Bu zaman Kəbənin sol tərəfdə olması üçün çiyinləri əyməyə ehtiyac yoxdur.**

**Məsələ 316.** **Əgər bir şəxs təvaf yolunun bir hissəsini adi hala zidd şəkildə qət edərsə, məsələn, təvaf əsnasında Kəbə evini öpməkdən ötrü üzünü Kəbəyə tərəf çevirərsə, yaxud izdiham nəticəsində istəmədən üzünü və ya arxasını Kəbəyə tərəf çevirərsə, yaxud da Kəbə onun sağ tərəfində qalarsa, bu şəxsin təvafı düzgün deyildir. Bu şəkildə qət etdiyi yolu yenidən getməlidir.**

**Məsələ 317.** **Hicri-İsmailin xaricindən təvaf etmək lazımdır, belə ki, təvaf zamanı Hicri-İsmail təvafın dairəsi daxilində yerləşməlidir.**

**Məsələ 318.** **Əgər bir şəxs Hicri-İsmailin daxilindən təvaf edərsə və ya Hicri-İsmailin divarının üstü ilə hərəkət edərsə, onun təvafı düzgün deyildir və təvafı yenidən yerinə yetirməlidir. Əgər təvafın dövrələrinin birində Hiri-İsmailin daxilindən keçərsə, yalnız həmin dövrə düzgün deyildir.**

**Məsələ 319.** **Əgər bir şəxs bilərəkdən Hicri-İsmailin daxilindən təvaf edərsə, təvafı bilərəkdən tərk edən şəxs kimidir. Əgər səhvən Hicri-İsmailin daxilindən təvaf edərsə, təvafı səhvən tərk edən şəxs kimidir. Bunların hökmü isə açıqlanacaqdır.**

**Məsələ 320.** **Kəbə evinin və şazrəvanın (Kəbə evinin divarlarının təməli) xaricindən təvaf etmək vacibdir.**

**Məsələ 321.** Təvaf zamanı Hicri-İsmailin divarı və Kəbə evinin üstünə əli qoymağın maneəsi yoxdur.

**Məsələ 322.** Məşhur rəyə əsasən, təvaf Kəbə evi ilə İbrahim məqamı arasında olmalı və digər tərəflərdə də bu fasilə qorunmalıdır. Amma əqvaya görə, bu fasilədə təvaf etmək şərt deyildir. Təvaf edən şəxs bu fasilədən xaricdə və Məscidul-həramın başqa yerlərində təvaf edə bilər, xüsusilə də böyük izdiham bu fasilədə təvaf etməyə mane olduğu hallarda Məscidul-həramın başqa yerlərində təvaf etmək olar. Əlbəttə, izdiham olmadığı zaman sözügedən fasilədə təvaf etmək daha yaxşıdır.

**Məsələ 323.** Məscidul-həramın döşəməsi ilə Kəbə evinin hündürlüyü arasındakı fəzada "Kəbənin ətrafına təvaf edir" adlanacaq bir şəkildə təvaf etməyin düzgün olması uzaq ehtimal deyildir, baxmayaraq ki, bu, ehtiyata ziddir.

**Məsələ 324.** Əgər bir şəxs hansısa bir səbəbə görə Məscidul-həramın həyətində təvaf edə bilməsə və ikinci mərtəbədə təvaf etmək məcburiyyətində qalsa, ehtiyat-vacibə görə, onun özü ikinci mərtəbədə təvaf etməli, həmçinin onun üçün Məscidul-həramın həyətində təvaf etməsi üçün naib tutmalıdır. Təvaf namazını da onun özü ikinci mərtəbədə qılmalı, naib şəxs də Məscidul-həramın həyətində qılmalıdır. Amma əgər onun özü Məscidul-həramın həyətində təvaf namazını qıla bilərsə, özü namazı qılmalıdır və bu namaz kifayət edir.

**Məsələ 325.** Yeddi dövrə təvaf etmək vacibdir.

## Təvafı tərk etməyin və təvafda şəkk etməyin hökmləri

**Məsələ 326.** Təvaf umrənin vacib əməllərindən biridir. Əgər fürsət başa çatanadək bilərəkdən tərk edilərsə, umrə düzgün deyildir və burada məsələnin hökmünü bilib-bilməməyin fərqi yoxdur.

**Məsələ 327.** Məkkəyə daxil olan kimi təvafı yerinə yetirmək vacib deyildir. Belə ki, Ərəfatda "ixtiyari vuquf"un vaxtı daralmayanadək təvafı yerinə yetirməyi yubatmaq olar. (Ərəfatda "ixtiyari vuquf"un vaxtı zil-hiccənin 9-cu gününün zöhr vaxtından şəri qürubadəkdir.) Yəni elə etmək lazımdır ki, təvafı və ondan sonrakı əməlləri yerinə yetirdikdən, həcc üçün ehram bağladıqdan sonra Ərəfatda öz vaxtında vuquf edə biləsən.

**Məsələ 328.** Əgər bir şəxsin umrəsi pozularsa – əvvəldə qeyd edilən bir sıra hallarda olduğu kimi, həmçinin bir qədər irəlidə açıqlanacaq bir sıra hallarda – ehtiyata görə, o, təməttu həccini ifrad həccinə çevirməli və bundan sonra mufrədə umrə yerinə yetirməlidir. Sonrakı ildə isə təməttu umrəsi və həccini – əgər əvvəlki ildə ona həcc vacib idisə – yerinə yetirməlidir.

**Məsələ 329.** Əgər bir şəxs təvafı yerinə yetirməyi unutsa və vaxt başa çatmamışdan qabaq bunu xatırlasa, o, təvafı yerinə yetirməli və təvaf namazını qılmalı, sonra "səy"i yerinə yetirməlidir.

**Məsələ 330.** Əgər bir şəxs təvafı yerinə yetirməyi unutsa və vaxt başa çatdıqdan sonra bunu xatırlasa, mümkün olan ilk fürsətdə təvafın qəzasını yerinə yetirməli və təvaf namazını qılmalıdır. Amma əgər bu şəxs öz vətəninə qayıtdıqdan sonra təvaf etmədiyini xatırlasa, əziyyət və çətinlik olmadan geri qayıda biləcəyi təqdirdə, geri qayıdıb təvafı yerinə yetirməlidir. Əks təqdirdə, naib tutmalıdır. Amma təvafın qəzasını yerinə yetirdikdən və təvaf namazını qıldıqdan sonra "səy"i yerinə yetirmək vacib deyildir.

**Məsələ 331.** Əgər bir şəxs bilərəkdən və ya unutqanlıq üzündən təvafı tərk edərsə və yerinə yetirməzsə, həmçinin əgər bir şəxs səhvən təvafın bir hissəsini yerinə yetirməzsə, onun özü və ya tutduğu naib təvafı yerinə yetirməyənədək, halal olması təvafın yerinə yetirilməsinə bağlı olan işlər ona halal deyildir.

**Məsələ 332.** Əgər bir şəxs xəstəliklə və ya qüvvəsizliklə və ya bu kimi başqa səbəblərlə əlaqədar olaraq, hətta başqalarının köməkliyi ilə belə, vaxt başa çatmamışdan qabaq təvaf edə bilməzsə, imkan olduğu təqdirdə, onu daşıyaraq təvaf etdirmək lazımdır. Bu iş mümkün olmadığı təqdirdə isə naib tutmaq lazımdır.

**Məsələ 333.** Əgər bir şəxs təvaf etdikdən və geri qayıtdıqdan sonra, yəni təvaf məkanından xaric olduqdan sonra təvafın dövrələrinin sayı barəsində şəkk edərsə, o öz şəkkinə etina etməməlidir, əksinə, təvafının düzgün olduğunu qəbul etməlidir. Amma əgər təvaf etdiyi əsnada yerinə yetirdiyi dövrələrin sayında şəkk edərsə və yeddinci dövrədə olduğunu, yoxsa bundan daha az dövrə etdiyini bilməzsə, onun təvafı düzgün deyildir və təvafı yenidən yerinə yetirməlidir.

---

[1] Həcərul-əsvəd – "Qara daş" deməkdir.

[2] **Hicri-İsmail – Kəbə evi ilə yarım dairə şəklində olan divar arasında yerləşən sahədir və eni təxminən on metrdir.**

[3] **Şazrəvan – “Kəbə evinin divarlarının təməli” deməkdir.**

## Təvaf namazı

**Məsələ 334.** Umrənin üçüncü vacib əməli təvaf namazıdır.

**Məsələ 335.** Təvaf etdikdən sonra iki rəkət təvaf namazı qılmaq vacibdir. Təvaf namazını həm ucadan, həm də astadan qılmaq olar. Təvafda olduğu kimi, təvaf namazının niyyətində də hansı təvafın namazı olduğu vurğulanmalıdır. Həmçinin namazı ixlas və qəsdi-qürbət ilə qılmaq lazımdır.

**Məsələ 336.** Təvaf ilə təvaf namazı arasında fasilə yaranmamalıdır. Fasilənin yaranıb-yaranmadığı isə ürf əsasında müəyyən edilir.

**Məsələ 337.** Təvaf namazı sübh namazı kimidir. Təvaf namazında "Həmd"dən sonra Quranın istənilən surəsini (vacib səcdəsi olan dörd surə istisna olmaqla) oxumaq olar. Amma birinci rəkətdə "Həmd"dən sonra "İxlas" surəsini, ikinci rəkətdə isə "Kafirun" surəsini oxumaq müstəhəbdir.

**Məsələ 338.** Təvaf namazını İbrahim məqamının arxasında və başqalarına maneəçilik yaranmadığı təqdirdə, İbrahim məqamına yaxın bir yerdə qılmaq vacibdir. Əgər İbrahim məqamına yaxın bir yerdə qılmaq mümkün olmazsa, Məscidul-həramın daxilində olmaq şərtilə, İbrahim məqamının arxasında uzaq bir məsafədə də qılmaq olar.

**Məsələ 339.** Əgər bir şəxs təvaf namazını bilərəkdən qılmasa və onu qılmağın vaxtı keçsə, bu şəxsin həcci düzgün deyildir. Amma əgər səhvən qılmasa, Məkkədən xaric olmamışdan qabaq bunu xatırladığı və Məscidul-hərama geri qayıtmaq onun üçün çətin və əziyyətli olmadığı təqdirdə, (təvaf namazını qılmaq üçün) Məscidul-hərama geri qayıtmalıdır. Lakin əgər Məkkədən xaric olduqdan sonra təvaf namazını qılmadığını xatırlayarsa, bunu harada xatırlayıbdırsa, həmin yerdə də təvaf namazını qılmalıdır.

**Məsələ 340.** Əvvəlki məsələni nəzərə alaraq, hökmü bilməyən şəxs – istər "qasir cahil" olsun, istərsə də "muqəssir cahil" olsun – hökmü unudan şəxs hökmündədir.

**Məsələ 341.** Əgər bir şəxs Səfa və Mərvə arasında səy edərkən təvaf namazını qılmadığını xatırlayarsa, səyi kəsib təvaf namazını özünəməxsus yerində qılmalıdır. Daha sonra geri qayıdıb, səyi kəsdiyi yerdən davam etdirməlidir.

**Məsələ 342.** Əgər kişi və qadın yanaşı dayanıb təvaf namazını qılarlarsa, yaxud qadın kişidən qabaqda dayanıb təvaf namazını qılarsa, onların namazı düzgündür.

**Məsələ 343.** Təvaf namazını camaatla qılmağın icazəli olduğu məlum deyildir.

**Məsələ 344.** Şəri vəzifə daşıyan hər bir şəxs, xüsusilə də həcc yerinə yetirmək istəyən şəxs öz şəri vəzifəsini düzgün yerinə yetirməkdən ötrü namazı düzgün qılmağı öyrənməlidir.

## DÖRDÜNCÜ FƏSİL: SƏFA VƏ MƏRVƏ ARASINDA SƏY ETMƏK

**Məsələ 345.** Umrənin dördüncü vacib əməli "səy"dir.

**Məsələ 346.** Təvaf etdikdən və iki rəkət təvaf namazı qıldıqdan sonra Səfa və Mərvə arasında səy etmək vacibdir. Səy etmək – bu iki dağ arasında yol getməkdən ibarətdir. Belə ki, birinci gediş Səfa dağından başlanır və Mərvə dağında başa çatır. İkinci gediş Mərvə dağından başlanır və Səfa dağında başa çatır. Bu qaydada yeddi gediş yerinə yetirilir və yeddinci gediş Mərvə dağında başa çatır. Deməli, "səy"i Mərvə dağından başlayıb Səfa dağında başa çatdırmaq düzgün deyildir.

**Məsələ 347.** Səyi yerinə yetirmək üçün niyyət etmək lazımdır. Ehramın niyyətində olduğu kimi, səyin niyyətində də hansı əməlin yerinə yetirildiyi müəyyən edilməlidir. Həmçinin səy qəsdi-qürbət və ixlasla yerinə yetirilməlidir.

**Məsələ 348.** Səyi yerinə yetirmək üçün dəstəmazlı olmaq, cənabətdən və heyzdən pak olmaq şərt deyildir.

**Məsələ 349.** Səyi təvafı etdikdən və təvaf namazını qıldıqdan sonra yerinə yetirmək lazımdır. Səyi təvafdan qabaq yerinə yetirmək düzgün deyildir.

**Məsələ 350.** Təvafı etdikdən və təvaf namazını qıldıqdan sonra səyi gecikdirib, sabahısı gün yerinə yetirmək olmaz. Amma təvaf edilən günün gecəsinədək səyi yerinə yetirməyi gecikdirməyin maneəsi yoxdur.

**Məsələ 351.** Hər gedişdə Səfa və Mərvə arasındakı yol bütünlüklə qət olunmalıdır. Amma Səfa və Mərvə dağlarının hündürlüyünə qalxmağa ehtiyac yoxdur.

**Məsələ 352.** Səyi yerinə yetirərkən Mərvə dağına tərəf gedən zaman üzü Mərvə dağına tərəf, Səfa dağına tərəf gedən zaman isə üzü Səfa dağına tərəf olmaq lazımdır. Əgər bir şəxs Səfa və ya Mərvə dağlarına tərəf gedərkən arxası bu dağlara tərəf olsa, başqa sözlə, arxa-arxaya hərəkət etsə, onun səyi düzgün deyildir. Amma üzü sağ və ya sol tərəflərə, yaxud arxa tərəfə döndərməyin maneəsi yoxdur.

**Məsələ 353.** Səy özünəxas olan adi yolda yerinə yetirilməlidir.

**Məsələ 354.** Səy yolunun ikinci mərtəbəsində səyi yerinə yetirmək düzgün deyildir. Amma əgər ikinci mərtəbənin iki dağ arasında yerləşdiyi və bu dağlardan hündürdə olmadığı aydın olarsa, bu halda ikinci mərtəbədə səyi yerinə yetirmək olar. Əgər bir şəxs səyin özünəxas adi yolunda səy edə bilmirsə, bu şəxs özünə naib tutmalıdır. Onun ikinci mərtəbədə yerinə yetirdiyi səy düzgün deyildir və kifayət etmir.

**Məsələ 355.** Səyi yerinə yetirərkən istirahət etmək məqsədilə Səfa və Mərvə arasında əyləşmək və uzanmağa, hətta insanın bir üzrü olmasa belə, icazə verilir.

**Məsələ 356.** Hər bir şəxs imkan daxilində səyi şəxsən özü yerinə yetirməlidir. Səyi piyada və ya bir vasitəyə minərək yerinə yetirməyin maneəsi yoxdur. Amma piyada yol getmək daha üstündür. Əgər bir şəxs yol getməkdə üzrlü olarsa, başqalarından kömək istəməlidir. Başqaları da onu kürəyə mindirib və ya başqa bir şəkildə səy etdirməlidirlər. Əgər bu şəxs bunu da etməkdə üzrlü olarsa, özünə naib tutmalıdır.

## Səyin müxtəlif məsələləri

**Məsələ 357.** **Səy də təvaf kimi, umrənin vacib əməlidir. Səyi bilərəkdən və ya səhvən tərk etməyin hökmü təvafı tərk etməyin hökmü ilə eynidir və bir qədər əvvəldə onun hökmü açıqlandı.**

**Məsələ 358.** **Əgər bir şəxs səyi yerinə yetirməyi unudub, umrənin ehramından xaric olarsa və öz həyat yoldaşı ilə cinsi əlaqədə olarsa, səyin qəzasını yerinə yetirməli, bundan əlavə, ehtiyat-vacibə görə, bir inək kəffarə verməlidir.**

**Məsələ 359.** **Əgər bir şəxs səyi yerinə yetirərkən unutqanlıq üzündən bir və ya daha çox gediş artıq yerinə yetirərsə, səyi düzgündür və ona kəffarə vacib olmur. Burada məsələni bilməyən şəxs məsələni unudan şəxs hökmündədir.**

**Məsələ 360.** **Əgər bir şəxs yeddi gediş artıq yerinə yetirsə, yəni hər bir gediş-qayıdışın “bir gediş” sayıldığını düşünsə, onun səyi düzgündür və səyi yenidən yerinə yetirməsinə ehtiyac yoxdur. Həmçinin əgər səyi yerinə yetirərkən yeddi gedişdən artıq yerinə yetirdiyini xatırlasa, onun səyi düzgündür, amma bunu xatırladığı an artıq olan miqdarı davam etdirməməlidir.**

**Məsələ 361.** **Əgər bir şəxs səhvən səyi naqis yerinə yetirsə, bunu xatırladığı zaman səyi tamamlamalıdır. Əgər vətənə qayıtdıqdan sonra bunu xatırlasa, səyi tamamlamaq üçün Məkkəyə geri qayıtmalıdır. Amma əgər bu iş onun üçün olduqca çətin və əziyyətli olsa, naib tuta bilər.**

## BEŞİNCİ FƏSİL: TƏQSİR

**Məsələ 362.** Umrənin beşinci vacib əməli təqsirdir.

**Məsələ 363.** Səyi yerinə yetirdikdən sonra "təqsir etmək" vacibdir. Yəni saçların, saqqalın və ya bığın tükündən bir qədər qısaltmaq, yaxud da əl və ya ayaq dırnaqlarından bir qədər qısaltmaq lazımdır.

**Məsələ 364.** Umrənin başqa əməlləri kimi, təqsir etmək də ibadətdir və bunun üçün ehramın niyyətində qeyd edildiyi qaydada niyyət etmək lazımdır.

**Məsələ 365.** Təməttu umrəsinin ehramından xaric olmaq üçün "həlq etmək" (yəni başı qırxdırmaq) kifayət etmir. Təməttu umrəsinin ehramından xaric olmaq üçün hökmən təqsir etmək lazımdır. Əgər bir şəxs təqsir etməmişdən qabaq bilərəkdən və məsələni bildiyi halda başını qırxdırarsa, ehramdan xaric olmaq üçün bu əməlin kifayət etməməsindən əlavə, bir qoyun da kəffarə verməlidir. Amma mufrədə umrə üçün ehram bağlayan şəxs təqsir və həlq arasında seçim edib, onlardan birini yerinə yetirə bilər.

**Məsələ 366.** Təməttu umrəsinin ehramından xaric olmaq üçün tükü qoparmaq kifayət etmir. Əksinə, deyilən qaydada təqsir etmək lazımdır. Əgər bir şəxs təqsir etmək əvəzinə bilərəkdən və məsələni bildiyi halda öz tükünü qopararsa, ehramdan xaric olmaq üçün bu əməlin kifayət etməməsindən əlavə, tükü qoparmağın kəffarəsini də verməlidir.

**Məsələ 367.** Əgər bir şəxs məsələni bilmədiyinə görə təqsir etmək əvəzinə öz tükünü qoparsa, daha sonra həcci yerinə yetirsə, onun umrəsi düzgün deyildir. Yerinə yetirdiyi həcc isə "ifrad həcci" olacaqdır. Bu halda əgər onun boynunda vacib həcc var idisə, ehtiyat-vacibə görə, həcc əməllərini yerinə yetirdikdən sonra mufrədə umrə yerinə yetirməli və sonrakı ildə təməttu umrəsi və həccini yenidən yerinə yetirməlidir.

Məsələni bilmədiyinə görə təqsir əvəzinə həlq edən, sonra həcci yerinə yetirən şəxsin hökmü də belədir.

**Məsələ 368.** Səyi yerinə yetirdikdən sonra dərhal təqsir etmək vacib deyildir.

**Məsələ 369.** Əgər bir şəxs bilərəkdən və ya məsələni bilmədiyinə görə təqsir etməsə və təqsir etmədən həcc üçün ehram bağlasa, əqvaya görə, onun umrəsi düzgün deyildir və onun həcci "ifrad həcci"nə çevrilir. Ehtiyat-vacibə görə, həcci yerinə yetirdikdən sonra "mufrədə umrə" yerinə yetirməlidir. Əgər onun həcci vacib həcc idisə, sonrakı ildə umrə və həcci yerinə yetirməlidir.

**Məsələ 370.** Əgər bir şəxs səhvən təqsir etməsə və həcc üçün ehram bağlasa, onun ehramı düzgündür, həmçinin umrəsi və həcci də düzgündür. Ona kəffarə vacib olmur, amma bir qoyun kəffarə verməsi müstəhəbdir. Hətta kəffarəni tərk etməməsi ehtiyata müvafiqdir.

**Məsələ 371.** Təqsir etdikdən və təməttu umrəsinin ehramından xaric olduqdan sonra ehramda olan şəxsə haram olan bütün işlər, hətta qadın da insana halal olur.

**Məsələ 372.** Təməttu umrəsində "nisa təvafı" vacib deyildir, baxmayaraq ki, təqsirdən qabaq savab ümidilə nisa təvafını yerinə yetirmək və təvaf namazını qılmaq ehtiyata müvafiqdir. Amma əgər bir şəxs mufrədə umrə niyyətilə ehram bağlayıbsa, təqsir və ya həlq etdikdən sonra qadın o halda ona halal olur ki, nisa təvafını yerinə yetirsin və təvaf namazını qılsın. Bu təvafın və təvaf namazının qaydası bir qədər əvvəldə açıqlanan umrə təvafı və təvaf namazı kimidir.

**Məsələ 373.** Zahirə əsasən, hər mufrədə umrə və hər həcc üçün ayrıca olaraq bir nisa təvafı yerinə yetirmək lazımdır. Məsələn, əgər bir şəxs iki mufrədə umrə və ya bir həcc və bir mufrədə umrə yerinə yetirirsə, qadının ona halal olması üçün bir nisa təvafının kifayət etməsi uzaq ehtimal olmasa da, amma əməllərin başa çatması üçün hər iki umrə və ya bir həcc və bir umrə üçün ayrıca olaraq bir nisa təvafı yerinə yetirməlidir.

## BİRİNCİ FƏSİL: EHRAM

**Məsələ 374.** **Həccin vacib əməllərindən birincisi ehramdır. Həccin ehramı qayda, şərtlər, haramlar, hökmlər və kəffarələr baxımından eynilə umrə ehramı kimidir və bu ikisinin yalnız niyyəti fərqlidir. Belə ki, burada həccin əməllərini yerinə yetirmək niyyətilə ehram bağlamaq lazımdır. Umrənin ehramında qeyd edilən bütün məsələlər həccin ehramında da mövcuddur. Ehram niyyət ilə başlanır. İnsan niyyət etdiyi və "ləbbeyk" dediyi zaman ehram bağlamış olur. Əlbəttə, həccin ehramının özünəxas hökmləri də vardır ki, qarşıdakı məsələlərdə açıqlanacaqdır.**

**Məsələ 375.** **Təməttu həccinin ehramının miqatı Məkkə şəhəridir. Təməttu həcci üçün Məscidul-həramda ehram bağlamaq daha yaxşıdır. Amma Məkkənin istənilən yerində, hətta şəhərin yeni salınan məntəqələrində ehram bağlamaq düzgündür. Şəhərin qədim məntəqələrində ehram bağlamaq isə ehtiyata müvafiqdir. Əgər hansısa bir məkanın Məkkə şəhərinin ərazisi olub-olmadığına şəkk edilərsə, bu məkanda ehram bağlamaq düzgün deyildir.**

**Məsələ 376.** **Elə bir vaxtda ehram bağlamaq lazımdır ki, Ərəfatda "ixtiyari-vuquf"u yerinə yetirmək mümkün olsun. Ehram bağlamaq üçün ən yaxşı vaxt "tərviyə günü" (zil-hiccənin səkkizinci günü) şəri zöhr vaxtıdır. Amma bu vaxtdan da qabaq ehram bağlamaq olar. Xüsusilə də izdihama görə narahatçılıq keçirən yaşlı və xəstə şəxslər, həmçinin əvvəldə qeyd olunduğu kimi[1], umrəni yerinə yetirdikdən sonra Məkkədən xaric olmaq məcburiyyətində olan şəxslər sözügedən vaxtdan qabaq ehram bağlaya bilərlər.**

**Məsələ 377.** **Əgər bir şəxs ehram bağlamağı unudub Minaya və Ərəfata getsə, Məkkəyə qayıdıb orada ehram bağlamalıdır. Əgər vaxt dar olduğuna və ya başqa bir üzrə görə belə edə bilməsə, ehram bağlamadığını xatırladığı məkanda ehram bağlamalıdır. Onun həcci düzgündür. Məsələni bilməyən şəxsin hökmü də belədir.**

**Məsələ 378.** **Əgər bir şəxs ehram bağlamağı unutsa və həccin əməllərini yerinə yetirsə, onun həcci düzgündür. Məsələni bilməyən şəxsin hökmü də belədir. Ehtiyat-müstəhəbə görə, bu şəxs məsələni bilmədiyinə və ya unutduğuna görə sonrakı ildə həcci yenidən yerinə yetirsin.**

**Məsələ 379.** **Əgər bir şəxs bilərəkdən ehramı tərk etsə və ehram bağlamasa, Ərəfat və Məş`ərdə vuqufu əldən verdiyi təqdirdə, onun həcci düzgün deyildir.**

**Məsələ 380.** **Ərəfat və Məş`ərdə vuquf etməmişdən qabaq Məkkənin əməllərini yerinə yetirmək icazəsinə malik olan şəxslər bu əməlləri ehram halında yerinə yetirməlidirlər. Əgər ehramsız yerinə yetirsələr, ehram bağlayıb yenidən yerinə yetirməlidirlər.**

[1] Məsələ 121

## İKİNCİ FƏSİL: ƏRƏFATDA VUQUF ETMƏK

**Məsələ 381.** **Həccin vacib əməllərindən ikincisi Ərəfatda vuquf etməkdir. Ərəfat Məkkə yaxınlığında yerləşən məşhur məkandır. Ərəfatın sərhədləri Urənə, Səviyyə və Nəmirədən Zi-məcazadək, həmçinin iki "mə`zəm"dən[1] "vuquf məkanı"nın axırınadəkdir. Adı çəkilən məkanlar Ərəfatın xaricində qalır.**

**Məsələ 382.** **Ərəfatda vuquf etmək ibadətdir və buna görə də niyyət etmək lazımdır. Niyyətin şərtləri ehramın niyyətində açıqlandı.**

**Məsələ 383.** **"Vuquf etmək" dedikdə, Ərəfatda olmaq nəzərdə tutulur, istər minikdə olasan, istərsə də piyada olasan, yaxud istər uzanasan, istərsə də ayaq üstə olasan.**

**Məsələ 384.** **Ehtiyata görə, zil-hiccənin doqquzuncu günü şəri zöhrün başlandığı andan etibarən şəri qürubadək (yəni məğrib namazının vaxtınadək) Ərəfatda olmaq lazımdır. Baxmayaraq ki, müqəddimə xarakterli işlər də daxil olmaqla, zöhr və əsr namazlarını (bir-birinin ardınca) qılmaq ölçüsündə şəri zöhrdən vaxt keçənədək vuqufa yubanmağın icazəli olması uzaq ehtimal deyildir.**

**Məsələ 385.** **Yuxarıda qeyd edilən vuquf, Ərəfə günü şəri zöhrdən məğrib namazının vaxtınadək vacibdir. Amma vuqufun "rükn" hesab olunan miqdarı "vuquf" adlanan – hətta bir-iki dəqiqə olsa belə – miqdardır. Beləliklə, əgər bir şəxs bilərəkdən və ya qeyri-ixtiyari olaraq bu vuqufu yerinə yetirməsə, onun həcci düzgün deyildir.**

**Məsələ 386.** **Şəri qürubdan qabaq Ərəfatı tərk etmək haramdır. Əgər bir şəxs bilərəkdən qürubdan qabaq Ərəfatı tərk etsə və ya Ərəfatın ərazisindən kənara çıxıb geri qayıtmasa, günah etmişdir və bir dəvə kəffarə verməlidir, amma onun həcci düzgündür. Əgər onun qurban kəsməyə maddi imkanı yoxdursa, on səkkiz gün oruc tutmalıdır. Ehtiyata görə, kəffarə qurbanlığını Qurban bayramı günü Minada kəsməlidir, baxmayaraq ki, kəffarə qurbanlığını Minada kəsməyin vacib olmaması uzaq ehtimal deyildir. Əgər bu şəxs şəri qürubdan qabaq Ərəfata geri qayıdarsa, ona kəffarə vacib olmur.**

**Məsələ 387.** **Əgər bir şəxs unutqanlıq üzündən və ya məsələni bilmədiyinə görə qürubdan qabaq Ərəfatı tərk edərsə, vuqufun vaxtı başa çatmamışdan qabaq bunu xatırladığı təqdirdə, Ərəfata geri qayıtmalıdır. Əgər geri qayıtmazsa, günah etmişdir, amma ona kəffarə vacib olmur. Vuqufun vaxtı başa çatdıqdan sonra bunu xatırladığı təqdirdə isə ona heç bir əməl vacib olmur.**

[1] Ərəfat və Məş`ərul-həram arasında yerləşən keçiddir və Ərəfatın sərhədidir, amma Ərəfatın ərazisinə daxil deyildir.

## ÜÇÜNCÜ FƏSİL: MƏŞ`ƏRUL-HƏRAMDA VUQUF ETMƏK

**Məsələ 388.** **Həccin üçüncü vacib əməli Məş`ərul-həramda (Muzdələfədə) vuquf etməkdir. Yəni həcc əməllərini yerinə yetirən şəxs Ərəfatdan çıxıb Məş`ərul-hərama tərəf köç etməli və bu tanınmış məkanda qalmalıdır.**

**Məsələ 389.** **Məş`ərul-həramda vuquf etmək ibadətdir və buna görə də niyyət etmək lazımdır. Niyyətin şərtləri ehramın niyyətində açıqlandı.**

**Məsələ 390.** **Məş`ərul-həramda vacib vuqufun vaxtı Qurban bayramı günü fəcr doğandan (sübh namazının vaxtı daxil olandan) Günəş doğanadəkdir. Ehtiyata görə, Ərəfatdan köç edib Məş`ərul-hərama daxil olduqda vuquf etmək üçün niyyət etmək lazımdır.**

**Məsələ 391.** **Fəcr doğandan Günəş doğanadək Məş`ərul-həramda qalmaq vacibdir. Amma "rükn" hesab olunan miqdar "vuquf" adlanan – hətta bir-iki dəqiqə olsa belə – miqdardır. Deməli, əgər bir şəxs yalnız bu miqdarda vuquf etsə və qalan miqdarı bilərəkdən orada qalmasa, onun həcci düzgündür, baxmayaraq ki, haram iş etmişdir. Amma əgər bir şəxs ixtiyari şəkildə bu miqdarda belə Məş`ərul-həramda qalmasa, onun həcci düzgün deyildir.**

**Məsələ 392.** **İzdihamdan təlaşlanmaq və ya xəstəlik kimi bir üzrü olan qadınlar, qüvvəsiz insanlar, uşaqlar və yaşlılar, həmçinin bu şəxslərə yardım və xidmət göstərən şəxslər Qurban bayramının gecəsi Məş`ərul-həramda bir qədər qaldıqdan sonra Minaya köç edə bilərlər.**

**Qeyd:** **İki vuqufdan biri (Ərəfatda və Məş`ərul-həramda vuquf etməkdən biri) və ya onların hər ikisi ixtiyari şəkildə, yoxsa məcburiyyət üzündən, yaxud da bilərəkdən, yoxsa səhvən, yoxsa unutqanlıq üzündən tərk edildikdə, həccin düzgün olub-olmaması baxımından hökmləri fərqlidir. Bu məsələlər daha geniş fiqh kitablarında açıqlanıbdır.**

## DÖRDÜNCÜ FƏSİL: RƏMYİ-CƏMƏRƏ

**Məsələ 393.** Həccin dördüncü vacib əməli və Minanın əməllərindən birincisi "rəmy"dir, yəni daş atmaqdır. Zil-hiccənin 10-cu günü "cəmərəyi-əqəbə"yə (böyük sütuna) daş atılmalıdır.

**Məsələ 394.** Rəmyin şərtləri aşağıdakılardan ibarətdir:

1- Niyyət etmək: Niyyətin şərtləri ehramın niyyətində açıqlandı;

2- Daşların "xırda daş" olması;

3- Günəş doğandan qürub edənədək rəmy etmək (qadir olan şəxs üçün);

4- Daşların sütuna dəyməsi: Deməli, əgər daş sütuna dəyməsə və ya dəydiyi güman olunsa, kifayət etmir və başqa bir daş onun əvəzinə atılmalıdır. Daşların sütuna dəymədən sütunun ətrafındakı dairəyə düşməsi kifayət etmir;

5- Yeddi daş atılmalıdır;

6- Daşlar biri-digərinin ardınca atılmalıdır: Deməli, əgər daşların hamısı birdəfəyə atılsa – istər onların hamısı sütuna dəysin, istərsə də bəzisi dəyməsin – bu, yalnız bir dəfə hesab olunur.

**Məsələ 395.** Son vaxtlar Məkkə və Məş`ər istiqamətlərindən sütunun eninin artırıldığını nəzərə alaraq (belə görünür ki, qədim sütun hazırkı sütunun ortasında yerləşir), əgər kimsə qədim sütunun yerini təyin edə və ora daş ata bilirsə, o yerə daş atmalıdır. Amma əgər qədim sütunun yerini təyin etmək və ya ora daş atmaq olduqca çətindirsə, hazırkı sütunun hansı yerinə daş atılsa, kifayət edir.

**Məsələ 396.** Zahirə görə, yuxarı mərtəbədə (sütunlar körpüsündə) dayanıb rəmyi yerinə yetirmək olar, baxmayaraq ki, əvvəlki yerində rəmyi yerinə yetirmək ehtiyata müvafiqdir.

**Məsələ 397.** Rəmy üçün seçilən daşlar aşağıdakı xüsusiyyətlərə malik olmalıdır:

1- Hərəmin ərazisindən götürülməlidir: Deməli, əgər hərəmin ərazisi xaricindən götürülərsə, kifayət etmir;

2- İstifadə edilməmiş olmalıdır: Yəni əvvəllər, hətta keçmiş illərdə belə, kimsə bu daş ilə düzgün rəmy yerinə yetirməmiş olmalıdır;

3- Mübah olmalıdır: Deməli, qəsbi daş ilə və ya başqa bir şəxsin yığdığı daş ilə onun icazəsi olmadan rəmy yerinə yetirmək düzgün deyildir. Amma rəmy üçün istifadə edilən daşların pak olması şərt deyildir.

**Məsələ 398.** Qurban bayramı gecəsi Məş`ərdən Minaya getmələrinə icazə verilən qadınlar və qüvvəsiz insanlar Qurban bayramı günü sütuna daş atmağa aciz qalacaqları təqdirdə, rəmyi gecə vaxtı yerinə yetirə bilərlər. Ümumiyyətlə, bütün qadınlar rəmyi gecə vaxtı yerinə yetirə bilərlər. Amma bu şərtlə ki, rəmyi özlərinin həcci üçün – hətta niyabi-həcc olsa belə – yerinə yetirməlidirlər. Lakin əgər qadın başqa bir şəxsin əvəzinə rəmy etmək istəsə, ehtiyat-vacibə görə, gecə vaxtı rəmy etməsi düzgün deyildir, baxmayaraq ki, gündüz vaxtı rəmy etməyə acizdir. Amma qadınlara və qüvvəsiz insanlara yol yoldaşlığı edən, xidmət göstərən şəxslərə gəlincə, əgər onlar da gündüz vaxtı rəmy etməkdə üzrlüdürlərsə, gecə vaxtı "cəmərəyi-əqəbə"ni rəmy edə bilərlər. Əks halda, gündüz vaxtı rəmyi yerinə yetirməlidirlər.

**Məsələ 399.** Qurban bayramı gecəsi rəmy etmələrinə icazə verilən qadınlar istisna olmaqla, Qurban bayramı günü rəmyi yerinə yetirməyə aciz olan şəxslər bayram gecəsi və ya bayramdan sonrakı gecə rəmyi yerinə yetirə bilərlər. Həmçinin zil-hiccənin on birinci və on ikinci günü gündüz vaxtı rəmyi yerinə yetirməkdə üzrlü olan şəxslər əvvəlki və ya sonrakı gecə rəmyi yerinə yetirə bilərlər.

## BEŞİNCİ FƏSİL: QURBAN KƏSMƏK

**Məsələ 400.** **Həccin beşinci vacib əməli və Minanın əməllərindən ikincisi qurban kəsməkdir.**

**Məsələ 401.** **Təməttu həcci yerinə yetirən şəxs bu üç növ dördayaqlıdan birini – dəvə, inək və qoyun-keçidən birini qurban kəsməlidir. Qurbanlıq heyvanın erkək və ya dişi olmasının fərqi yoxdur. Qurbanlıq heyvan dəvə olsa, daha yaxşıdır. Amma qeyd edilən bu dördayaqlılardan qeyri bir heyvanı qurban kəsmək kifayət etmir.**

**Məsələ 402.** **Qurban kəsmək ibadətdir və bunun üçün niyyət etmək lazımdır. Niyyətin şərtləri ehramın niyyətində açıqlandı.**

**Məsələ 403.** **Qurbanlıq heyvan aşağıdakı xüsusiyyətlərə malik olmalıdır:**

**1- Ehtiyat-vacibə görə, heyvanın yaşı onun növünə görə belə olmalıdır: dəvə altı yaşa keçməlidir, inək və keçi üç yaşa keçməlidir, qoyun iki yaşa keçməlidir. Bu yaş həddi qurbanlıq heyvanın ən aşağı yaş həddidir. Amma yuxarı yaş həddi üçün müəyyən bir hədd qoyulmayıbdır. Beləliklə, əgər qurbanlıq heyvanın yaşı ən aşağı yaş həddindən yuxarı olarsa, kifayət edir, amma bu şərtlə ki, heyvan çox qoca olmamalıdır;**

**2- Qurbanlıq heyvan sağlam olmalıdır;**

**3- Arıq olmamalıdır;**

**4- Qurbanlıq heyvanın bütün əzaları öz üstündə olmalıdır. Deməli, naqis heyvanı, məsələn, axtalanmış və ya xayası çıxarılmış heyvanı qurban kəsmək kifayət etmir. Amma əgər heyvanın xayası əzilsə və axtalanmasa, onu qurban kəsmək kifayət edir. Həmçinin quyruğu kəsilmiş, kor, çolaq, qulağı kəsilmiş, buynuzunun daxili hissəsi sınmış və ya sadalanan bu nöqsanlardan biri ilə dünyaya gələn heyvanı qurban kəsmək kifayət etmir. Beləliklə, əgər bir heyvan öz növünün digər nümayəndələrində mövcud olan hansısa bir əzaya sahib olmasa və bu əzanın olmaması naqislik sayılsa, bu heyvanı qurban kəsmək kifayət etmir. Amma əgər heyvanın buynuzunun xarici hissəsi sınmış olsa, yaxud qulağı yarılmış və ya deşilmiş olsa, onu qurban kəsməyin maneəsi yoxdur.**

**Məsələ 404.** **Əgər bir heyvanın sağlam olduğunu bilib qurban kəssələr, amma sonradan onun xəstə və ya naqis olduğu məlum olsa, maddi imkan olduğu təqdirdə, başqa bir heyvan qurban kəsilməlidir.**

**Məsələ 405.** **Ehtiyat-vacibə görə, cəmərеyi-əqəbəni rəmy etdikdən sonra qurban kəsmək lazımdır.**

**Məsələ 406.** **Ehtiyata görə, həcc əməllərini yerinə yetirən şəxs qurban kəsməyi ixtiyari şəkildə Qurban bayramından sonrakı günə saxlamamalıdır. Əgər bir şəxs bilərəkdən, ya səhvən, ya məlumatsızlıq üzündən və ya başqa bir üzr və səbəblə əlaqədar qurban kəsməyi yubatsa, ehtiyat-vacibə görə, imkan daxilində "təşriq günləri"ndə, imkan olmadığı təqdirdə isə zil-hiccə ayının digər günlərində qurbanı kəsməlidir. Zahirə əsasən, qurbanı gündüz, yoxsa gecə vaxtı kəsməsinin fərqi yoxdur.**

**Məsələ 407.** **Qurbanın kəsildiyi məkan Minadır. Əgər Minada qurban kəsilməsinin qarşısı alınsa, hal-hazırda təyin edilən məkanda qurban kəsməyin maneəsi yoxdur.**

**Məsələ 408.** **Ehtiyat-vacibə görə, qurban kəsmək üçün naib olan şəxs on iki imam şiəsi olmalıdır. Amma əgər niyyəti insanın özü etsə və yalnız heyvanı kəsmək üçün naib tutsa, bu halda heyvanı kəsən şəxsin şiə olmasının şərt olmaması uzaq ehtimal deyildir.**

**Məsələ 409.** **Qurbanı həcc əməllərini yerinə yetirən şəxsin özü və ya onun vəkalət verdiyi şəxs kəsməlidir. Amma əgər başqa bir şəxs vəkalət almadan onun üçün qurban kəssə, bu qurbanlığın düzgünlüyü məhəlli-işkaldır. Ehtiyata görə, bu qurbanlıqla kifayətlənmək olmaz.**

**Məsələ 410.** **Qurban kəsmək üçün istifadə edilən alət dəmirdən olmalıdır. Paslanma əleyhinə maddə ilə qarışığı olan polad (stall) da dəmir hökmündədir. Amma əgər bir alətin dəmirdən olması barədə şəkk yaranarsa, onun dəmirdən olduğu dəqiqləşməyənədək bu alətlə qurban kəsmək kifayət etmir.**

## ALTINCI FƏSİL: TƏQSİR VƏ YA HƏLQ

**Məsələ 411.** **Həccin altıncı vacib əməli və Minanın əməllərindən üçüncüsü təqsir (saçı və ya dırnağı qısaltmaq) və ya həlqdir (başı qırxmaqdır).**

**Məsələ 412.** **Qurban kəsdikdən sonra başı qırxmaq, yaxud saçı və ya dırnağı qısaltmaq vacibdir. Qadınlar hökmən təqsir etməlidirlər və onların həlq etmələri kifayət etmir. Ehtiyata görə, qadınlar təqsir edərkən həm saçlarını, həm də dırnaqlarını (yəni onların hər ikisini) qısaltsınlar. Amma kişilər iki əməldən birini – həlqi və ya təqsiri seçə bilərlər və başı qırxmaq zəruri deyildir. Lakin əgər kişi ilk dəfə həcci yerinə yetirirsə, ehtiyat-vacibə görə, həlq etməlidir.**

**Məsələ 413.** **Həlq və təqsir etmək ibadətdir, buna görə də qəsdi-qürbət və xalis niyyətlə, riyasız şəkildə yerinə yetirilməlidir. Əgər belə bir niyyət olmadan həlq və ya təqsir yerinə yetirilərsə, kifayət etmir və halal olması həlqə və ya təqsirə bağlı olan işlər insana halal olmur.**

**Məsələ 414.** **Əgər bir şəxs üçün həlq və ya təqsiri başqası yerinə yetirirsə, niyyəti şəxsin özü etməlidir.**

**Məsələ 415.** **Ehtiyat-vacibə görə, vacib həlq və ya təqsir Qurban bayramı günü yerinə yetirilməlidir. Əgər bir şəxs bu hökmə əməl etməzsə, on birinci gecə və ya bundan sonra həlq və ya təqsiri yerinə yetirməlidir. Bu, kifayət edir.**

**Məsələ 416.** **Qurban bayramı günü hər hansı bir səbəbə görə qurban kəsə bilməyən şəxsin həlq və ya təqsiri də təxirə salması lazım deyildir. Əksinə, ehtiyat-vacibə görə, Qurban bayramı günü həlq və ya təqsir etmək vacibdir. Amma bu halda (yəni qurban kəsmək təxirə düşdüyü halda) həcc təvafını yerinə yetirməyin və Məkkənin digər beş əməlini yerinə yetirməyin düzgünlüyü məhəlli-işkaldır. Bu əməlləri yerinə yetirmək üçün qurbanın kəsilməsini gözləmək lazımdır.**

**Məsələ 417.** **Həlq və ya təqsir Minada yerinə yetirilməlidir. Bu əməli ixtiyari şəkildə Minadan qeyri bir məkanda yerinə yetirmək olmaz.**

**Məsələ 418.** **Əgər bir şəxs bilərəkdən, ya unutqanlıq üzündən, ya da məsələni bilmədiyinə görə Minadan qeyri bir məkanda həlq və ya təqsiri yerinə yetirsə, yaxud həlq və ya təqsir etmədən Minadan xaric olub digər əməlləri yerinə yetirsə, həlq və ya təqsir etmək üçün Minaya qayıtmalı və yerinə yetirdiyi digər əməlləri də yenidən yerinə yetirməlidir.**

**Məsələ 419.** **Qurban bayramı günü əvvəlcə cəmərеyi-əqəbəni rəmy etmək, sonra bayram günü qurban kəsmək imkanı olduğu təqdirdə qurban kəsmək, daha sonra həlq və ya təqsir etmək lazımdır. Əgər bir şəxs qeyd edilən ardıcıllığa bilərəkdən riayət etməsə, günah etmişdir, amma zahirə əsasən, bu əməlləri yuxarıdakı ardıcıllıqla təkrar etmək ona vacib olmur, baxmayaraq ki, imkan olduğu təqdirdə bu əməlləri təkrar etmək ehtiyata müvafiqdir. Məsələni bilmədiyinə görə və ya unutqanlıq üzündən sözügedən ardıcıllığa riayət etməyən şəxsin də hökmü eynidir.**

**Məsələ 420.** **Əgər bir şəxs Qurban bayramı günü Minada qurban kəsə bilməsə, amma hazırkı dövrdə Minadan xaricdə qurban kəsmək üçün ayrılan qurbangahda Qurban bayramı günü qurban kəsmək onun üçün mümkün olsa, ehtiyata görə, o, əvvəlcə qurban kəsməli, daha sonra həlq və ya təqsir etməlidir. Əgər bunu da etmək onun üçün mümkün olmasa, ehtiyat-vacibə görə, Qurban bayramı günü həlq və ya təqsiri yerinə yetirməlidir. Həlq və ya təqsiri yerinə yetirdikdən sonra o, ehramdan xaric olur. Amma Məkkənin beş əməlini qurban kəsdikdən sonra yerinə yetirməlidir. Əks halda, həmin əməllərin düzgünlüyü məhəlli-işkaldır.**

**Məsələ 421.** **Həlq və ya təqsir etdikdən sonra həcc üçün ehram bağlamaq vasitəsilə insana haram olan işlərin hamısı – qadın və xoş qoxu istisna olmaqla – insana halal olur.**

## YEDDİNCİ FƏSİL: MƏKKƏNİN ƏMƏLLƏRİ

**Məsələ 422.** **Qurban bayramı günü Minada yerinə yetirilən əməllərdən sonra Məkkənin vacib əməlləri yerinə yetirilir. Bu əməllər aşağıdakılardan ibarətdir:**

**Həcc təvafı (başqa bir adı "ziyarət təvafı"dır) və bu təvafın namazı, Səfa və Mərvə arasında səy etmək, Nisa təvafı və bu təvafın namazı.**

**Məsələ 423.** **Qurban bayramı gününün əməllərini yerinə yetirdikdən sonra həmin gün Minadan Məkkəyə geri qayıdıb, həccin digər əməllərini yerinə yetirməyə – yəni iki təvaf yerinə yetirmək və bu təvafların namazını qılmaq, səyi yerinə yetirməyə – icazə verilir, hətta belə etmək müstəhəbdir. Bu əməlləri "təşriq günləri"nin axırıncı gününədək, hətta zil-hiccə ayının axırınadək yubatmağa icazə verilir.**

**Məsələ 424.** **Bu təvafın və təvaf namazının, həmçinin Səfa və Mərvə arasında səyin qaydası eynilə umrənin təvafı, təvaf namazı və səyi kimidir, təkcə niyyətləri fərqlidir. Burada həcc niyyəti edilməlidir.**

**Məsələ 425.** **Yuxarıdakı əməlləri Ərəfat və Məş`ərdə vuquf etməmişdən, həmçinin Minanın əməllərini yerinə yetirməmişdən qabaq ixtiyari şəkildə yerinə yetirməyə icazə verilmir. Amma üç qrup insan istisna təşkil edir:**

**1- Minadan Məkkəyə geri qayıtdıqdan sonra heyz və ya nifas olacağından, buna görə də təvaf edə və təvaf namazını qıla bilməyəcəyi və pak olanadək də gözləyə bilməyəcəyindən qorxan qadınlar;**

**2- Minadan Məkkəyə geri qayıtdıqdan sonra izdiham səbəbilə təvaf etmək və təvaf namazı qılmaqda, yaxud ümumiyyətlə Məkkəyə geri qayıtmaqda aciz olan kişi və qadınlar;**

**3- Minadan Məkkəyə geri qayıtdıqdan sonra izdiham və ya izdihamdan qorxu səbəbilə təvaf etmək və təvaf namazı qılmaqda aciz olan xəstələr.**

**Məsələ 426.** **Əgər yuxarıda qeyd edilən üç qrup insan əvvəlcədən təvafları yerinə yetirib təvaf namazlarını qılsalar və səyi yerinə yetirsələr, amma sonradan onların üzrü aradan qalxsa, həmin əməlləri yenidən yerinə yetirmək onlara vacib olmur, baxmayaraq ki, həmin əməlləri yenidən yerinə yetirmək ehtiyata müvafiqdir.**

**Məsələ 427.** **Müəyyən üzrə görə (məsələn, yuxarıda qeyd edilən şəxslər kimi) Məkkənin əməllərini əvvəlcədən yerinə yetirən şəxsə qadın və xoş qoxu halal olmur. Yalnız həlq və ya təqsir etdikdən sonra "ehram bağlayan şəxsə haram olan işlər" bu şəxsə halal olur.**

**Məsələ 428.** **Nisa təvafı və bu təvafın namazı vacibdir, amma həccin rüknü deyildir. Odur ki, əgər bir şəxs bilərəkdən bu iki əməli yerinə yetirməsə, həcci düzgündür, amma qadın ona halal olmayacaqdır.**

**Məsələ 429.** **Nisa təvafı təkcə kişilərə aid deyildir, əksinə, qadınlara da vacibdir. Deməli, əgər kişi Nisa təvafını yerinə yetirməsə, qadın ona halal olmur və əgər qadın Nisa təvafını yerinə yetirməsə, kişi ona halal olmur.**

**Məsələ 430.** **"Səy"i həccin təvafından və təvaf namazından qabaq ixtiyari şəkildə yerinə yetirməyə icazə verilmir. Həmçinin "Nisa təvafı"nı həccin təvafından və təvaf namazından və səydən qabaq ixtiyari şəkildə yerinə yetirməyə icazə verilmir. Əgər bir şəxs bu ardıcıllığa riayət etməsə, əməlləri yenidən yerinə yetirməlidir.**

**Məsələ 431.** **Əgər bir şəxs səhvən və ya bilərəkdən Nisa təvafını yerinə yetirməsə və öz vətəninə geri qayıtsa, çətinlik və əziyyət çəkmədən Məkkəyə geri qayıda biləcəyi təqdirdə, geri qayıtmalıdır. Əks halda, naib tutmalıdır. Onun özü və ya naibi təvafı yerinə yetirməyənədək qadın ona halal olmayacaqdır.**

**Məsələ 432.** **Həcc üçün ehram bağladıqdan sonra umrə ehramında ikən haram olan işlər insana haram olur. Bu işlər tədricən və üç mərhələdə halala çevrilir:**
**1- Həlq və ya təqsir etdikdən sonra qadın və xoş qoxu istisna olmaqla, sözügedən haram işlər, hətta ov etmək belə, halal olur. Amma hərəm ərazisində ov etmək hər zaman haramdır.**
**2- Səyi yerinə yetirdikdən sonra xoş qoxu halal olur.**
**3- Nisa təvafı və bu təvafın namazından sonra qadın halal olur.**

## SƏKKİZİNCİ FƏSİL: MİNADA BEYTUTƏ

**Məsələ 433.** **Həccin on ikinci vacib əməli və Minanın dördüncü əməli "beytutə"dir.**

**Məsələ 434.** **Zil-hiccənin 11-ci və 12-ci gecələri Minada beytutə etmək, yəni gecələmək vacibdir. Beləliklə, Qurban bayramı günü iki təvafı yerinə yetirmək və bu təvafların namazını qılmaq, həmçinin səyi yerinə yetirmək üçün Minadan Məkkəyə gedən şəxs beytutə üçün Minaya geri qayıtmalıdır.**

**Məsələ 435.** **Qeyd edilən gecələrdə Minada beytutə etmək aşağıdakı şəxslərə vacib deyildir:**

**1- Xəstələr və onlara xidmət göstərən şəxslər, ümumiyyətlə müəyyən üzrə görə beytutə etməkdə çətinlik çəkən şəxslər;**

**2- Malının və yol azuqəsinin Məkkədə itməsindən və ya oğurlanmasından qorxan şəxslər;**

**3- Bu iki gecəni sübhədək Məkkədə ibadətlə keçirən və ibadətdən qeyri bir iş görməyən və yalnız zəruri iş üçün, məsələn, ehtiyac miqdarında yemək və içmək, yaxud ayaqyoluna getmək və dəstəmaz almaq üçün ibadətdən ayrılan şəxslər.**

**Məsələ 436.** **Minada beytutə etmək ibadətdir və bunun üçün niyyət etmək lazımdır. Niyyətin qaydası əvvəldə açıqlanıbdır.**

**Məsələ 437.** **Günəş qürub etdikdən etibarən gecə yarısınadək Minada gecələmək "beytutə" üçün kifayət edir. Əgər bir şəxs heç bir üzrü olmadan gecənin birinci yarısını və ya onun bir hissəsini beytutə etməzsə, gecənin ikinci yarısını beytutə etməlidir. Əlbəttə, gecənin ikinci yarısında ixtiyari şəkildə beytutə etməyin icazəli olması uzaq ehtimal deyildir.**

**Məsələ 438.** **Minada vacib beytutəni tərk edən və gecəni Məkkədə də ibadətlə məşğul olmayan şəxs hər gecə üçün bir qoyun kəffarə verməlidir. Ehtiyata görə, bu hökm baxımından üzrlü şəxs ilə üzrü olmayan şəxs arasında, yaxud məsələni bilməyən şəxs ilə məsələni unudan şəxs arasında fərq yoxdur.**

**Məsələ 439.** **Zil-hiccənin 12-ci günü Minadan xaric olmağa icazəsi olan şəxs şəri zöhrdən sonra Minadan xaric olmalıdır. O, şəri zöhrdən qabaq Minadan xaric ola bilməz.**

## DOQQUZUNCU FƏSİL: ÜÇ SÜTUNU DAŞLAMAQ

**Məsələ 440:** **Həccin on üçüncü vacib əməli və Minanın beşinci əməli üç sütunu daşlamaqdır. Bu rəmyin qaydası və şərtləri eynilə Qurban bayramı günü cəməreyi-əqəbəni daşlamaq kimidir.**

**Məsələ 441.** **Beytutənin vacib olduğu gecədən sonra gələn gündüzdə üç sütunu – cəməreyi-ula, cəməreyi-vusta və cəməreyi-əqəbəni – rəmy etmək, yəni daşlamaq lazımdır.**

**Məsələ 442.** **Rəmy etməyin müddəti Günəş doğandan qürub edənədəkdir. Beləliklə, ixtiyari şəkildə gecə vaxtı rəmy etmək olmaz. Amma rəmyi gündüz vaxtı yerinə yetirməkdə üzrü olan şəxslər, məsələn, çoban və ya can, mal və heysiyyət təhlükəsindən qorxan şəxslər bu hökmdən istisnadır. Həmçinin gündüz vaxtı izdiham nəticəsində rəmy etməkdə çətinlik çəkəcəklərindən qorxan qadınlar, yaşlılar və uşaqlar da gecə vaxtı rəmy edə bilərlər.**

**Məsələ 443.** **Gündüz vaxtı rəmy etməkdə üzrü olan, amma gecə vaxtı rəmyi yerinə yetirə bilən şəxs bu iş üçün özünə naib tuta bilməz. Əksinə, onun özü əvvəlki və ya sonrakı gecədə rəmy etməlidir. Amma gecə vaxtı belə rəmyi yerinə yetirməkdə üzrü olan şəxs (məsələn, xəstə insan) özünə naib tuta bilər. Lakin əgər bu şəxs özünə naib tutarkən üzrünün aradan qalxacağına ümidi olarsa, ehtiyat-vacibə görə, üzrü aradan qalxdığı təqdirdə gecə vaxtı özü də rəmyi təkrar yerinə yetirməlidir.**

**Məsələ 444.** **Rəmyi yerinə yetirməkdə üzrü olan şəxs əgər özünə naib tutsa və onun naibi rəmyi yerinə yetirsə, daha sonra rəmyin müddəti keçməmişdən qabaq bu şəxsin üzrü aradan qalxsa, bu şəxs özünə naib tutarkən üzrünün aradan qalxacağına ümidi olmadığı və naibi də onun yerinə rəmy etdiyi təqdirdə, bu rəmy kifayət edir. Rəmyi yenidən yerinə yetirməsinə ehtiyac yoxdur. Amma əgər üzrünün aradan qalxacağına ümidi vardısa, baxmayaraq ki, üzr ortaya çıxdığı zaman naib tutmaq icazəlidir, amma ehtiyat-vacibə görə, üzrü aradan qalxdıqdan sonra onun özü rəmyi təkrar yerinə yetirməlidir.**

**Məsələ 445.** **Üç sütunu daşlamaq vacibdir, amma həccin rüknü deyildir.**

**Məsələ 446.** **Rəmyi yerinə yetirərkən ardıcıllığa riayət etmək lazımdır. Yəni əvvəlcə cəməreyi-ula, sonra cəməreyi-vusta, daha sonra cəməreyi-əqəbəni daşlamaq lazımdır. Hər sütuna da bir qədər əvvəldə açıqlanan xüsusiyyətlərə malik yeddi xırda daş atılmalıdır.**

**Məsələ 447.** **Əgər bir şəxs üç sütunu daşlamağı unutsa və Minadan xaric olsa, “təşriq günləri”ndə bunu xatırladığı təqdirdə, imkan daxilində onun özü Minaya geri qayıdıb rəmyi yerinə yetirməlidir. Əks halda, özünə naib tutmalıdır. Amma əgər “təşriq günləri”ndən sonra bunu xatırlasa, yaxud bilərəkdən rəmyi “təşriq günləri”ndən sonrayadək təxirə salsa, ehtiyat-vacibə görə, onun özü və ya naibi Minaya qayıtmalı və rəmyi yerinə yetirməlidir. Sonrakı il isə onun qəzasını yerinə yetirməli və ya bu iş üçün özünə naib tutmalıdır. Əgər bir şəxs üç sütunu daşlamağı unudub Məkkədən xaric olsa, ehtiyat-vacibə görə, sonrakı il onun qəzasını yerinə yetirməli və ya bu iş üçün özünə naib tutmalıdır.**

**Məsələ 448.** **Sütunları istənilən istiqamətdən daşlamaq olar. Cəməreyi-ula və cəməreyi-vustanı daşlayarkən üzü qibləyə olmaq, yaxud cəməreyi-əqəbəni daşlayarkən arxası qibləyə olmaq şərt deyildir.**